**Bu bir xalq qəzetidi** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 72 (5904) 24 iyul 2021-ci il | Qiyməti 30 qəpik

## İlham Əliyev: “Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də”



**“Ancaq statusa gəldikdə, bu gün orada 25 min adam yaşayır. Orada gedən proseslərlə bağlı bizim məlumatımız kifayət qədər böyükdür, çoxşaxəlidir. Biz əvvəllər də, müharibədən əvvəl də bilirdik orada nələr baş verir. Əlbəttə, indi də bilirik, çünki onlar bizim ayağımızın altındadır. Orada yaşayanların real sayı 25 mindir. Başqa rəqəmlər də səsləndirilib ki, müharibədən sonra oraya 50 mindən çox adam qayıdıb, ola bilər, ancaq qayıdan o demək deyil ki, orada qalır. Qayıdıb, sonra çıxıb gedib, geri dönüb”.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

“İkincisi, bizim müxtəlif texniki vasitələrimiz, peykimiz var. Biz oradakı maşınların sayını bilirik. Biz insanların hərəkətini görürük. Necə deyərlər, digər obyektiv vasitələr var ki, onları əsas götürüb, dəqiq bilirik orada nə qədər adam yaşayır - 25 min maksimum. Biz gündəlik monitorinq aparırıq, neçə maşın girib Laçın dəhlizinə, neçə maşın çıxıb. Eyni zamanda, biz xaricdən gələn maşınları da görürük və demişik ki, buna son qoyulmalıdır, bu, yaxşı deyil, bu, bizim ərazimizdir. Bizim icazəmiz olmadan xarici maşın necə girə bilər ora. Bir də əgər kimsə hesab edir ki, biz bunu görmürük, səhv edir. Bəzi hallarda o maşınlara erməni nömrələri yapışdırılır. Ancaq biz oradayıq, biz dəhlizdəyik. Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də. Ona görə buna da son qoyulmalıdır. Oradan gündəlik çıxan maşınların sayı girən maşınlardan xeyli çoxdur. 25 min insan üçün status yaratmaq hansı məntiqə sığır?”, - dövlət başçısı vurğulayıb.

## DOR AĞACINA DIRMAŞANLAR, GƏMİMİZİ TƏRK EDİN

Məşhur bir anekdot var. Molla Nəsrəddin gəmidə gedərkən tufan olur. Dənizçilər hamısı qalxır dor ağaclarına, yelkənləri nizamlamaq üçün.

**Molla Nəsrəddin deyir:**

- Ay adamlar, ora niyə dırmaşırsız ey, bu gəminin altı aşır axı?..

İndi şükür Allaha, bizim gəmimiz aşmaz. Amma baxıram Rusiya da, Avropa Birliyi də, Avropa dövlətləri də guya bu gəmini xilas etmək üçün dor ağacına dırmaşırlar.

Düşün aşağı, cənablar və rədd olun bu gəmidən. Bu gəmi aşsa sizin ağırlığınızdan aşa bilər.

**Kəsəsi. Gediniz hoppanınız. Bu gəminin sükanı möhkəm əllərdədi.**

## JURNALİSTLƏRİN QƏHRƏMAN ELƏDİKLƏRİ İNDİ JURNALİSTLƏRƏ QARŞI ÇIXIR. SAĞ OLSUNLAR!

## ÇİN BİR AZ DA ÇALIŞSA AZAL-ın TƏYYARƏLƏRİNİ ÖTƏCƏK



Çində yenə bir qatar istifadəyə verilib, saatda 600 km. sürətlə hərəkət edir. Belə bir qatarın hazırlanmasında 30-a qədər üniversitet birlikdə fəaliyyət göstərib.

Bizim Milli Elmlər Akademiyamız və universitetlərimiz, görəsən, son 30 ildə nə yarada biliblər? Bir söz deyən kimi də xətirlərinə dəyir.

Belə sürət qatarlarının işlənməsi üçün Çində 35 min km. də yol çəkilib.

Amma məsələ ondadır ki, bu it əti yeyən çinlilər bizim kimi xaş bişirə bilmirlər.

## OPERATİV QƏRARGAH, XAHİŞ EDİRƏM, BİZİ AZ HƏDƏLƏYİN



**İslanmışın yağışdan qorxusu olmur. Xəstələnənlərin sayı 1500-2000 olanda bizi bu qədər hədələmirdiniz. İndi 200-250, vay sərt karantin rejiminə keçəcəyik, ay delta belə gəldi, ştam elədən getdi (Dilçilik İnstitutu, "ştam" bir "m"la yazılmalıdır, yoxsa iki "m"la).**

**Professor Adil Qeybullaya da bir sualım var. Hörmətli professor, biz hamımız nə vaxt qırılacağıq?**

**Hörmətli Operativ Qərargah, bir sualımız da sizə var:**

**- Toylara, mollara, məscidlərə icazə verdiniz, bəs, kitabxanalara nə vaxt icazə verəcəksiniz? Qorxursunuz ki, kitab oxuyub çox şey bilərik?**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## ƏRİNİN ƏVƏZİNƏ DÖYÜŞƏN XANIM - ƏNTİQƏ RƏŞİD



***Od parçasıdı, belə bir söz var ey, dəyirmanın gözünə ölü atsan, diri çıxar. Tanrı ona istedad da verib, cəsarət də, üç-dörd kişi ilə əlbəyaxa döyüşməyə güc də, əvəzində çox şeyini alıb. Yurd-yuvası dağılıb, əzizləri müharibədə şəhid olub, gəncliyini alıb. Məşhur filmdəki mahnıda deyildiyi kimi: "Bir xoş gün görmədim mən bu dünyada". Bir xoş gün görməyib bu dünyada. Xoşbəxtliyi üç yerdə görür: ailəsində, hələ də uzaqdan baxdığı azad olunmuş Ağdamda və bir də yazmaqda. Anası əsgər doğub bu qızı. Ona görə ailə quranda da əsgərlə ailə qurub. Əri İsmayıl Novruzov Birinci Qarabağ müharibəsinin döyüşçülərindən biridi. İkinci qrup Qarabağ əlilidi. Bədənində 23 düşmən qəlpəsi gəzdirir. Biri də ürəyindən bir neçə millimetr kənardadı. Bu qəlpələri də çıxarmaq mümkün deyil. İş qabiliyyətini itirib. Həkimlər 3 kiloqramdan artıq yük götürməyi qadağan ediblər ki, ürəyinin yanındakı qəlpə tərpənə bilər.***

***Sağ olsun bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, bədənində 23 qəlpə gəzdirən İsmayıl Novruzovun əlilliyini 2-ci qrupdan 3-cü qrupa keçirib. Ona görə sağ olsun yazıram ki, istəsəydilər əlilliyini və pensiyasını da ləğv edə bilərdilər, kim nə deyəsiydi ki?!***

*ardı səh-3-də*

## OPERATİV QƏRARGAHIN STATİSTİKASI ADAMI ÇAŞDIRIR EY...



**İslanmışın yağışdan qorxusu olmur.** Xəstələnənlərin sayı 1500-2000 olanda bizi bu qədər hədələmirdiniz. İndi 200-250, vay sərt karantin rejiminə keçəcəyik, ay delta belə gəldi, ştam elədən getdi (Dilçilik İnstitutu, "ştam" bir "m"la yazılmalıdır, yoxsa iki "m"la).

Professor Adil Qeybullaya da bir sualım var. Hörmətli professor, biz hamımız nə vaxt qırılacağıq?

Hörmətli Operativ Qərargah, bir sualımız da sizə var:

- Toylara, mollara, məscidlərə icazə verdiniz, bəs, kitabxanalara nə vaxt icazə verəcəksiniz? Qorxursunuz ki, kitab oxuyub çox şey bilərik?

## GÜNÜN LƏTİFƏSİ

Əflatun Amaşov yolnan gedir, görür ki, Azər Həstət bir dirəyi dikənə qoyub, cıxıb-düşür. Soruşur ki:

-Ay Azər, neynəyirsən?

**Azər Həsrət:**

- Heç Əflatun müəllim, dirəyin hündürlüyün ölçmək istəyirəm.



**Əflatun müəllim:**

-Qardaş, dirəyi uzat yerə ölç də.

**Azər Həstət:**

-Yerə uzandıranda, uzunluğu ölçülür, mənə isə hündürlüyü laxımdı.



# Prezident: "Nə status var, nə Dağlıq Qarabağ"

**Şarl Mişelin status, Dağlıq Qarabağ sözlərini işlətməməsi, əlbəttə, çox müdrik bir addım idi. Bu, dövlət xadiminin addımı idi. Biz bunu qiymətləndiririk və Ermənistan da bundan nəticə çıxarmalıdır. Nə status var, nə Dağlıq Qarabağ.**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü il iyulun 7-də süni qurum kimi yaradılmışdı. Sadəcə olaraq, o vaxt sovet hökumətində təmsil olunan ermənilər demək olar ki, bu qanunsuz və heç bir əsası olmayan qərarı qəbul etdilər və əlbəttə, Sovet Azərbaycanı o vaxt məcbur olub bununla razılaşıb, barışıb. Heç bizi soruşan da yox idi. Azərbaycan parlamenti müstəqillik bərpa olunandan bir ay sonra - 1991-ci ilin noyabrında Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv edib. Bu hamısı sənədlərdir, özü də qanuni şəkildə ləğv edib.

Bundan sonra nə üçün Dağlıq Qarabağ sözündən istifadə olunduğunu izah edən Prezident İlham Əliyev deyib: "Münaqişəyə görə. Beynəlxalq sənədlərdə də, ondan sonra danışıqlar masasında da, mən şəxsən özüm dəfələrlə Dağlıq Qarabağ sözünü işlətmişəm münaqişə ilə bağlı, ərazi ilə bağlı yox. Onu da bildirməliyəm ki, hər dəfə münaqişə ilə bağlı mən hansısa məsələyə toxunanda həmişə deyirdim Ermənistan-Azərbaycan Dağlıq Qarabağ. Heç vaxt Ermənistan-Azərbaycan demədən Dağlıq Qarabağ münaqişəsi sözünü işlətməmişəm. Bunun da səbəbi var, elə-belə deyil. Müharibə başa çatandan, münaqişə öz həllini tapandan sonra, əlbəttə, Dağlıq Qarabağdan danışmaq yersizdir. Ona görə mən demişəm ki, Azərbaycanda belə bir ərazi vahidi yoxdur. Əgər bu söz kiminsə xoşuna gəlirsə, mən etiraz etmirəm, getsinlər öz ölkələrində Dağlıq Qarabağ adlı bir vilayət yaratsınlar, yaxud da ki, bir rayon adlandırsınlar, ya cümhuriyyət yaratsınlar, onların işidir. Yəni, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı inzibati ərazi yoxdur və Şarl Mişelin bu sözləri işlətməməsi, əlbəttə ki, bizim mövqeyimizə göstərdiyi hörmətin əlaməti kimi qəbul edilməlidir. Status məsələsi də, həmçinin. Mən müharibə başa çatandan sonra noyabrın 10-da statusun yerini göstərmişdim. O, hələ oradadır və orada qalacaq yana-yana, əbədi. Ona görə bu məsələ ilə də bağlı başqa fikir ola bilməz".

## "Müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır, amma pulu Ermənistana verirlər"

**Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Avropa İttifaqının Ermənistana 2,6 milyard avro, Gürcüstana 2,3 milyard avro vəsait ayırmasına, Azərbaycana isə heç bir vəsait ayrılmamasına münasibət bildirib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı bu mövqeyi ədalətsiz adlandıraraq deyib: "Azərbaycana gəldikdə, 150 milyon avro rəqəmi səsləndirildi, amma konkret bizə deyilmədi bu, nə rəqəmdir və nə vaxt veriləcək, verilməyəcək, bunun şərtləri nədir? Əlbəttə, mən hesab edirəm ki, bu, ədalətsiz mövqedir. Çünki Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir həm ərazisi, həm əhalisi, həm də potensialı baxımından. Bu günə qədər Cənubi Qafqaz ölkələrinə belə böyük məbləğdə vəsait verilmirdi. Yəni bu, onu göstərir ki, bu vəsait məhz müharibədən sonra verilir. Yəni, bu vəsaitin verilməsinin səbəbi müharibədir. Əks təqdirdə, 30 il bundan əvvəl verəydilər, niyə məhz indi verirlər? Əgər belədirsə, onda müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır. Azərbaycana bu vəsait verilməlidir".

# "ZƏFƏR QƏLƏBƏSİ BÜTÜN REGİONDA YENİ REALLIQ YARADIB"

**"Avropa İttifaqı bizim üçün yaxın tərəfdaşdır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri tərəfdaşlığımızın göstərcisidir. Əməkdaşlıq çərçivəsində uzun illərdir müxtəlif sahələrdə birgə işlər görülür. Eyni zamanda, əməkdaşlığın şaxələndirilməsi üçün çox yaxşı əsaslar mövcuddur. Şarl Mişelin Qafqazın 3 ölkəsinə səfəri Avropanın iştirakını, Avropa gündəliyini nümayiş etdirir və bu, ölkəmizin gündəliyinə tam uyğundur.**

Avropa İttifaqı ölkəmizin əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizi Avropa İttifaqı ilə aparılır. Ötənilki ticarət dövriyyəsi 9,5 milyard ABŞ dolları idi. Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard ABŞ dolları təşkil edir. Üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Bu, həmçinin bizim iqtisadi fəaliyyətimizin miqyasını nümayiş etdirir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əlaqələrdə çox fəaldır. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib. Beləliklə, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir.

Enerji təhlükəsizliyinin təmin olunması əməkdaşlığın əsas istiqamətlərindən biri olduğunu vurğelayanPrezident İlham Əliyev bildirib ki,. Enerji təhlükəsizliyinin təmin olunmasında tarixi nailiyyətlər əldə olunub. Burada xüsusilə Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması qeyd olunmalıdır. Ötən ilin sonuncu günündə həqiqətən də tarixi əhəmiyyət kəsb edən hadisə baş verdi. Cənub Qaz Dəhlizinin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik kəməri artıq istismara verilib. Yanvarın 1-dən bu günədək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Əlbəttə ki, Avropa bazarına ixrac olunacaq təbii qazın həcmi artacaq.

"Azərbaycan Avropa İttifaqı ilə birlikdə uzun illərdir Cənub Qaz Dəhlizi Məşvərət Şurasına sədrlik edir. Avropa İttifaqı və Azərbaycanın rəhbərliyi altında Məşvərət Şurası bu layihənin uğurla həyata keçirilməsinin mühüm amili olub. 3500 kilometr uzunluğunda inteqrə olunmuş kəmər sistemi və nəhəng "Şahdəniz-2" qaz yataqlarının işlənməsi ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutları arasında əməkdaşlığın nadir təcrübəsidir. Cənub Qaz Dəhlizi layihəsinə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard ABŞ dollarından çoxdur. Eyni zamanda, artıq 15 ildir ki, Azərbaycan Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır. Qaz təchizatçısı kimi Azərbaycanın potensialı artacaq və bu, ixracatçı olaraq bizim üçün, tranzit ölkələr üçün və istehlakçılar üçün daha çox imkanlar yaradacaq. Çünki Azərbaycan qazı təkcə yeni marşrutdan olan qaz deyil, yeni mənbədən olan qazdır və bu, layihəni həqiqətən də enerji təhlükəsizliyi layihəsinə çevirir.

Nəhəng nəqliyyat infrastruktur layihələri Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın strateji əhəmiyyətindən xəbər verir. İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi regionda bütün kommunikasiyaların açılması üçün yeni imkanlar var. Bu gün daha miqyaslı əməkdaşlıq üçün yeni imkanlar yaranıb;

Prezident çıxışında İnnovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıq məsələləri barədə də məlumat verib: "Avropa İttifaqı ilə əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. Mövcud əlaqələrə əlavə, növbəti təkan verilməlidir. Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil. Avropa İttifaqının hesab etdiyi iki prioritet - iqlim dəyişməsi və rəqəmsal inqilab birgə başlanılan layihələrin əsasında olmalıdır.



*Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, üç Qafqaz dövlətinə səfəri ilə bağlı, Ermənistan səfərindən sonra 2021 ci il 18 iyul tarixində Azərbaycana gəlib. Paytaxt Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşdən sonra birgə mətbuat konfransı keçirilib. Mətbuat konfransında Azərbaycan Prezidenti Ali qonağı salamlayaraq, görüş barədə fikirlərini bölüşüb.*

Görüşə 44 günlük Zəfər Qələbəsindən sonra, hazırda Ermənistanla sərhədlərin delimitasiyasıyasında yaranan problemlərin də müzakirə olunduğunu bildirən Prezident mətbuat konfransı iştirakçılarının nəzərinə çatdırıb ki, "Avropa İttifaqı sərhədlərin delimitasiyasına köməklik göstərməyə hazırdır. Bir sıra öhdəlikləri öz üzərinə götürməsi Azərbaycanın məsuliyyətli dövlət olmasından xəbər verir. Avropa İttifaqı müxtəlif məsələlər üzrə irəliləyişə nail olmaq üçün səyləri dəstəkləməyə hazırdır. Sərhədlərin delimitasiyası məsələsində də Avropa İttifaqı yaxından iştirak etməyə hazırdır. Dayanaqlı sülh naminə əməkdaşlıq. Avropa İttifaqı regional əməkdaşlıq səylərində iştirak etmək, həvəsləndirmək arzusundadır. Dayanıqlı sülh və rifah naminə regionda olan ölkələr arasında əməkdaşlıq əlaqələri genişlənməlidir".

Azərbaycan öz Qələbəsi ilə bütün regionda yeni reallıq yaradıb

" Azərbaycan ərazilərinin işğalına son qoydu. Azərbaycan ərazilərinin uzun müddət Ermənistan tərəfindən işğalına son qoydu. Azərbaycan Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi. Ona görə də indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır"- deyə bildirən İlham Əliyev daha sonra qeyd etdi ki: "Bütün kommunikasiyaların açılması münaqişədən sonrakı nizamlanmada mühüm məsələdir. Mövcud müasir infrastruktur və nəqliyyat Azərbaycana öz ərazilərində layihələri nisbətən qısa zamanda həyata keçirməyə imkan verəcək. Çünki bu gün biz artıq şaxələndirilmiş nəqliyyat şəbəkəsinə malikik. Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Lakin buna baxmayaraq, biz Avrasiyada mühüm nəqliyyat və logistik hablardan birini yaratmağa nail olmuşuq. Biz qonşularımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisini tamamlamağa nail olmuşuq, o, 2017-ci ildə açılaraq Şərq-Qərb nəqliyyat dəhlizinə böyük töhfə verib. Eyni zamanda, biz Azərbaycanda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasına investisiya yatırmışıq. Artıq bu yaxınlarda Finlandiyadan Hindistana ilk yüklər Azərbaycan ərazisindən çatdırılıb. Sözsüz ki, istər Şərq-Qərb, istərsə də Şimal-Cənub nəqliyyat dəhlizləri ilə Azərbaycan vasitəsilə daşınacaq yüklərin həcmi artacaq"

Prezident İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması istiqamətində fəal işlər görüldüyünü, işğaldan azad edilmiş ərazilərimizdə üç beynəlxalq hava limanı inşa edilidiyini bildirib. "Birincisi - Füzulidəki hava limanı ilin sonunadək istismara veriləcək. İkincisi - Zəngilandakı hava limanı gələn il və Laçındakı beynəlxalq hava limanı isə 2023-cü ildə hazır olacaq. Beləliklə, Azərbaycandakı beynəlxalq hava limanlarının sayı 9-a çatacaq. İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan tərəfindən azad olunmuş ərazilərdə daha çox şirkətlər çalışacaq və daha geniş fəaliyyət olacaqdır. İşğaldan azad olunmuş ərazilər xarici investisiyalar üçün açıqdır. Burada xarici investorlar üçün maraqlı ola biləcək bir neçə sahə var. Birincisi, bərpaolunan enerji mənbələridir. Azad olunmuş ərazilərin çox böyük potensialı var və bizim ilkin hesablamalarımıza görə, enerji istehsalının potensialı 5 min meqavat günəş və min meqavat külək enerjisi təşkil edir. Sərmayə qoyuluşu üçün digər potensial sahə kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalıdır. Çünki torpaq olduqca münbitdir və bu da xaricilər üçün cəlbedici ola bilər. Xarici sərmayə üçün cəlbedici sahə turizm ola bilər. Qarabağ və Şərqi Zəngəzur təkcə Azərbaycanın deyil, bütün regionun ən gözəl bölgələridir. Dünya Bankının "Doing Business" hesabatına əsasən, Azərbaycan biznes mühitinə görə dünyada 28-ci yerdədir və Azərbaycanda xarici sərmayələr müvafiq qaydada qorunur".

Azərbaycanın hazırda artan iqtisadi potensialı barədə məlumat verən Prezident İlham Əliyev bidirdi ki, "Azərbaycan Xəzər regionunda ən böyük dəniz donanmasına malikdir. Bu, bizə Şərqdən Qərbə və əks istiqamətdə yüklərin nəqlini artırmağa imkan verir. Azərbaycan bu yaxınlarda yükaşırma qabiliyyəti 10 milyon ton olan və yükaşırma qabiliyyətinin 25 milyon tonadək artırılması potensialına malik Ələt Beynəlxalq Ticarət Limanının açılışını edib. Bu, Azərbaycanın logistik və nəqliyyat şəbəkəsinin ən mühüm elementlərindən biridir.

Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən Azərbaycanda yolların keyfiyyəti dünyada 24-cü, dəmir yolu xidmətləri 11-ci, hava yolu xidmətləri 12-ci yerdədir. Bu, həqiqətən də onu göstərir ki, Azərbaycan hökuməti infrastruktura böyük sərmayə

ardı səh-3-də

əvvəli səh-1-də



*Xanım ər seçəndə bax, belə bir igidi ər seçib. Rəşid adlı 10 yaşlı bir oğlu da var, onu da atası kimi, özü kimi əsgər kimi yetişdirir.*

*Hələ İkinci Qarabağ müharibəsi başlamamışdı. Yadınızdadırsa, cəbhə xəttinə təkər daşıyırdılar, şpal daşıyırdılar. Səngər möhkəmlədirdilər, qazilər hamısı bu hərəkatda fəal idi. Onun da əri qazidi, amma məlum səbəbdən bu hərəkatda iştirak edə bilmirdi. Onda bu xanım ərini İkinci Qarabağ savaşında da əvəz elədi. Məndən icazə alıb üz tutdu Ağdama. Təkər daşıdı, şpal daşıdı, səngər qazdı qazilərlə birlikdə. 44 günlük müharibədə də geri dönmədi, döyüşən əsgərlərin yanında oldu. O da döyüşdü, amma qələmi ilə. Hər gün saytımıza və qəzetimizə cəbhədən ən doğru xəbərləri göndərirdi. Göndərdiyi şəkillərin birində hələ onda Qərvənd azad olunmamışdı, səngərdən Qərvəndə baxdığı bir şəkili göndərmişdi. Əgər kiminsə duası ilə Qarabağı azad etmişiksə, onun baxışları ilə Qarabağı niyə azad etməyəydik ki? O baxışlarda nələr vardı, ilahi? Səsi yetən yerə əli yetməyən bu xanımın o baxışlarını Tanrı görürdü.*

*İndi səsi də yetir, əli də yetir.*

*Düzdür, azad olunmuş torpaqlara aparılan jurnalistlərin siyahısında onun adı heç vaxt olmayıb. Bəlkə də burda mənim də günahım var , amma böyük günah o siyahını tutanlardadı. Görünür, o siyahını tutanlar qəzetləri yaxşı oxumur, saytları da yaxşı izləmirlər ki, görən kimlər müharibədə harda olub.*

*Nə isə… Sosial şəbəkədə bir gileyinə rast gəldim. Və bu bayram günündə bu gileyinə görə də onu bərk danladım. Mətbuat Şurası bir qrup jurnalistə diplom təqdim edib, savaşdan yazan jurnalistlərə. Amma onun adı həmin siyahıda yoxdu. Mən də ona dedim ki, qızım, diplomu neyləyirsən, sən ən böyük mükafatını almısan da! Özü də Möhtərəm Prezident İlham Əliyevdən almısan - Qarabağ da azad olunub, Ağdam da, doğulduğun Qərvənd kəndi də, day nə istəyirsən?*

*Dedim, mükafatın əmində, maaşını 600 manata qaldırıram, gücüm buna çatır.*

*Qaldı diploma, istəyirsən birini yazım verim, nə çətin şeydi? Lap istəyirsən yazım "İlin jurnalisti". Guya onda nə olasıdı ki?*

*Sən yenə bir gün Möhtərəm Prezidentdən bir mükafat alacaqsan - o da yəqin ki, "Əməkdar jurnalist" fəxri adı olacaq.*

*Sonda. Mən bu yazını bilgisayara diqtə edərkən Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov telefon açdı və dedi ki, sizin müxbiriniz Əntiqə Rəşid müharibə dövrü Ağdamda - cəbhə xəttində olub, çox əziyyət çəkib, çox gözəl yazılar yazıb və biz də onu mükafatlandırmışıq. Və Mətbuat günü münasibətilə Əntiqə Rəşidi ayrıca təbrik elədi.*

*Belə-belə işlər, Mətbuat Şurası.*

# "ZƏFƏR QƏLƏBƏSİ BÜTÜN REGİONDA YENİ REALLIQ YARADIB"

yatırıb. Əlbəttə ki, regionda bütün kommunikasiyaların açılması Azərbaycana öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə maneəsiz çıxış əldə etmək imkanı verəcək. Eyni zamanda, Ermənistan sərhədinə doğru dəmir yollarının tikintisinə başlanılıb. Ermənistan sərhədinə doğru magistral yolun tikintisinə başlanılıb. Biz öz ərazimizdə Ermənistan ərazisinə 100 kilometrdən çox magistral və dəmir yolları tikməliyik. Ermənistan ərazisində bu, təxminən cəmi 40 kilometrdir. Regionda bütün kommunikasiyalar paralel olaraq açılmalıdır. Bu, Ermənistan üçün Rusiya və İranla dəmir yolu əlaqəsinə sahib olmaq imkanı yaradır. Bu, Azərbaycan üçün Naxçıvan Muxtar Respublikasına əlavə çıxış əldə etmək imkanı yaradır və regionun 4 ölkəsi - Azərbaycan, İran, Rusiya və Türkiyə bu yanaşmaya güclü dəstək verir".

Azərbaycan Prezidenti bütün regionda dayanaqlı sülhün bərqərar olmasına və beynəlxalq layihələrin inkişafına maneə olan amillər barədə məlumat verərkən bildirdi ki, "Rəsmi İrəvan hərbi cinayətkardır. Azad olunmuş ərazilərdəki dağıntılar beynəlxalq mediada geniş şəkildə təqdim edilib. İki müharibə arasındakı dönəmdə ermənilər işğal olunmuş ərazilərdə Azərbaycan xalqının tarixi, mədəni və dini irsini qəsdən məhv ediblər. Ağdam kimi böyük şəhər bu gün artıq mövcud deyil. Orada bir dənə də olsun salamat bina yoxdur. Füzuli kimi şəhər mövcud deyil. Cəbrayıl tamamilə dağıdılıb. Digər şəhərlər ermənilər tərəfindən qeyri-qanuni məskunlaşdırma üçün istifadə edilib ki, bunun özü də müharibə cinayətidir. Həmin məskunlaşdırma halları bəlli faktdır və etibarlı mənbələr tərəfindən təsdiq olunub.

Basdırılmış minalar ərazidə bərpa-quruculuq işlərinin aparılmasını əsaslı şəkildə çətinləşdirir. Azərbaycan 10 min kvadratkilometrdən artıq ərazini minalardan təmizləməli və yenidən qurmalıdır. Orada 100 minlərlə mina basdırılıb və müharibə başa çatdıqdan - 10 noyabr tarixindən bu günədək minalar səbəbindən 140 nəfər həlak olub və ya yaralanıb. O cümlədən iki jurnalistimiz həlak olub. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan digər müharibə cinayətləri də törədib. Onlar bizim şəhər və kəndlərimizi qadağan olunmuş sursatlarla, o cümlədən ağ fosforlu mərmilərlə atəşə tutublar. Bu, sübuta yetirilmiş faktdır. Bizim şəhər və kəndlərimizə qarşı "SCUD", "Toçka-U" və "İsgəndər-M" tipli ballistik raketlərdən istifadə olunub və həmin müharibə cinayətləri nəticəsində 100-dən artıq dinc sakin qətlə yetirilib".

**Hazırladı:**
**Rüstəm Hacıyev**

əvvəli səh-2-də

**22 iyul - Milli Mətbuat günündə Prezident İlham Əliyev iki şəhid jurnalistin - AZƏRTAC-ın əməkdaşı İbrahimov Məhərrəm Əli oğlunun və AzTV-nin operatoru Abışov Sirac Abış oğlunun ailələrinə mənzillər hədiyyə edib.**




# Şəhid jurnalistlərin ailələrinə ev verildi

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev şəhid jurnalistlərin ailələrini ziyarət edərək, mənzillərin sənədlərini, həmçinin şəhid ailəsi vəsiqəsini və onlara təyin olunmuş sosial ödənişlərin kartlarını təqdim edib.

Nazir bildirib ki, Prezident İlham Əliyevin 14 iyun 2021-ci il tarixli Sərəncamı ilə hər iki şəhid jurnalistimiz 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə də təltif edilib. Bu gün isə dövlət başçısının tapşırığına əsasən, şəhidlərimizin yaşadıqları əraziyə yaxın məsafədə (Sumqayıt şəhərində və Bakının Xocasən qəsəbəsində) yerləşən yaşayış komplekslərindən mənzillərin sənədləri onların ailə üzvlərinə təqdim edilir.

Eyni zamanda, M.İbrahimov və S.Abışova şəhid statusu verilib və onların ailə üzvlərinə şəhid ailələri üçün nəzərdə tutulan sosial ödənişlər təyin olunub.

Görüşdə vurğulanıb ki, bütün bunlar Prezidentin şəhid ailələrinə xüsusi qayğısının, eyni zamanda vəzifə borcunu ləyaqətlə yerinə yetirən mətbuat nümayəndələrinin əməyini, onların fədakarlığını daim yüksək qiymətləndirməsinin növbəti əyani təzahürüdür.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin çəkilişini həyata keçirən M.İbrahimov və S.Abışov iyunun 4-də onları aparan nəqliyyat vasitəsinin Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində erməni təxribatı nəticəsində tank əleyhinə minaya düşərək şəhid olublar.

# Mədətov Seyran Surxayoviç Seyran Oqanyan oldu

Ermənilərin keçmiş müdafiə naziri, indi revanşistlərin liderlərindən biri Seyran Oqanyan amşendir. Atası Surxay adlı azərbaycanlı, anası Şuşada üzüyanıq Aida adı ilə məşhur olan erməni harsınıdır. Aida əslən Çanaxçıdandır. Mayor Lisanoviç Xanbağında İbrahim xanı güllələyəndə onlar başqa mədətovlarla birlikdə xristianlığı qəbul etdilər və Şuşa şəhərinə köçdülər. Baltalara sap olub öz keçmiş dindaşlarına və soydaşlarına qənim kəsildilər. Aida yetkinlik yaşına çatanda Surxay adlı oğlana ərə getdi. Ancaq ərli olsa da, başqa kişilərə erotik xidmət göstərirdi. Ona görə də Surxay sulfat turşusu ataraq onun üzünü yandırdı. Aidanın sifəti xosunvay olanda Şuşa həbsxanasının rəisi Aziryan Suren idi. O Suren ki, raykom işçiləri yaltaqlanaraq ona Suren Gəncümoviç deyə müraciət edirdilər. Suren Gəncümoviçin göstərişi ilə Surxay həbsxanada öldürüldü. 1976-cı il idi. Rayon komsomol komitəsində məktəbli gənclər şöbəsinin müdiri idim. O zaman Seyran 7-ci sinifdə oxuyurdu. Aida Mədətova yanıma gəlib xahiş elədi ki, Seyranı Krıma Artek pioner düşərgəsinə göndərim. Dedim ki, ödənişsiz yerlər fəhlə və kolxozçu uşaqları üçün ayrılıb, sənin oğlunu göndərə bilmərəm. Aida sinəsini açaraq qaşlarını oynatdı. Üzümün yanıq olmasına baxma, bədənim təravətlidir. Gecə uşaqlar yatandan sonra bizə gəl. Razılaşmadım. Ayağa qalxıb gedəndə dedi ki, Bakıdan zəng edəcəklər, məcbur olub göndərəcəksən. Seyran orta məktəbi bitirəndən sonra Mədətov soyadı ilə universitetin hüquq fakultəsinə girdi. 1990-cı ildə Oqanyan familiyası ilə 366-cı polkun rota komandiri oldu. Ana babası Valerian Nədətov kimi Azərbaycan xalqının qanını tökməyə başladı. Bacısı orta məktəbi bitirəndən sonra oxumadı, anasının sənətini davam etdirməyə başladı. Mən son dəfə onu Qırmızı Bazar meşəsində üç şuşalı oğlanın arasında gördüm. Ulu Öndər bir dəfə AzTV-nin ekranından dedi ki, bizim Bakı şəhərində 12 min erməni gəlinimiz var. Hər erməni gəlinimiz bir Oğanyan doğubsa, biz yaxın günlərdə soğanın da qiymətinin artdığını görəcəyik. Hər 3 aydan bir qazın, 5 aydan bir işığın pulunu yeni tariflərlə ödəyəcəyik. Bir gün gecə yatıb səhər yuxudan ayılanda görəcəyik ki, aldığımız nəfəsin, udduğumuz havanın pulunu ödətmək üçün burnumuzun ucuna sayğac qoydurublar.



**İlhami Cəfərsoy**

İstər-istəməz düşünürsən, Əsgərandakı amşenlərlə Bakıdakı amşenlərin fərqi varmı? Elə bir fərqi yoxdur. Cənub qonşularımızın sözləri ilə desək: - Xər həmən xər əst, çuli digər əst.

# Artıq dünya bilir ki, Qarabağ Azərbaycandır

**Son günlərin siyasi proseslərini nəzərdən keçirəndə diqqəti daha çox cəlb edən ATƏT-in Minsk qrupunun həmsədrləri siyasi oyunların, əslində bu, oyundan daha çox siyasi təxribat sayıla bilər. Belə ki, 44 günlük Böyük Vətən müharibəmizin zəfərlə başa çatması problemi 30 il "süründürən", hətta bəzi hallarda onu nümayişkaranə şəkildə dondurmağa daha çox meyl göstərən ATƏT-in Minsk qrupu əlindən çıxmış siyasi oyunbazlığın geri qaytarılmasına cəhd göstərir. Adama elə gəlir ki, bu qurum az qala Ermənistanı yenidən işğala sövq etmək üçün özü təxribatlar törətmək istəyir.**



Bax, bu mənada Minsk qrupu həmsədrlərinin, xüsusilə Fransanın tutduğu mövqe, Amerikanın loallığı və Rusiyanın da ikibaşlı addımları dediyimizi, şübhələrimizi bir daha təsdiq edir. Elə Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə ölkəmizdəki diplomatik korpus numayəndələrinin, səfirlərin Şuşaya təşkil olunan səfərində məhz bu üç ölkənin - yəni Minsk qrupu həmsədrləri ölkələrinin səfirlərinin iştirak etməməsi buna əyani sübutdur. Doğrudur, həmin ölkələrin səfirləri üzrxahlıq xatirinə müxtəlif bəhanələr dilə gətirsələr də, onların bəhanələri daha çox təəssüf və təəccüb doğurur. Ən azından ona görə ki, "daha vacib" tədbirləri olduğunu vurğulayan həmin sədrlər səfərə özləri qatılmasa da, yəni getməsə də nümayəndələrini göndərə bilərdilər. Deməli, söhbət Ermənistan qarşısında bu ölkələrin öz üzərilərinə götürdükləri öhdəlikldən gedir. Yəqin ki, həmin öhdəlik də problemi dondurmaq, işğalçılara Azərbaycan torpaqlarını talamağa şərait yaratmaq, burada silah və narkotik ticarətinə dəstək verməkdir. Başqa bir formada, bu səfərə qatılmamanın səbəbini düşünmək mümkün deyil.

Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının Xarici İşlər Nazirlərinin aralıq konfransında videoformatda çıxış etməsi, təkcə regionumuzda deyil, eləcə də hərəkət iştirakçılarının təmsil olunduğu ölkələrdə də mövcud vəziyyət, reallıqlara qiymət verməsi, həmçinin bu gün tüğyan edən pandemiya ilə bağlı bir daha kəskin mövqeyi ortaya qoyması göstərir ki, hələ də dünyada ikili standartlar öz işini görməkdədir. Belə olmasaydı, ölkə prezidenti cənab İlham Əliyev həmin videoformatdakı çıxışında vurğulamışdır ki, "Mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsini təklif etdim. Ümumilikdə, həmin təşəbbüs BMT-yə üzv olan 150-dən çox dövlət tərəfindən dəstəkləndi və 2020-ci il dekabrın 3-4-də Xüsusi Sessiya baş tutdu.

Azərbaycan pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardlımı edir. Bununlda yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub". Bu fikirlərin ardınca dünyada baş verən, yəni həmin ikili standartlardan qaynaqlanan məsələyə toxunaraq Azərbaycan Prezidenti vurğulayıb ki, "Qlobal səhiyyə böhranı fonunda "Peyvənd millətçiliyi" narahatlıq doğurur. Azərbaycan ehtiyaclarından qat-qat artıq peyvənd tədarük edən, bəzi ölkələrin davranışını icti mai şəkildə qınayıb. Bu günədək dünyada mövcud olan peyvəndlərin 82 faizdən çoxu zəngin dövlətlər tərəfindən alınıb. Azgəlirli ölkələrin payına düşən peyvənd həcmi isə yalnız 0,9 faiz təşkil edir. Belə münasibət inkişaf etməkdə olan, xüsusilə az inkişaf etmiş ölkələrin öz əhalisini qorumaq imkanına mane olur".

Zənnimcə, ikili standartların, böyük güclərin yeritdiyi siyasətin ən yaxşı mənzərəsi, ən dəqiq və kəskin ifadəsi göstərdiyimiz iktibas, yəni Azərbaycan Prezidentinin çıxışında özünü ortaya qoyur. Bu da o deməkdir ki, həqiqətən təkcə Azərbaycan-Ermənistan münasibətlərinin həllində Dağlıq Qarabağ məsələsinin çözümündə deyil, bütün digər qlobal məsələlərin, problemlərin çözümündə də öz maraqlarından çıxış edərək məsələyə ikili standartların prizmasından baxırlar.

Bu gün Ermənistan və Azərbaycan arasında başa çatmış müharibənin yeni müstəviyə, yəni, qonşuluq müstəvisinə gətirmək əvəzinə, ATƏT-in Minsk qrupu həmin problemin yenidən, guya ermənilərin tapdalanmış hüquqlarının beynəlxalq hüquq əsasında çözümü adı altında ortaya atmaq bu qurumun gerçək mahiyyətini ortaya çıxarır. Deməli, indiki vəziyyətdə Azərbaycan Prezidentinin "Mən sizi dəvət etməmişəm!" və "Dağlıq Qarabağ problemi artıq bitdi, biz onu dəmir yumruqla tarixin arxivinə atdıq, yoxdur daha belə bir problem!" söyləyəndən sonra da Minsk qrupunun bölgəyə səfərlər etməsi, bəyanatlar verməsi çox gülünc görünür. Hətta sabiq xarici işlər nazirimiz cənab Tofiq Zülfüqarovun da dediyi kimi, bu gün ATƏT-in Minsk qrupuna Azərbaycanın heç bir ehtiyacı yoxdur. Bu qurum ömrünü başa vurubdur.

Qoşulmama Hərəkatının Xarici İşlər Nazirlərinin aralıq konfransında Azərbaycan-Ermənistan münasibətlərinə toxunan ölkə prezidenti, ali baş komandan cənab İlham Əliyev vurğulayıb ki, "44 günlük müharibə nəticəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabr ayının 10-da kapitulyasiya aktına imza ataraq Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etdi. Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi siyasi yollarla özünün ərazi bütövlüyünüi və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu".

Zənnimcə, söylənilən bu konkret fikir də ATƏT-in Minsk qrupu həmsədrləri üçün bir mesajldı. Amma təəssüf ki, həmin ikili standartlardan çıxış edən maraqlı dairələrin açıq və dolayı yolla göstərdiyi dəstəklərdən yararlanan Ermənistan tərəfi, xüsusilə onun bu gün Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdə sığınıb qalmış silahlı qruplaşmaları yenə də təxribatlar törətməyə, atəşkəsi pozmağa cəhd edirlər. Gah Kəlbəcər, Tovuz, Qazax istiqamətlərində, gah da Şuşa ətrafında ermənilər müxtəlif çaplı silahlarla mövqeləri atəşə tuturlar. Amma bütün bunlara baxmayaraq, Azərbaycan ordusu 44 günlük müharibədə erməni ordusunu darmadağın etdiyi kimi, həmin qruplaşmaları da tərk-silah etməyə qadir olduğunu hər an sübut edə bilər. Bunun üçün Azərbaycan əsgəri bütün imkanlara malikdi. Lakin imzalanmış üçtərəfli bəyanata uyğun olaraq Azərbaycan tərəfi hələ ki, Ermənistan rəhbərliyinin dürüst qərar qəbul edəcəyinə, gerçəkliklə barışacağına və sülh müqaviləsinin hazırlanmasına doğru addım atacağına ümid bəsləyir.

Bəli, Ermənistanın bir dövlət olaraq bugünkü durumu Paşinyan hakimiyyətinin ölkədəki mövqeyi, həmçinin bu ölkəyə kənardan verilən dəstəklər və bu ölkənin kənardan daha çox yönəldilməsi göstərir ki, günümüzün Ermənistanı xarici güclərdən asılı vəziyyətdədir. Ona görə də hansı qərarı qəbul edəcəyini tərəddüd edir. Bu da azərbaycan əsgərini daha sayıq olmağa və Ali Baş Komandanın əmri ilə lazımi anda ölkəmiz ərazisində sülhməramlılara sığınıb qalmış erməni törtöküntülərini də məhv etməyə hazır olmalıdır. Çünki bütün dünya bilir ki, Qarabağ Azərbaycandır!

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



# Rusiya-Özbəkistan birgə hərbi təlimləri başladı

**Əfqanıstanda hadisələr getdikcə daha da gərginləşməkdə davam edir. Qurban bayramının ilk günü prezident sarayına edilən raket hücumundan sonra hakimiyyət Talibana qarşı sərt tədbirlər görməyi planlaşdırır. Müqəddəs gündə həyata keçirilən belə bir hücum son vaxtlar həm əfqan hakimiyyətinin, həm də beynəlxalq oyunçuların nəzərində bir növ legitimləşməyə başlayan, Əfqanıstanın gələcəyini müəyyənləşdirmək naminə danışıqlar masası ətrafında əsas oyunçuya çevrilən talibləri yenidən "qanundankənar oyunçu" statusuna qaytara bilər. Maraqlı burasıdır ki, indi bu silahlı müxalifətlə danışıqlar aparan bütün tərəflər hələ də onu terrorçu qurum kimi tanımaqda davam edir.**

Raket hücumunun arxasında həqiqətən Talibanın dayandığına dair əldə konkret sübutlar yoxdur. Bəzi ekspertlərin qənaətinə görə bu aksiyanın arxasında hökumətin özü dura bilər. Məqsəd isə Talibana qarşı geniş və həlledici hücuma keçməkdir. Son günlər ölkənin şimal sərhədlərində baş verən canlanma da bu cür fikirlərin yaranmasına təkan verir. Artıq Rusiya və Özbəkistan hərbiçilərini əfqan sərhəddi boyu birgə təlimləri başlayıb. Talibanın sərhədlərin toxunulmazlığı barədə ard-arda verdiyi bəyanatlara rəğmən vəziyyətin nəzarətdən çıxacağı təqdirdə silahlı döyüşçülərin üzü şimala axışmayacağına heç kim qa qarantiya verə bilməz.

Xatırladaq ki, Mərkəzi Asiya ölkələrinin rəhbərliyi təkcə silahlı döyüşçülərlə yanaşı dinc əhalinin də ölkəyə axışacağından əndişəlidir. Elə indidən, yəni geniş hərbi döyüşlərin başlamasa da, artıq həm Özbəkistanın, həm də Tacikistanın şəhər və qəsəbələrində əfqan qaçqınlarının sayı günbəgün artmaqdadır. Yerli hökuməti tək bu qaçqınların yerləşdirilməsi və digər ehtiyaclarını qarşılamaları yox, həm də davranışları narahat edir. Artıq Daşkənddə əfqan qaçqınların sayı ən azı iki dəfədən çox artıb və onların yerli sakinlərlə problemləri başlayıb. Bir neçə gün əvvəl şəhərarası avtobusda ciddi qardurma yaranmışdı. Avtobusdakı əfqan qaçqınlar qısa ətəkil özbək qızlarını itələyib avtobusdan düşürdüklərinə görə ciddi qalmaqal yaranmışdı.

İndi bu cür qalmaqalları getdikcə daha da böyüyəcəyinə və ciddi qarşıdurmalara səbəb olacağı yerli rəsmiləri və əhalini bərk narahat edir. Odur sərhədlərin təhlükəsizliyi, nəinki silahlı döyüşçülərin, eləcə də qaçqınların ölkəyə axınının qarşısının alınması həmin ölkələrin rəhbərliyi üçün əsas prioritetə çevrilib.

**ADALET.AZ**

# Arzuxan Əlizadə: "Azərbaycan bu situasiyadan məharətlə istifadə etməlidir"

**İyulun 20-də Azərbaycan Prezidenti İlham Əliyev Prezident Putinin dəvətilə Rusiyada işgüzar səfərdə olub. Rusiya mətbuatının yazdığına görə, görüş zamanı başlıca müzakirə mövzularından biri Qarabağ məsələsi olsa da, detallar barədə heç bir məlumat yoxdur. Azərbaycan rəsmi orqanları da Putinlə görüşdə hansı məqamlardan bəhs olunması barədə konktret açıqlama verməyiblər.**



Azərbaycan İstiqlal Partiyasının sədri Arzuxan Əlizadənin sözlərinə görə, Putinlə ilə görüşdə əsas müzakirə mövzusu mütləq Qarabağla bağlı olub. "Hələlik görüşdə müzakirə olunan konkret detallar barədə nə Rusiya, nə də Azərbaycanın rəsmi orqanları ətraflı açıqlama verməsələr də, aydındır ki Prezident İlham Əliyev Azərbaycan cəmiyyətinin narahat edən bütün məsələləri Putinin nəzərinə çatdırıb. Əslində Putin özü də, Azərbaycanla sərhəddə atəşkəsin ermənilər tərəfindən son günlər mütamadi olaraq pozulmasından mütləq xəbərdardır. Çünki Ermənistanın bütün sərhədində Rusiya hərbçiləri təmsil olunurlar. Bundan başqa Xankəndindən Şuçaya atəş açılması və rus sülhməramlılarının buna göz yummasından ola bilməsin ki, Putinin xəbəri olmasın. Azərbaycan cəmiyyətində sülhməramlıların özlərini ermənimərамlılar kimi aparmasına günü-gündən etirazlar artır. Son günlər rus sülhməramlılarının bölgədən ümumiyyətlə çıxarılmasının tələbi teztez səslәndirilir. Putin buna biganə qala bilməzdi. Bu səbəbdən, onun Prezident İlham Əliyevi birdən-birə Rusiyaya dəvət etməsi elə də təəccüblü olmadı", - deyə partiya sədri bildirdi.

A.Əlizadə onu da əlavə etdi ki, Rusiya ilə Azərbaycan prezidentlərinin İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfərindən dərhal baş tutması diqqət şəkən məqamdır: "Şarl Mişelin Cənubi Qafqaz ölkələrinə səfəri zamanı verdiyi açıqlamalar onu göstərir ki, Avropa Birliyi Rusiyanın bölgədə təkbaşına hegemonçuluğuna göz yummaq istəmir. Buna görə də, Cənubi Qafqaz ölkələri arasında təkcə Ermənistan Azərbaycanla və Gürcüstanla müqayisədə 10-15 dəfə artıq maliyyə yardımının ayrılmasında da məqsəd Rusiyanın for-postu hesab edilən Ermənistanı onun caynağından qoparmaqdır. Seçkilərdən sonra Ermənistanda daha çox qərb yönümlü siyasətə meylin artması Rusiyanı qıcıqlanıra bilməz. Ona görə də, Azərbaycan bu situasiyadan məharətlə istifadə etməlidir."

**İLTİFAT**

# 8 saatdan artıq işləmək olarmı?

## RƏSMİ CAVAB



**Son dövrlərdə müəssisələrdə iş saatları ilə bağlı şikayətlər var. Sosial şəbəkələrdə də bununla bağlı paylaşımlar edilir. İş saatlarının çoxluğu, günə 12-14 saat iş rejimi, ayda bir dəfə istirahətin olması insanların narazılığına səbəb olur.**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 89-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan, həftəlik və gündəlik iş saatları ərzində işçilərin əmək funksiyasını yerinə yetirilməsi üçün müəyyən edilən zaman - tam iş vaxtı adlanır. Gündəlik normal iş vaxtının müddəti 8 saatdan, belə iş vaxtında uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq müəyyən edilə bilməz".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələ ilə bağlı hansı addımları atır? Qanunvericiliyə əks gedən insanlara qarşı hansı tədbirlər görür?

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mətbuat katibi Aynur Osmanqızı Adalet.az-ın suallarını cavablandırıb.

O, bildirib ki, 2021-ci ilin altı ayı ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən vətəndaşlardan daxil olmuş 6948 şikayət məzmunlu ərizə araşdırılaraq cavablandırılıb. Daxil olan müraciətlərin içərisində iş vaxtının rejimi qaydalarının pozulması ilə bağlı da müraciətlər yer alıb. Daxil olan müraciətlər rəsmi qeydiyyata alınaraq araşdırılır və fakt təsdiqini tapdıqda müvafiq inzibati tənbeh tədbirləri tətbiq olunur.

Əmək qanunvericiliyinin tələbləri nəzərə alınmadıqda, işçilərin əmək hüquqlarının pozulması halları qeydə alınarsa, bununla bağlı qanunvericiliyə uyğun olaraq Xidmətə şikayət daxil olarsa, dərhal fakt rəsmi qeydiyyata alınır və araşdırılır. Müraciətlər "Vətəndaşların müraciətləri haqqında" Qanunun tələblərinə uyğun olaraq araşdırılıb cavablandırılır.

Əmək hüquqları pozulan şəxslər Dövlət Əmək Müfəttişliyi Xidmətinə elektron qaydada (demx@sosial.gov.az), sosial şəbəkələrimiz vasitəsilə və ya poçtla (Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 37) müraciət edə, yaxud Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 142 - Çağrı Mərkəzi ilə əlaqə saxlaya bilərlər.

**Eminquey**

# Ölümü tələsdirənlər



Emin Piri

**Hər zaman deyildiyi kimi müharibədən sonralar müharibədən daha dəhşətli və çətin keçir. İstər müharibə iştirakçılarının psixoloji, cəmiyyətə adaptasiya olunması, istərsə cəmiyyətin bu cür yaşantılara hazır olması...**

Nə qədər acınacaqlı olsa da müharibənin psixoloji zərbələrini ara-sıra yaşamalı olacağıq. Dəhşətlərini də.

İnsanlar var ki, ölüm onlarçün adiləşib. Elə mülkidə də. Və o insanlar cəmiyyətimizdədir. Həmin insanların fədakarlığını, niyə belə olduğunu nəzərə alaraq yenidən cəmiyyətə qazandırmaq lazımdır. İstər şəxsin özünə, istərsə cəmiyyət naminə.

Bir nəfəri düşünürəm, görəsən hardadır, necə adaptasiya olub, salamatdırmı?

XTQ-nin zabiti idi. Hündürboy, yaşı təxminən mən kimi, saqqalı ağappaq. Elə bilərsən 60-70yaşı var. Müharibə dəhşətləri onu necə qocaldıbsa...

Noyabrın əvvəli. Digər bölmələr, əsasən piyada qoşunları həm atəş dəstəyi, həm düşməni oyalamaq üçün Şuşa ətrafı yüksəkliklərə yeridilir.( Top birlikləri digər artileriya, əsasən Mədətkənd ətrafı meşəlikdə və Çanaqçıda, piyada qoşunları isə daha irəlidəki yüksəkliklərdə və meşələrdə)

Xocalının Mədətkəndindən Çanaqçıya keçməli idik. Aradasa açıq ərazi var, minamyot və toplarla vururlar. Ani məqam gözləyirik ki,Mədətkənd ətrafı meşəlikdən Çanaqçıya girək. O açıq tarla ərazisində hədəf olmadan. O ərazidəsə vurulan maşınlarımız və.s var. Hələ də yanır, alovu belə sönməyib.

Biz də Çanaqçı, oradan Siqnax, oradansa daha irəli piyada meşə cığırları ilə Şuşa ətrafı yüksəkliklərdə mövqe tutmağa getməliyik. Həmin gecə bloknotuma bir cümlə yazıram: "burda işimiz "mişen"likdir".

Analizim o ki, bizim bölmələrin orda işi diversant hücumunun qarşısını almaq, düşməni oyalamaq, onlara ümumi yuxarı komandanlığın planında məhz bizlər hücum edəcəyik kimi görüntü yaradaraq çaşdırmaq, bizi görən zaman atacaqları artileriya bölmələrinin yerini kəşf etmək, daha düzüsü "mişen" olaraq XTQ və digər bölmələrin rahat hərəkətinə yardımçı olmaqdır. Təbii ki, bu cür "mişen" kimi söhbətləri əsgərlərlə etmirik. Amma bildiyim həqiqət klassik müharibə variantında "mişen"likdir.

Nə isə, hərəkət etmək istərkən birdən düşmənin minamyot və top atışları başladı. Meşədə hərəmiz özümüzü bir çalaya tulladıq qəlpələrdən xilas olmaqçün. O dediyim zabit özüyçün ayaqüstə gəzirdi. Dedim, axı, belə vuracaqlar. Dedi; öləndə öləcəm də...ölümdü də.. bir az gözləyin, indi onları mələdəcəyik.

Həmin an onun sözləri dəhşətli gəldi mənə...İnsana nə qədər öz ölümü adiləşə bilər. Və ya niyə öləciyi anı tələsdirsin...

Əgər sağdısa, yadına düşürsə, çox istərdim mülkidə görüşüm. Rəhmətə gedibsə Allah rəhmət etsin!

# "Ədalət" qəzetinin əməkdaşı müsabiqənin qalibi oldu



MEDİA fərdi jurnalist müsabiqəsinin qaliblərini açıqlayıb.

MEDİA-dan Adalet.az-a verilən məlumata görə, qaliblər aşağıdakı kimi müəyyənləşib:

"Ən yaxşı reportaj" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı bədii publisistika" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı ictimai-siyasi təhlil" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı sosial-iqtisadi təhlil" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı müsahibə" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı mədəniyyət materialı" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı idman reportajı və ya təhlili" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı köşə yazısı" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı jurnalist" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı oçerk" nominasiyası üzrə 5 nəfər, "Ən yaxşı ictimai-siyasi reportaj" nominasiyası üzrə 2 nəfər, "Ən yaxşı iqtisadi reportaj" nominasiyası üzrə 2 nəfər, "Ən yaxşı sosial reportaj" nominasiyası üzrə 2 nəfər, "Ən yaxşı mədəniyyət" nominasiyası üzrə 2 nəfər, "Ən yaxşı idman reportajı" nominasiyası üzrə 2 nəfər qalib olub.

**Qeyd edək ki, qaliblər siyahısında "Ədalət" qəzetinin əməkdaşı Əntiqə (Rəşid) Aslanova da var.**

# Nadir Şahın ordusunda talışlar...



## Zaur Əliyev

***Nadir Şahın ordusunda talışlar və Pəncabın talışlar tərəfindən fəthi***

Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbayjan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. İndiyə qədər rast gəldiyim mənbələrdə bütün müəlliflər talışları sülhsevər xalq adlandırır. Azərbaycanın tarixində əvəzolunmaz iz qoyan talış xalqı Babək Hürrəminin qurduğu Hürrəmiyə dövlətində, Atabəylər dövlətində, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində, Səfəvi və Əfşarlar imperatorluğunda, Qacarlar dövründə, Cümhuryyət illərində və ikinci müstəqillik illərində Azərbaycan dövlətçliyi tərəfində olublar. Qeyd edim ki, Azərbaycanda ermənilərin törətdikləri soyqırımlardan ən çox zərər görən xalqlardan biri də talışlar olub. Rus işğalına qarşı savaşda Talışlar Cümhuriyyətimizin yanında olublar. Cümhuriyyət ordusunda talış zabitləri və əsgərləri olub. Birinci və ikinci Qarabağ müharibəsi dövründə Talışlar Azərbaycanın müstəqilliyi uğrunda savaşıblar, şəhid və qazi olublar. Çoxları bilməsə də Sovetlərə qarşı başlanan milli azadlıq mübarizəsində üç rəngli Azərbaycan bayrağını gizli tikən və onu aksiyalarda qaldıran içərisində talışlar da olublar. Səfəvi hökmranı Şah İsmayılın uşaqlıq illərindən yanında xidmət edən talışlar onu qoruyublar. Səfəvi ordusunda göypaltarlılar kimi qaynaqlarda qeyd edilən talış əsgərləri Əfşar imperatorluğunun qurulmasında da yaxından iştirak ediblər. Nadir xan Əfşar 1725-ci ildə 30 hektar ərazini qala divarları ilə əhatəyə aldırır və Lənkəranı qala-şəhərə çevirir. Nadir şahın dövründə ərazinin mərkəzi Qızılağac kəndi, sonra Astara olmaqla hakimliklərə bölünmüşdü. Əfşarlar imperiyası dövründə Talışı vilayət hakimi idarə edirdi. Talış xanları sülaləsinin banisi Səfəvi nəslinə mənsub olan Ərdəbilli Seyid Abbas olmuşdur. Nadir şah rəsmi fərmanla Seyid Abbası talışın nəsli hakimi elan etmişdir.

Nadir şah Əfşar Hindistanı tamamilə fəth edən tarixi şəxsiyyətlərdən biri olub. Onun ordusu çevik və mütəşəkkil bir system əsasında qurulmuş idi. Orduda xüsusilə seçinlər içərisində beş min talış döyüşçüsü olubdur. Nadir şah Əfşar 1739-cu ildə Hindistanı tutmaq üçün maraqlı bir taktika işlədir. Bu planın müzakirəsində orduda yüksək rütbəli döyüşçülərlə görüş keçirilir.



Nadir Şaha Məhəmməd xan adlı sərkərdələrdən biri Pəncabın alınması üçün talış döyüşçüləri önə buraxmağı təklif edir. Təxminən əldə olunan qaynaqlardakı yazılara görə belə bir dialoq olur:

**Məhəmməd xan:**

Bura Pəncab vilayətidir. Tarlaları suvarmaq üçün Hind çayını və onun qollarını böyük və kiçik kanallarda bütöv sistem kimi birləşdirmişlər.Suvarılan torpaqlarda buğda və pambıq, şəltik və şəkər qamışı becərirlər. Burdailədə iki dəfə məhsul yığılır. Pəncab yalnız öz əhalisini deyil, həm də ölkənin başqa rayonlarını ərzaqla təchiz edir. Bu yerin alınmasında talışlar daha çox maraq göstərirlər.

**Nadir:**

-Nə olsun, qoy talış olsun. Onlar da bizdəndirlər. Sən indiyə qədər türkə arxadan zərbə vuran bir talış gördünmü?

Məhəmməd xan:

-Yox, görmədim. Kürd gördüm, fars gördüm, əfqan gördüm, mazandaranlı gördüm, gilək gördüm, amma talış görmədim. Adamın üstündə Allah var. Onlar düz tayfadırlar. Mərddirlər, sədaqətlidirlər

Siyo Əli xanın (Qaraxan) başçılıq etdiyi beş min nəfərlik Talış ordusu, güclü taktiki sxemlə Pəncab şəhərini tutur. Bu Hindistanda yerləşən düşmənlə mübarizə üçün strateji mövqe baxımından çox dəyərli şəhər idi. Talış əsgərləri gecə ikən şəhərə daxil olurlar. Onlar strateji yerləri ələ keçirib bütün hind oxçularını zərərsizləşdirlər. Şəhərdə silahları məhv edən talış döyüşçülər sabah səhər baş verəcək əsas döyüş üçün hind ordusunu zəiflədirlər və Pəncab onların nəzaritinə keçir. Şəhərdən çıxan əsas ordu isə düzənlikdə Nadir şahla döyüşə hazır vəziyyətdə idi. Arxada isə onlara heç bir kömək olmayacaq idi. Talış döyüşçülər Pəncabı ələ keçirib arxada düşmənə zərbə vurmaq üçün hazır vəziyyətdə idilər.

Fillərin hind ordusunda xüsusi əhəmiyyət kəsb etdiyini başa düşən şah öz ordusunun ön sırasına dəvələri düzür. O, döyüşçülərinə dəvələrin belinə dəmir sini qoyub içinə od vurmağı əmr edir. İstidən beli yanan dəvələr dəhşətli nərilti ilə fillərin üstünə hücum edirlər.Bundan ürkən fillər geri çəkilib hind döyüşçülərini əzir. Geri qaçan hind döyüşçülərini isə gözləyən talış dəstləri onlara ağır zərbə vururlar.

Daha sonra Nadir şahın qoşunu Hindistanın paytaxtı Dehliyə doğru hücuma başladı. Pisəvər, Lahor əyalətləri Nadir tərəfindən zəbt olunur. Nadirin ordusu çətin dağ aşırımlarından, çaylardan keçərək, Yəminabadın, Abadı, Kəşmiri, Xornalı və Hindistanın başqa şəhərlərini ələ keçirtdi. Nadirin qoşunları müqavimət görmədən Karnala (Dehlinin şimal-qərbində) qədər gəlib çıxır və 1739-cu ilin 24 fevralında Böyük Moğol sülaləsindən Məhəmməd şahın ordusunu darmadağın edərək, martın 20-də Dehlini tutur. Böyük Moğol dövləti üzərinə pulla altı milyon rupilik, qiymətli daş-qaşla 500 milyon rupilik xərac qoyulur.

Hindistanı tutan Nadir şah qızıl zərb pullar kəsdirib üstünə bu sözləri yazdırır:

"Dünya şahlarına şah olan şahlar şahı Nadiri Sahibhicran".

# Bir üzü qaranlıq, bir üzü işıqlı dünya



**Faiq QİSMƏTOĞLU**
*Əməkdar jurnalist*

Dünya yaranan gündən bir üzü qaranlıq olub, bir üzü də işıqlı. Yəni, şər qurtaran yerdən xeyir başlayıb, xeyir bitən yerdən isə şər baş qaldırıb və dünyanın qanunları zaman-zaman insanları sınağa çəkib, onları kədərləndirib, sevindirib və həmişə də düşündürüb. Təbii ki, insan varsa, orda dərd də olur, qəm də olur, kədər də, sevinc də. Yəni dünyada nə varsa, hər şey insan üçündür. Biz insanlar da Allah-Təalanın bizə verdiyi nə varsa, hamısı ilə razılaşmalı, hər açılan səhərimizə, udduğumuz havaya, yediyimiz çörəyə, içdiyimiz suya şükür eləməliyik!...

...Kəndimizə nə vaxtdan idi getmirdim. Axırıncı dəfə 2020-ci ilin noyabrın 8-də olmuşdum. Düzdür, bibim nəvəsi şəhid Elçin Süleymanovun həmin günü 40 məclisi idi. Bir gözümüz ağlayırdı, bir gözümüz də qələbə sevinci ilə gülürdü. Elə məclisdə olanda möhtərəm Prezident İlham Əliyevin Şuşanın azad olunması ilə bağlı xəbərini eşitdik. Hamı yas məclisində ayağa qalxdı, bu qələbə münasibətilə şəhidlərin ruhuna əl çaldı və sevinc, kədər göz yaşları ilə bu anları yaşadıq...

...O vaxtdan bəri tay kəndə gedə bilmirdim. Bu müddət ərzində neçə-neçə qohumum Allahın dərgahına qovuşmuşdu. Sözün düzü, yas məclislərinə gedə bilmədiyimdən çiynimdə ağır yük hiss edirdim. Həm də qohum-əqrəbanın yanında gözükölgəli idim. Axır ki, iyulun 15-də cümə axşamı Bəhmənliyə getdim və bir-bir Allahın dərgahına qovuşmuş qohumların məclisində iştirak elədim. İlk gedişim əmim nəvəsi Qarabalanın yas məclisi oldu. Atası Habil kişi, anası Bəxtimə bu dərdi necə çəkirlər bir Allah bilir, bir də özləri. 24 yaşında nişanlı olan Qarabala bir nadan sürücünün səhvi üzündən avtomobil qəzasında həlak olub. Biz toy gözləyirdik. Gözləyirdik ki, Qarabalının toyu olacaq və biz də toya gedəcəyik. Amma indi onların ağır dərdinə çiyin veririk. Habili, dayısı İlhamı və digərlərinin dərd içində necə çabaladığını hiss edirik və bu dərdə çiyin verərək mən Qarabalanın atası Habili qucaqlayıb bağrıma basıram. Göz yaşlarımızı saxlaya bilmirik. Qohumlar da bizə qoşulur. Dostum Arif də qəhərini boğa bilmir. O da dəsmalı ilə yaşarmış gözlərini silir. Bir-bir qohumların hamısına başsağlığı veririk. Deyirlər ki, dərd bir yerdə çəkiləndə daha yüngül olur. Çox sağ olsun bütün qohumlar, bu dərdi bir yerdə çəkirlər. Hava isti keçsə də, dərdin ağırlığı bu istiliyi yaddan çıxarır, yəni, dərd havanın istisindən də bizim üçün çox ağırdı...

... İnsanlar bir-birinə söykək olanda onların yaşama ümidi bir qədər də artır. Ordan çıxıb kəndimizin ağsaqqallarından biri olmuş Rizvan kişinin il mərasiminə gedirik. Orda da qohum-əqrəba masanın arxasında əyləşib. Biz yas yerinə çatanda molla "Quran" oxuyurdu. Məclisdəkilərə başımızla salam verib, kənar bir yerdə əyləşirik. Sonra doğmalarım Süleyman müəllim və Təbriz gəlib bizim yanımızda əyləşir. Molla "Quran" oxuyandan sonra günorta vaxtı olduğuna görə ehsan da verilir. Əlim süfrəyə uzanmır, sanki boğazımda nəysə ilişib qalıb. Amma qohumum Süleyman müəllim deyir ki, yoldan gəlmisiz, bir tikə çörək yeyin. Görürəm sürücü dostun Arif də sənə çox sədaqətlidi, həm də yorğundu. Bir tikə çörək yeyin, həm yorğunluğunuz çıxsın, həm də bir qədər sakitləşin. Bu sözlərdən sonra bir tikə çörək, bir tikə də pendir götürərək, yemək yeyirik. Süleyman müəllim onu da deyir ki, Təbriz, mən gedirəm iş dalınca, sən qonaqları tək buraxma. Mamam oğlu Təbriz həm dini yaxşı bilir, həm də "Qurani-Kərimdən" tam xəbərdardır. Boynuna qoyuram ki, gedək o biri yaslara, orda da "Quran" oxuyarsan. Hərçənd ki, bibim oğlu ürək əməliyyatından təzə çıxıb və səhhəti də o qədər yaxşı deyil. Amma buna baxmayaraq bütün kəndin xeyir-şərində iştirak edir.

...Ordan durub tanınmış jurnalist, daha doğrusu, hərbi ekspert Rəşad Süleymanovun yaşadığı evə yollanırıq. Çünki Rəşad da 7 ay bundan əvvəl dünyasını dəyişib. Çox istedadlı və savadlı jurnalist idi. Həm I Qarabağ savaşında, həm də II Qarabağ müharibəsində cəbhədə döyüş mövqelərində olmuş, çox maraqlı müsahibələr və reportajlar yazmışdı. O yeganə jurnalistlərdəndi ki, Müdafiə Nazirliyinin nöqsanlarını da göstərməkdə çəkinməzdi. Nə vardısa, hamısını, düzü düz, əyrini əyri qələmə alardı. Elə ədalətli və prinsipial mövqeyinə görə də Azərbaycan jurnalistikasında öz yeri vardı. Bu da Rəşadgilin evi. Atası Məhəmməd müəllim hava isti olsa da, bizi görən kimi həyətə düşür və evə dəvət edir və evdə divardan Rəşadın böyük portreti asılıb. Bu portret deyir ki, Rəşad ölməyib, o, həmişə olduğu kimi yenə sağdır. Atası Məhəmməd müəllimə, anasına başsağlığı veririk. Çay gətirirlər, ancaq içə bilmirəm. Çünki Rəşad mənə həddindən artıq çox yaxın idi. Daha doğrusu, onunla biz ruh dostu idik. Ürəyində heç vaxt heç kimə qarşı paxıllıq, xəbislik olmayıb. Əksinə, onun ürəyində həmişə sevgi və məhəbbət olub. Atası Məhəmməd müəllim deyir ki, məndən Aqil Abbasa salam söylə, onun "Batmanqılınc" romanı mənim çox xoşuma gəlib. Şuşanı azad edən oğlanlar o batmanqılıncın nəvələri, nəticələridi. Mən də deyirəm ki, sənin sözlərini müəllimə çatdıraram. Başsağlığı verib həyətə düşürük. Ordan isə digər yas yerlərinə gedirik...



Mamam oğlu Təbriz deyir ki, gəl, burdan gedək rəhmətlik Məmməd müəllimgilə, ordan da keçərik onun əmisi oğlu Nurəddinin yas yerinə. Maşına əyləşib Məmməd müəllimgilə gedirik. Orda da mamam oğlu Təbriz "Yasin" oxuyur. Çaya dəvət edirlər, içmirik. Keçirik digər qapıya. Orda da Nurəddinin məclisidi. Burda da "Yasin" oxunur. Onlara da təsəlli verib qalxmaq istəyəndə Füzuli rayonun Ağsaqqallar Şurasının sədri, böyük ziyalı və gözəl insan Zülfüqar Əliyev gəlir. Zülfüqar həkim Məmməd müəllimin qardaşı, Nurəddinin əmisioğludur. Elə mənim də əmim oğludu. Öz oturuşu, öz duruşu ilə həmişə el-obanın hörmətini, nüfuzunu qazanıb. Ağır olsa da, bu yas məclislərindən çıxanda bir daha rəhmətə gedən qohumların doğmalarına başsağlığı veririk. Allah-Təaladan onlara can sağlığı, sevincli günlər arzulayırıq...

Bu kədərli notlardan sonra dünyanın sevincli anlarını yenidən yaşayırıq və yenidən sanki bu dünya öz qapısını üzümüzə açır. Füzulidə çox möhtəşəm və tarixi işlər görülür. Füzuli Hava Limanı tikilir. Rayonun Şükürbəyli kəndindən Zəngəzura, Naxçıvana böyük yolun çəkilişinə başlanılıb. Bu elə-belə yol deyil ha! Bu, beynəlxalq əhəmiyyətli, dünya miqyaslı "İpəkyoludu". Və bu yolu da Türkiyənin tikinti şirkətləri inşa edir. Dağların sinəsini yarıb bu yolu çəkmək elə də asan deyil. Birdən partlayış səsi eşidirik, diksinən kimi oluruq. Yanımızdakı bələdçilərdən biri deyir ki, qorxub eləməyin, bu nə düşmən mərmisinin səsidir, nə də qəfil açılan minanın. Dağlarda yol çəkilişində istifadə olunan partlayışlardır. Dağı partladıb ordan tunel çəkmək istəyirlər. Çünki dağdan keçən yollar elə-belə yollar deyil, orda tikinti işləri görmək üçün bəzən partlayıcı qurğulardan da istifadə olunur ki, dağ aralansın və orda tikinti üçün şərait yaransın. Sanki bura bir vaxtlar böyük Səməd Vurğunun "Muğan" poemasında təsvir etdiyi yeni tikilən Mingəçevir şəhərinə bənzəyir. Orda da bir zamanlar Boz dağı yarıb şəhər salıblar və tikiblər və möhtəşəm bir görünüş inşa ediblər. O vaxtın qəhrəmanı olan Maniya və Sarvanlar indi bax bu yeni tikilən Şükürbəyli, Zəngəzur, Naxçıvan yolunda çalışırlar. Havaların nə qədər isti keçməsinə baxmayaraq, iş dayanmır, ağır texnikalar - bulduzerlər, ekskovatorlar, çınlıq, qum və tikinti materialı daşıyan iri yük maşınları öz işlərindədilər. Bu cür möhtəşəm tikintinin həyata keçirilməsi bizcə XXI əsrin ən möhtəşəm işlərindəndir desək, səhv etmərik və bu tikinti tarixə qızıl hərflərlə yazılan anlardan olacaq.

Füzulidə insanlar bu günə və sabaha çox ümidlə baxırlar. Ən azından onların bütün torpaqları işğaldan azad olunub və tezliklə o insanlar yurdlarına dönəcəklər. Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev də həmişə xalqın, camaatın arasında olub, onların problemləri, çətinlikləri ilə maraqlanıb. Mütəmadi olaraq kəndlərdə və yaşayış sahələrində səyyar görüşlər keçirib, elə insanların çox problemləri də həmin görüşlər zamanı həllini tapıb. Həftənin beşinci günüdür. İcra hakimiyyətinin qabağında bir neçə nəfər başçı ilə görüşmək istəyir. Onun köməkçilərindən biri olan Elşad müəllim hamını hörmətlə, nəvazişlə qarşılayır. Bir nəfər olsun belə diqqətdən kənarda qalmır. Birbaşa başçı ilə telefon əlaqəsi yaradır. Elə adam var dərdini telefonda Alı müəllimə deyir. Alı müəllim də öz məsləhətlərini verir və problemi həll edir. Başqa vətəndaşları ilə qısa zaman ərzində qəbul edərək dinləyir, onların üzləşdiyi problemi öyrənir və bu problemin həll olunması üçün aidiyyatı müəssisə və idarələrə göstərişlərini verir. Qəbula kim gəlibsə, hamısını icra başçısı diqqətlə dinləyir və onların bütün məsələlərinin həll olunmasına nail olur. Bir nəfər olsun belə diqqətdən kənarda qalmır. Təbii ki, icra başçısının insanlarla bu cür yüksək səviyyədə münasibəti və onlara hörmət bəsləməsi həmin adamların yaddaşında xoş izlər qoyur və icra hakimiyyətinə qəbula gələn insanlar razılıq hissi ilə oranı tərk edirlər...

Əmim oğlu və orta məktəb yoldaşım Zülfüqar Məmmədov həmin günlər kənddə idi. Qarabalanın yas məclisində görüşəndə dedi ki, vaxtın olsa, bizə gələrsən, bir stəkan çay içərik. Vaxtın az olmasına baxmayaraq, bir zaman tapdım və axşamüstü dostum Ariflə onu Bəhməndəki Quruçayın vadisində evində görüşdük. Düzdür, ora birinci dəfə idi gedirdim. Amma o yerlər, o yurdlar mənim üçün çox doğma idi. Bizim uşaqlığımız Quruçayda, onun yaxınlığındakı yarğanlarda keçib. Bu yarğanları sel gələndə yaratmışdı, indi həmin yerlər həyətyanı sahələrə çevrilib. Zülfüqar əmioğlu da orda özünə gözəl bir ev tikib. Həyətində bir-birindən bənzərsiz meyvə ağacları, yaşıllıqlar əkib. Hətta heç harda olmayan zeytun da var o həyətdə. Bu da təsadüfi deyil, çünki Zülfüqar müəllim ömrünün böyük bir hissəsini "Azərsun"da zeytun istehsalı ilə bağlı keçirib. Özü də çox savadlı və istedadlı mütəxəssis olub. Bir az çay içəndən, bir az qarpız, bir az da yemiş yeyəndən sonra həyətə düşürük. O, bir-bir böyütdüyü ağacları bizə göstərir və deyir ki, bax, bu yerlər bizim uşaqlıqda oynadığımız, gəzdiyimiz yerlərdir. Onun bal kimi bir oğlan nəvəsi bizə yaxınlaşır. Balaca kardon yeşikdə üç dovşanı var. Biri ağdır, ikisi qara. Deyir ki, baba, istəyirsən bu dovşanları birini sənə verim, apar nəvənə. Deyirəm çox sağ ol, Allah səni saxlasın! Uşağın alnından öpürəm, o da məni qucaqlayır. Deyəsən, qan çəkir. Həmin günü Zülfüqar müəllimin oğlu Vidadi də kəndə gəlmişdi. Çox tərbiyəli və ziyalı oğlandı, həm də gözəl həkimdi. Bir sözlə, mən Zülfüqar əmioğlugildə olanda dünyanın gözəlliyini, şirinliyini və böyüklüyünü gördüm. Bir daha gördüm ki, bir üzü qaranlıq dünyanın, bir üzü də işıqlı imiş. Bu işığı doğma yurdum Füzulidə, Bəhmənlidə, hər evdə, hər eşikdə gördüm və hiss elədim. Hiss elədim ki, hələ yaşamağa dəyər, hələ dünyanın işıqlı günlərini biz çox görəcəyik. Biz görəcəyik ki, Azərbaycan dünyanın ən qüdrətli, ən güclü ölkəsidir və dünyanın ən qüdrətli ölkəsi ilə həmişə fəxr edəcəyik, qürur duyacayıq...



**Əbülfət MƏDƏTOĞLU**
**madatoglua@mail.ru**

# Dünyamızın ədaləti Və yaxud da "Ədalət"li dünyada yaşadıqlarım

**Gəlin etiraf edək ki, biz tez-tez dünyanı qınayırıq. Onu etibarsızlıqda, gəlimli-gedimli olmaqda suçlayırıq, hətta bəzən emosiyalara uyub elə ifadələr işlədirik ki, sonra fərqinə varanda adamın dünyaya da yazığı gəlir, özünə də. Belə məqamda mən daha çox bir atalar sözünü xatırlayıram. Atalar deyib ki, "Ulağa gücü çatmayan palanı döyür". İndi özümüz özümüzlə bacara bilməyəndə üz tuturuq dünyaya. Başlayırıq onu sağdan, soldan vurmağa. Özdə təkcə adi bəndələr yox, bunu dünyaya meydan oxuyan fatehlər də, söz sərkərdələri də, sinəsi sazlı aşıqlar da, əli qələmli ən adi yazar da edir. Hətta bu yerdə yadıma böyük Səməd Vurğunun misraları düşür. Xalq şairi yazırdı ki:**

**Göylərə baxıram qapısı bağlı,**
**Yerlərə baxıram bağçalı-bağlı.**
**Həyat ixtiyari, sirli, soraqlı -**
**Biz gəldi-gedərik, sən yaşa dünya!**

Və yaxud böyük Məmməd Araz yazırdı:

**Dünya sənin, dünya mənim,**
**Dünya heç kimin.**

Bu sıranı kifayət qədər uzatmaq olar, davam etdirmək olar və bu davam edən sırada bir məntiqi məqam da var. Onu da yenə böyük Məmməd Araz deyib:

**Məni qınayanın beləsi belə,**
**Mən belə dünyanın nəyindən küsüm.**

Hə, indi bacarırsan küs və yaxud indi bacarırsan yaşa. Hər iki halda seçim ixtiyarı səndə. Mənsə başladığım bu fikir yumağını tərsinə çözürəm. İstəyirəm ki, əvvələ qayıdım. O günə ki, onda dünyaya "Ədalət" gəlirdi. Onda iyul ayının 26-sı idi. İl isə təqvimdə 1990-ı göstərirdi. İndi hesablayın, görün ədalət neçə ildi yol gəlib və bu neçə ildə nə qədər yüksəlib, nə qədər yayılıb, nə qədər qol-qanad atıb. Cərgəsində kimlər olub, kimlər gedib, kimlər köçüb, kimlər hələ də cərgədədi. Bu adi riyazi hesablamadı. Amma bu riyaziyyatda ömür ifadə olunub. Ona görə də xeyir-duası haqdan, adı Allahdan, sözü Tanrıdan olan "Ədalət" bütün çətinliklərin, bütün süni və həyati problemləri aşıb 2021-ci ilin bu gününə gəlib çıxıbdı. Və qəzetin öz dili ilə desək, hələ də "Ədalət" çıxır, hələ də "Ədalət"in təsisçisi, millət vəkili, yazıçı-publisist Aqil Abbasdır və hələ də mənim bu qəzetdə fikirlərimi bölüşmək, duyğularımı sərgiləmək, oxucularımla başbaşa qalmaq imkanım saxlanır...

Dünyanın bax belə qəribəliklərinin içərisində 31 il yol gəlmək və bu yolun da sevincini, kədərini, bütünlüyünü özünə köçürtmək, köçürtdüyünü də tarixləşdirib gələcək illərə daşımaq xoş olduğu qədər də şərəflidi. Bu mənada "Ədalət" şərəfli bir yol keçib və yoluna da davam edir. Elə bu davam edən yolda hər bir əməkdaş kimi mənim də iynə ucu boyda da olsa, izim, sözüm görünür, yaşayır. Görünən və yaşanan sözün ünvanı olan Ədalətdə görünmək və yaşamaq da bir xoşbəxtlikdi. Necə deyərlər, şükür xoşbəxtliyimə. Çünki Ədalət mənə dərd ortağı olub. Onunla bütün duyğularımı bölüşmüşəm. Hətta üzümü ona tutub demişəm ki:

**Qayğılı çəkdiyim, dərdli çəkdiyim,**
**Bu boyda Bakıda dərddi çəkdiyim!..**
**Mənim azadlıqda şərti çəkdiyim -**
**Cəzanın adını çəkənlər bilər.**

Hətta onda öncə bu qəzetin səhifələrindən hər kəsə üz tutaraq pıçıldamışam:

**Yandı evim-eşiyim,**
**Yandı divarım, daşım...**
**İsit, qoyma üşüyüm -**
**İsit məni göz yaşım...**

Ədalət mənə həm də olmuşların və olacaqların şahidi kimi sirr ünvanı olub. Bir kadına yazdıqlarımı öncə özü oxuyub, sonra tirajlayıb. Elə bu gün də yazdıqlarını sətir-sətir, cümlə-cümlə büküb özünə aparır oxucu qapısına, oxucu ünvanına. Çatdırır onlara duyğuların ifadəsini. Deməli, Ədalət həm də məni tanıdır, təqdim edir. Bax, bütün bu dediklərimin fonunda 31 yaşlı Ədalətin mənim üçün nə, kim olduğunu siz özünüz təxmin edin, mən bildiyimi bilirəm!..

Yazının bu nöqtəsinə qədər söylədiklərimi, sizinlə bölüşdüklərimi oxuyub zənnimcə, ədalət barəsində iki yol ayrıcında dayandınız. Birinci düşündünüz ki, axı bu dünyada ədalət yoxdur?! İkinci də 31 ildir oxuduğunuz Ədalətin simasında sizi razı salan və salmayan, sizin səsinizə səs verən və verməyən ədaləti düşündünüz. Son olaraq isə kimsə susdu, kimsə başını buladı, kimsə də şükür bu günə dedi. Bax, elə yol ayrıcında sizin çıxara bilmədiyiniz son qərar "Ədalət"in də axtardığıdı, "Ədalət"in də sorağında olduğudu. Deməli, sizli, bizli "Ədalət" olaraq ədalət axtarırıq. İnşallah, taparıq bir gün!

***

Tez-tez eşitdiyim bir söz var. Bu sözü də dostlar həmişə mənə ünvanlayırlar. Xəyalpərvərliyimi, sabahkı günlərə daha çox güvəndiyimi bağışlamırlar mənə. Bəzən birbaşa, bəzən sözarası deyirlər mənə ki, bir saat sonra nə baş verəcəyini heç kim bilə bilməz. Ona görə zamanın özünün yaxasından dərd tutmaq, zamanın özü ilə haqq-hesab çəkmək, qərar qəbul edib addım atmaq lazımdır. Sabahla bağlı isə sabah düşünüb, sabah danışarıq. Təbii ki, mən bununla razılaşmıram. Bu, hardasa bir ümidsizlikdi. Ancaq ümidsizliyin özü ilə özünə qapanmanın arasında da fərq var. Bu mənada mən tənhalığın, təkliyin, özünəqapanmanın xəstəsiyəm. Bunu mənə günah da saya bilərsiz, qəbahət də, xəstəlik də. Bütün hallarda bildiyim, inandığım odur ki, dörd divarın içərisində Allahın şahidliyi və sənin iştirakınla edilən söhbətlər bir ürəyin səsi, bir ürəyin hıçqırtısı, bir ürəyin fəryadıdı. Əgər bu dörd divarın daşlarını iynə ucu ilə ovub töksək, ondan kitab-kitab söz, nəğmə, fəryad, haray, dua əmələ gələr. Bu cildləri daşımaq üçün isə bir dəvə karvanını kirayə götürmək lazım olar. Bax, bu yozumun içərisində mənim yuxumun da, xəyalımın da, yaşadığım reallığın da hər bir anı bir gül ləçəyi və həmin ləçəyin üstündə də bir damla şeh kimidi. Və bu məqamda öz səsimə oyanıram. O səs deyir ki:

**Qarşında kiprikləri**
**Gül ləçəyi tək şehli...**
**Həmişə küskün, incik,**
**Dili də ki, gileyli -**
**dayanmışam...**

**Gözlərimi son güclə**
**Sıxmışam səhərədək!..**
**Səni yuxuda görmək**
**Anında mən, ay mələk -**
**oyanmışam.**

**Ruhum sızıltılardan**
**Bələnibdir ahlara...**
**Bilirəm ki, qarşında**
**Mən bütün günahlara -**
**batmışam.**

**İndi susmaq, danışmaq...**
**Fərq eləmir heç biri.**
**Əgər bağışlanmırsa,**
**Yozulmursa , heç sirri -**
**ürəyin.**

Bu misralar yaşamın özünü tam ifadə etməsə də, amma bir az təsəllidi. Daha doğrusu, ağrıyan ürəyin yaralarına bağlanan sarğıdı. Və mən də həmin sarğının kimin əli ilə bağlanmasını heç kimə açmıram, demirəm. Düşünürəm ki, o əlin sahibi o yaranı bağlayacaq Kəs özü işarəmi görür, duyur və bilir. Təbii ki, bu qədər şərhdən sonra ikinci şərhə də heç yer qalmır. Amma...

Amma bütün hallarda göy üzündən, tanrının özündən gələn sevgini göstərmək, reklam etmək bir az gülüş doğurur, istehzaya səbəb olur. Axı ürək kimə aiddirsə, kimin üçün döyünürsə, onu deməyə gərək ki, dil dönməsin. Əgər döndüsə, deməli ürək bütünlüklə o sevgiyə aid deyil. Hələ o ürəkdə nəsə çatmır. Bax, elə bu səbəbdən də mən Tanrıdan gələn pıçıltıları misralamağa, şeirə çevirməyə özümü borclu sayıram. Düşünürəm və əminəm ki, Allah məni bir bəndə olaraq bu missiya ilə şərəfləndirib, bu vəzifəni icra etmək üçün Yer üzünə göndərib. Göndərib ki, sevgidən yazım, sevgini yaşayım, sevgini özümdən sənə, səndən özümə daşıyım. Hətta bəzən küskün halda olsa belə, deyim ki:

**Kipriklərin çətirin,**
**Üstümdən yığma, gülüm.**
**Könlümün çəkdiyinə -**
**Könlünü sıxma, gülüm!**

**Günümdən gün kəsirəm,**
**Girovunam - əsirəm...**
**Görməyə tələsirəm -**
**Özünü yıxma, gülüm...**

**Həsrət sanki təmənə,**
**Dən olsa da tən, mənə!**
**"Can" demədən sən, mənə -**
**Yuxumdan çıxma, gülüm!**

Bax, elə bu ovqatın içində də yenə üzümü dünyaya tuturam. Axı, baş verənlər bu dünyanın həm gözünün önündə, həm də ovcunun içərisində gerçəkləşir. Ona görə də "ovcunun içi"ni xüsusi vurğulayıram ki, bu dünya bizi öncə ovuclarını açaraq qarşılayır, sonra da ovuclarını yumaraq öz dərinliyinə çəkib aparır. Bu məqamda mən bir az şairlik edirəm. Necə deyərlər, havalanmış kimi göyə də, yerə də səslənirəm. Səsləndiyim, daha doğrusu, səsdən sözə çevirdiyim isə dörd misradır.

**Məni göydən ayırıb,**
**Qaytarın yerin üstə.**
**Sevgi istəyən olsa -**
**Məni də verin üstə!..**

***

Bir damın altında, bir köynəkdə yaşamaq, bir adı daşımaq və o damın da, o köynəyin də, o adın da hər halını özününküləşdirmək, ona sahib çıxmaq, onunla nəfəs-nəfəsə olmaq böyük hünər tələb edir. Bir az da dəqiq ifadə etsək, dözüm zərurəti yaradır. Bu mənada "Ədalət"in damı altında olduğum illər kəsiyində mən zamanın bir az da yaxından gördüm, yaxından duydum. Az qala bəzən zamanın bütün qatlarına baş vurdum. Və nəhayət, gəldiyim qərar, çıxartdığım nəticə bu oldu ki, Yer üzü bəzən adama göy üzü qədər uzaq olur. Bu uzaqlığı yaradan da anlamaq, anlatmaq məsələsidi. Neyləyək ki, bəzən biz özümüz anlamadığımız kimi, bizi də anlamırlar. Bu da son nəticədə adamın təkcə çevrəsi ilə yox, həm də özü ilə üz-üzə qoyur. Hətta bəzən elə bir durum yaranır ki, hər şeyi alt-üst etmək, hər şeyin nöqtəsini qoyub... beləcə, bir ömrün az qala yarıdan çoxu həmin o anlamanın və yaxud da anlamamağın güdazına gedir...elə bu məqamda da son şeirlərimdən biri yadıma düşür. O şeiri başqa ovqatla, başqa istəklə yazmışam Sənə! Əslində mən yazmamışam, mən haqdan gələn pıçıltını misralamışam, vərəqə köçürmüşəm. İndi də uca səslə oxuyuram:

**Elə düşünmə ki, məndən uzaqsan,**
**And olsun Allaha, sən yanımdasan!**
**Havasan, işıqsan, susan, torpaqsan -**
**Allahın özütək hər anımdasan!**

**Elə düşünmə ki, səndən uzağam -**
**Kölgənəm, fikrinəm, dildə sözünəm.**
**Küləyəm, yağışam, odam, sazağam -**
**Anında, ayında, ildə özünəm!**

**Elə düşünmə ki, biz aralıyıq -**
**Sən sərhəd çəkmisən, ya mən ölmüşəm...**
**İkimiz bir dərddən biz yaralıyıq -**
**Sənə, o dünyadan geri dönmüşəm!**

Bəli, buy azı mənim dünya ilə, "Ədalət" ilə, duyğular ilə baş-başa qaldığım anın müəyyən məqamlarıdı. Necə deyərlər, içimdən gəlib keçənləri dünyanı, "Ədalət"i əlimdə bayraq kimi tutub onun altında oxuculara səsləndim. Yəqin ki, səsim, sözüm kimlərəsə çatdı... çatmadısa, demək dinləmək istəmədikləri üçün çatmadı. Onlardan incik deyiləm. Çünki səs də, söz də hərəyə bir cür təsir edir. Bu özü də həyatın, dünyanın, elə "Ədalət"in də özündə ifadə etdiyi nüanslardandır. Və...

Gəlin, dünyanı da, ədaləti də bir az sərbəst, rahat buraxaq. Yapışaq ürəyimizin, sevgimizin əlindən, ətəyindən və bir də sığınaq Allahımıza. Sığınaq ki, ədaləti unutmayaq. Sığınaq ki, sevgimizin bizi daşıdığı ünvana yetişə bilək...

# İllərin dostu

## Təbrik dolu düşüncələrimin ünvanı



**Sona Çərkəz**
*BDU-nun baş müəllimi, "Qızıl qələm" Media mükafatçısı, Azərbaycan Yazıçılar Birliyinin üzvü*



*Tamella Əliyeva 1951-ci ildə Beyləqan şəhərində anadan olub. Çox kiçik yaşlarında öncə anasını, orta məktəbi bitirdiyi ildə isə atasını itirib. Xalasının himayəsində böyüyüb. 1969-cu ildə BDU-nun Jurnalistika fakültəsinə qəbul olunub. Universitetdə oxuduğu illərdə Azərbaycan Radio və Televiziya şirkətində verilislər hazırlayıb. 1974-cü ildə Universiteti yüksək qiymətlə bitirərək, elə BDU-nun Jurnalistika fakültəsində əmək fəaliyyətinə başlayıb. Həmin il ailə qurub. 1987-ci ildə Qərbi Avropa, Amerika ve Avustraliya Ədəbiyatı üzrə aspiranturaya qəbul olunub. 1992-ci ildə Azərbaycan Amerika Ədəbi Əlaqələri üzrə dissertasiya müdafiə edib. 1993-cü ildə Xarici Ədəbiyyat Tarixi kafedrasında baş müəllim kimi fəaliyyətini davam etdirib. 1998-ci ildə doktor elmi dərəcəsi almışdır. 1998-ci ilin dekabrında Türkiyənin Eskişehir Osmangazi Universitetindən dəvət alaraq orada çalışmağa başlamışdır. 2002-2004-cü illərdə Azərbaycana dönərək BDU-da işləyən Tamella xanım 2004-cü ildə yenidən Türkiyəyə dönüb. 2013-cü ildən Eskişehir Osmangazi Universitetinin professorudur. 2016-cı ilin oktyabr ayında Muş Alparslan Universitetindən dəvət olunub. Türk Dili və Ədəbiyyatı Kafedrasının müdiri təyin olunub. 2018-ci ildə həmin universitetində Jurnalistika fakültəsinə dekan təyin olunub. Hal-hazırda həmin vəzifədə çalışır. Bu günədək 200-dən çox elmi məqalənin, 3 elmi kitabın müəllifidir. Tamella xanımın 10-dan çox kitabı Türkiyə türkçəsinə çevrilərək çap olunub. Bir çox qəzet və jurnalların təmsilçisidir. Xarici ölkələrdə elmi məqalələri nəşr olunub. Türkiyədə Yunus İmrə, Almaniyada Nizami Gəncəvi, Azərbaycanda Türk Dünyasına xidmət mükafatlarına layiq görülüb.*

**Mən hər vaxt o düşüncədəyəm ki, həyatda hər bir insanın taleyi onun yaşadıqlarının uğuru və nailiyyətləri ilə, acısı və şirini ilə gözəl bir əsərdir. O da ola zəhmətlə xəmrəsi yoğrulan mənalı insan taleyi... Tamella Əliyeva.**

Vətənpərvərliyi, insanpərvərliyi, zəhmətsevərliyi, ən önəmlisi də dostluqda dəyanətli olması qəhrəmanımın xarakterinin zənginliyini müəyyənləşdirən əsas xüsusiyyətlərindəndir. Bunlar bir insanın xarakterinin aşılmasında sanıram çox əsas meyarlardandır. Tamella xanımın geniş elmi yaradıcılığını da yuxarıda sadaladıqlarımın üstünə gəlsəm əminəm ki, məqaləm çox oxunaqlı və maraqlı olacaq. Lakin deyəcəklərimin hamısını bir məqaləyə də sığışdırmaq müşkül olacaq.

Mən onu Bakı Dövlət Universitetinə gəldiyi illərdən tanıyıram. Mehriban, səmimi, duyğularını gizlətməyən, ətrafında olan hər kəslə ilımlı davranmağı bacaran, qələmi əlindən düşməyərək söz və əməl birliyinə önəm verərək, onu yaxından tanıyanların sonsuz sevgisini qazanan Tamella xanım həm də çox qayğıkeş ailə xanımıdır, anadır, nənədir. Uzun illərdir qardaş Türkiyədə elmi-pedaqoji fəaliyyətini davam etdirən Tamella xanım daima ailəsinin, övladlarının, nəvələrinin qızı qədər sevdiyi gəlini, eləcə də həmkarlarının və dostlarının qayğıları ilə yaşayır və hər an onları düşünür. Onunla söhbət edərkən hiss edirəm ki, ifadə etdiyi hər kəlməsindən sevgi seli süzülür. Doğrudan da bəşəriyyəti sevgi qoruyan kimi insanları da ülvi münasibətlər birləşdirir. Dünya da sevgidən yaranıb axı. O, günəşin doğmasını, ayın anasının qoynuna çəkilməsini, gülü-çiçəyi, quşları, ümumiyyətlə hər birimizin görüb dərk elədiyini o qədər sevgi ilə dilə gətirib, yazıb insanlara çatdıra bilir ki, sanki onun düşüncələrinin qanadında hər an gördüklərimizi yenidən görürük. Tamella xanım mənalı ömründə xeyirxahlığa arxalanan mərhəmətli insanlardandır. Onun imkanı olduqca BDU-dakı həmkarlarını Türkiyənin ayrı-ayrı şəhərlərində, ali məktəblərində keçirilən simpoziumlara, elmi konfranslara, toplantılara təkidlə dəvət etməsinə şəxsən mən özüm şahidəm. Dəvət etdiyi insanları öz evində qonaq saxlamaq, onlara diqqət göstərmək də Tamella xanıma xas olan cəhətlərindəndir. Mənim özüm də əzizim Tamella xanımın dəvəti ilə dəfələrlə bu dəvətləri almışam və o toplantılarda iştirak etmişəm. Əslində Tamella xanımın qanına, canına hopmuş bunca ünsiyyətciliyi və işgüzarlığı ilə yaşca özündən kiçiklərə də, böyüklərə də örnəkdir sanıram. O qədər imkanı olan və ətrafına, dostlarına, doğmalarına etinasızlıq göstərənləri tanıyırıq ki... Əməlində və əqidəsində daim ürəyinin səsinə qulaq verib cəmiyyətdə hamıya qarşı xoş niyyət sərgiləyən geniş qəlbli insanların çoxluğu millətin baş ucalığıdır.

Bakı Dövlət Universiteti sözün tam mənasında Tamella xanımın ikinci evi idi. Onun öz işinə vicdanla yanaşması filologiya fakültəsində hər kəsin sevimlisi etmişdi. Uzun illər Tamella xanım mənim rəhmətlik ömür-gün yoldaşım Çərkəzlə filologiya fakültəsinin qiyabi şöbəsində çalışmışlar. Onu da mütləq qeyd etmək istəyirəm ki, Tamella xanımın sakit təbiətli olmağı, ailəsinə olan cəfakeşliyi, işini sevməsi səbəbi ilə Çərkəz müəllim Tamellaya yüksək dəyər verərdi. Tamella anasını çox erkən itirdiyindən, xalası Dilgüşə xanım ona anasını əvəz etmişdi. Tamellanın qayınanasına olan sədaqət dolu münasibəti, hörməti də çox təqdirəlayiq haldır. O, illərlə zabitəli qayınanasına gəlin deyil, əsl qız olub desəm yanılmaram. Qayınanası öz yeganə oğlunu son anda elə əmanətləyib ki, bu gün də Tamella o anları ürək sızıltısı ilə xatırlayır və həyat yoldaşı Əlini də ana əvəzi qorumağa çalışır. Hər dəfə Türkiyədən vətənə qayıdanda ilk işi qayınanasının məzarını ziyarət etmək olur. Məncə insanın cəfakeşliyi həyatında bir ömür boyu ən gözəl hissləri qabarıq şəkildə ortaya qoyur və yaxşı mənada başqalarından fərqləndirir. Qələmi, elmi və helmi ilə, ən əsası isə zəhməti ilə ocağının istisini qoruyan, onun daim alovlanması üçün gecəsini gündüzünə qataraq yaşayan çox qadınlarımız kimi Tamella xanım da ailəsini baş tacı bilir, həyat yoldaşına arxa, dayaq olur, onun ailə başçısı kimi qiymətini və qədrini bilir. Övladlarının atasına dəyər vermək, onların gözündə atanı yüksək tutmaq, qibləgah saymaq qadına şərəf gətirər. Əslində Tamella xanımın da bugünkü nailiyyətlərinə qol-qanad verən, yolunu aydınlaşdıran ailəsinin ona olan inamı və sədaqətidir.

Tamella xanımın alim kimi də, müəllim kimi də yüksək intellektə sahib olmasını onu tanıyan hər kəs gözəl bilir. Onun elmi məqalələri, tərcümələri, tədris etdiyi fənlərə dair tədqiqat işləri, poeziyaya vurğunluğu xüsusi diqqət kəsb edən məqamlardandır. Alimin və müəllimin firqətinin paklığıdır onu zirvəyə qaldıran yollar. Elmə sadiqlik el-obaya sadiq olmaq deməkdir. Tamella xanımın bu gün də öz üzərində yorulmadan çalışması bu fikrimi təsdiq edir. O, ədəbiyyat aşiqidir, yazılarını o qədər şirin dillər, sonsuz səmimiyyətlə və ürəkdən qələmə alar ki, oxucu onun yazdıqlarına aludə olmaya bilməz. Tamella xanım özünü elmə, təhsilə həsr edib. İstər illərlə çalışdığı BDU-da, istərsə də hal-hazırda fəaliyyət göstərdiyi qardaş ölkədə - Türkiyədə. O daima dərs dedi və yazdı...

Şairlərimizn şeirlərini həvəslə tərcümə edib qardaş ölkədə çap elətdirərək, oxuculara təqdim etməsi, şəhidlər haqqında yazdığı altı kitabında vətənə olan sevgisini sərgiləməsi çox zəhmət tələb edən işlərdir. Məqaləmdə Tamella xanımın həyat tarixçəsini bütövlükdə düşüncələrimlə ifadə edə bilməyəcəm. Məqsədim ona bəslədiyim sevgimi dilə gətirib qələmə pıçıldayaraq onu yubiley münasibətilə təbrik etməkdir. Hər şeydən öncə ona görə ki, Tamella xanım mənim Çərkəzli günlərimin xoş xatirələrini hamıdan çox qələmə alan və bununla da mənə təsəlli olmağı bacaran həmkarımdır. Bu bir haqqdır, danılmaz faktdır, vəfadır, etibardır. Hərdən mənə elə gəlir ki, Tamella xanımın daxilində körpə bir qızcığaz var - adı Vəfadır. İnanın mənim səmimiliyimə ki, mən Tamella xanımı çox doğmalarından daha yaxşı tanıyıram. O, heç vaxt elinə-obasına, yurduna-yuvasına, doğmalarına, iş yoldaşlarına biganəlik göstərməyib. Bir sözlə, biganəlik ona yad xüsusiyyətdir. Onun adının önündə üç sözü ayrıca vurğulamaq istəyirəm - mərhəmət, sevgi və sədaqət. Tamella xanım oğlanları - Elşən və Rövşənlə qürur duyan, onlarla nəfəs alan fədakar anadır, qayğıkeş nənədir. Buradaca xatırladım ki, Elşən də Rövşən də bu yurdun layiqli övladlarıdı. Vətənə ləyaqətlə xidmət edən oğullarıdır. Tamella xanım gəlini Xanımı isə qızı kimi sevən qayınanadır. Yeri gəlmişkən, qayınanası ilə ad günü eyni günə düşdüyündən bu məqaləmdə Xanımı da ürəkdən təbrik edib ailə səadəti diləyirəm. Tamellanın mənəvi dəyərlərə üstünlük verməsi, ziyalı nüfuzu pedaqoji fəaliyyətində əməyini əsirgəməməsi onun çalışdığı ali məktəblərdə çox böyük hörmət qazandırmışdır. Həyat dolu bu gözəl xanıma yüksək ehtiram qazandıran, bir də onun hər kəsə qarşı çox nəzakətli, sadə və həssas olmasıdır.

Tamella Əliyeva Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, Azərbaycan Jurnalistlər İttifaqının üzvüdür. Ona qələminin daima iti olmasını diləyərək, düşüncələrimi yekunlaşdırmaq istəyirəm. Bu məqaləni ad günü yubileyi ərəfəsində qələmə alsam da, müqəddəs Qurban bayramına və mətbuat gününün kəsişməsinə düşdüyündən mən də bu yazını onun çox sevdiyi "Ədalət" qəzetinə təqdim etdim. Çünki bu günlər nəşriyyatımız bayram tətilində idi. Yubileyli bayramlara təsadüf edən yubilyarımıza ömrünün hər anını bayram əhval-ruhiyyəsində keçirməyi arzulayır və ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurları, həyatında bol sevinc diləyirəm!

# İnformasiya müharibəsi ancaq sosial şəbəkədə nəsə yazmaq deyil...



**Səxavət Məmmədov**

Təxminən 30 ilə yaxın Qarabağ problemi ətrafında danışıqlar getdi. Dağlıq Qarabağ və ətraf rayonlar. Əslində münaqişənin açarı bu sözlərdədir. Erməni tərəfi Dağlıq Qarabağı işğal etdikdən sonra, ətraf rayonları da işğal etdi. Danışıqlarda təkliflər də bu yöndə idi. Ətraf rayonlar qaytarılır, Dağlıq Qarabağın statusu sonra həll edilir. Ermənilərə Dağlıq Qarabağ lazım idi. Ətraf rayonları isə bufer zona idi. Bufer zonaları olsa da, çox ciddi bir iş də görmüşdülər. Erməni rəsmiləri dəfələlər Naxçıvanla bağlı iddialarını səsləndirmişdi. Məsələ ondadır ki, bu təkcə rəsmi açıqlamalarla qalmırdı. Çox ciddi informasiya müharibəsi aparılırdı. Bizim təkhüceyrəlilər elə bilir ki, informasiya müharibəsi ancaq sosial şəbəkədə nəsə yazmaqdır. Ermənı tərəfində isə Naxçıvan məsələsi tarixçilər, politoloqlar, siyasi partiyalar səviyyəsində müzakirə edilirdi. Xarici mediada çıxış edir, məqalələr yazırdılar, kitablar çap etdirirdilər. Əllərində bufer zona olsa da, Naxçıvanı qarşımıza sürüb, təhdid və təzyiq edirdilər. Erməni tərəfi də yaxşı bilir ki, Naxçıvana ayaq basmaq, Türkiyəyə təpik atmaq kimi bir şeydir. Özləri də yaxşı bilirdi ki, Naxçıvan sadəcə arxası uçurum olan bir təzyiqdir.

Prezident İlham Əliyev Qərbi Zəngəzurla bağlı iddialı danışıb, oranı dədə-baba torpağı adalandırıb. Bəli, dədə-baba torpağımızdır. Qərbi Zəngəzur ermənilərin Naxçıvan təzyiqi kimi bir şeydir. Məsələ ondadır ki, Naxçıvan necə beynəlxalq aləm tərəfindən Azərbaycan ərazisi kimi tanınırsa, Qərbi Zəngəzur da Ermənistan ərazisi kimi tanınır.

Keçək digər məsələyə. İlham Əliyev Qərbi Zəngəzurla bağlı iddialı çıxış edir. Əslində bu mesajdır. Yəni, ölkəsinə, marağı olan dairələrə deyir ki, mən də bu kartımı oynayıram. Bu kart düzgün dağıdılıbmı? Düşünmürəm. Azərbaycan nə dünən, nə də bu gün informasiya müharibəsində güclü olmayıb. Bunun çox müxtəlif səbəbləri var. Bunun başında gələn isə maliyəni düzgün yönləndirməmək, müxtəlif adlarda və müxtəlif dillərdə bir admindən ibarət olan saytlar açıb, şou düzəltmək idi. Nəticədə ciddi pullar silinirdi, ortada isə nəticə yoxdur. Ermənistan tərəfinin informasiya müharibəsinə ayırdığı pul orduya ayrılandan hər zaman çox olub. Yeyinti olub? Əlbəttə! Sovetdən çıxmış ölkə ola, orda yeyinti olmaya? Ancaq Azərbaycandan fərqli olaraq ermənilər ayrılan pulların hamısını yox, bir qismini basıb yeyiblər. Onlar informasiya müharibəsi aparmaq deyəndə düşmənə yönəlirilər, bizdə isə özümüzə. Misal üçün Müdafiə nazirliyi, daha dəqiq desək Nəcməddin Sadıkov (yaxşı pul xərcləyən, kalan jurnalist, ekspert saxlayan olub) 500 min manat (mən dollar eşitmişdim) bir şirkətə ayırmışdı ki, informasiya müharibəsi ilə məşğul olsunlar. Ancaq kimə qarşı? Onlara qarşı yazıanlara qarşı və ən əsası bəy tərifi.

Ola bilsin yenə informasiya müharibəsi üçün pul ayrılır və İlham Əliyevin qarşısına gətirib qoyurlar ki, baxın, filan işlər görülüb. QHT-lərin layhə yazıb, şəkil çəkdirib, sənədləşmədə istifadə etdiyi kimi.

Mətbuata Qərbi Zəngəzurla bağlı yazı yazmağı, QHT Şurası da o yöndə bir neçə layhəyə pul ayıracaq və məsələ heç nə olmamış kimi bitəcək. Hər zaman demişəm, Azərbaycanın milyardlar xərcəlyib informasiya sahəsində edə bilmədiyini bir Ağdamın Qarabağ klubu etdi. Milyonlar xərcləyib, yazı verdirmək üçün kürü göndərilən medialar, Çempionlar Liqası zamanı özbaşlarına hər şeyi edirdi.

Qərbi Zəngəzur avazı yaxşdır, ancaq bunun eyni adamların əlində urvatsız olma ehtimalı daha yüksəkdir.

# İri dövlət şirkətləri - Azərbaycan büdcəsini yeyənlər

**Azərbaycanda iri dövlət şirkətlərinin borcları hazırda ölkə qarşısında duran ən mühüm vəzifələrdən biridir. Belə ki, illər boyu deməк olar ki, xərcləri dövlət tərəfindən qarşılanan bu şirkətlərin çox cüzi hissəsi gəlirlə işləməkdədir: əksəri ili böyük həcmli zərərlə başa vurur.**



Ölkə başçısı Prezident İlham Əliyev də zaman-zaman iri dövlət şirkətlərinin fəaliyyətindəki səmərəsizlik barədə danışıb, vəziyyətin ən qısa müddətdə dəyişməsinin gərəkdiyini vurğulayıb. Məzh iri şirkətlərin gəlir və xərclərinin nizama salınması məqsədilə Prezident Azərbaycan İnvestisiya Holdinqi yaradılması barədə Fərman imzalayaraq bu şirkətlərinin böyük əksəriyyətinin idarəçiliyi ona həvalə etdi.

Uzun illər boyu bütün infrastruktur layihələri dövlət tərəfindən maliyyələşdirilən, dövlət büdcəsindən irihəcmli subsidiyalar alan iri şirkətlər nəinki mənfəətə çıxmayıblar, həmçinin dövlət zəmanəti ilə aldıqları kreditləri belə qaytarmırlar. Nəticədə, illər üzrə yüz milyonlarla manat vəsait yenə də dövlət büdcəsindən ödənilir.Bu səbəbdən cəmiyyətin AİH-in fəaliyyətindən gözləntiləri kifayət qədər böyükdür.

Qeyd edək ki, dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər 2021-ci ilin dövlət büdcəsi layihəsində 2 milyard 198,8 milyon manat məbləğində nəzərdə tutulub. Həmin məbləğ növbəti ilin proqnozlaşdırılmış dövlət büdcəsi gəlirlərinin təqribən 8,7 faizi, xərclərinin isə 7,7 faizi səviyyəsindədir. 2020-ci ilin müvafiq göstəricisi ilə müqayisədə növbəti il üçün dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər 472,6 milyon manat çox olacaq. 2021-ci il üçün xarici dövlət borcu üzrə ödənişlər 2 milyard 31,7 milyon manat məbləğində proqnozlaşdırılıb. Bu, dövlət borcuna xidmətlə bağlı xərclərin ümumi məbləğinin 92,4 faizinə, dövlət büdcəsi gəlirlərinin 8 faizinə, dövlət büdcəsi xərclərinin 7,1 faizinə bərabərdir

Xarici dövlət borcu üzrə nəzərdə tutulan vəsaitlərin 466,2 milyon manatı faiz borcunun, 1 milyard 565,5 milyon manatı isə əsas borcun ödənilməsinə yönəldiləcək. Yeni 2021-ci ildə xarici dövlət borcu üzrə ödənişlərin 22,9 faizi faiz ödənişlərinə, 77,1 faizi isə əsas borcun qaytarılmasına sərf olunacaq. Xarici dövlət borcuna xidmət xərclərinin 1 milyard 753 milyon manatı birbaşa cəlb edilmiş kreditlər üzrə xərclərə, 278,7 milyon manatı isə məhz dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə cəlb olunmuş öhdəliklərə xidmət xərclərinə yönəldiləcək.

Hesablama Palatasının 2021-ci ilin dövlət büdcəsi sənədinə verdiyi rəydən aydın olur ki, 2020-2024-cü illərdə "Azəralüminium" ASC Təminat Fonduna dövlət zəmanəti ilə almış olduğu kreditlərin qaytarılmasına görə 175,5 milyon manat, "Azərbaycan Dəmir Yolları" QSC 281,9 milyon manat, "Azərbaycan Hava Yolları" QSC 1 milyard 383,8 milyon manat, "Azərenerji" ASC 290,5 milyon manat, "Azərişıq" ASC 26,9 milyon manat, "Azəristiliktəchizat" ASC 23,8 milyon manat, "Azərkosmos" ASC 142,8 milyon manat, "Azərsu" ASC 9,9 milyon manat, SOCAR 169,1 milyon manat, "AzİnteIekom" MMC 322,6 milyon manat, Gənclər və İdman Nazirliyi 48 milyon manat vəsait ödəməlidir.

SOCAR-ın qısamüddətli xarici borclar 5,91 milyard manat, cəmi borclar isə 11,219 milyard manata çatıb. Bununla yanaşı, ötən il SOCAR Azərbaycan Beynəlxalq Bankından 21 iyul 2022-ci ildən başlayaraq 23 avqust 2026-cı ilədək ödəmək şərti ilə illik 4,0-4,8 faizlə 559 milyon manat, Maliyyə Nazirliyindən 12 yanvar 2024-cü ildən başlayaraq 1 aprel 2039-cu ilədək qaytarmaq şərti ilə illik 0,1 -3,8 faizlə 354 milyon manat - cəmi 913 milyon manat borc götürüb. Bundan əlavə, ödənilməmiş istiqrazlar üzrə 175 milyon manat İnvestisiya Şirkətinə, 2 milyard 960 milyon manat isə Dövlət Neft Fonduna borcu yaranıb. Ölkədə ən gəlirli sahənin bu cür borclanması nə deməkdir? Bəs iri dövlət şirkətləri niyə ili zərərlə başa vururlar?

İqtisadçı ekspert Natiq Cəfərli Adalet.az-a açıqlamasında ölkədəki iri dövlət şirkətlərinin əsasən də, SOCAR-ın ciddi şəkildə xərclərini şişirtməsi barədə məlumatların çoxdan hamıya məlumduğunu dedi:

"İri dövlət şirkətləri xərclərin şişirdilməsi yolu ilə və müxtəlif satınalmalardakı qeyri şəffaf əmliyyatlarla, şirkətin vəsaitinin qeyri-rasional xərclənməsi ilə məşğuldurlar. Uzun illərdir ki, bu hal həm SOCAR-da, həm də digər iri dövlət şirkətlərində özünü biruzə verir. SOCAR daxili bazarda inhisarçı olmasına baxmayaraq, xaricdə də böyük aktivləri var. Neftin çıxarılması, "Premium" markalı benzinin satışı Beynəlxalq Əməliyyatlar Şirkətindən kənar bütün layəhlər SOCAR-ın iştirakı ilə baş verir. Buna baxmayaraq SOCAR həm xaricdən, həm də daxildən borclanır. Bununla yanaşı SOCAR tez-tez dotasiyalar daalır. Yəni dövlət büdcəsindən bu illər ərzində bu şirkətlər milyonlarla dotasiyalar alıblar. Bu borclanmanın qeyri-şəfaff idarəetmə, korrupsiya mexanizmlərinin və sxemlərinin olması ehtimalıdır. Qeyri-şəffaf idarəetmə xərclərin şişirdilməsi ilə müşayət olunur ki, bu da iri dövlət şirkətlərinin rentabelliyini aşağı salan məsələdir. Heç də təsadüfi deyil ki, ötən il avqustun 6-da Azərbaycan İnvestisiya Holdinqinin yaradılması SOCAR-ın və digər iri dövlət şirkətlərinin qənaətbaxş idarə olunmamasının nəticəsi idi. SOCAR-ın Müşahidə Şurası artıq bu şirkətin idarəsini tam ələ almaq istiqamıtində addımlayır. Bu günlərdə SOCAR-ın 4 vitse-prezidenti işdən xaric edildilər. Yaxın zamanda digər dəyişikliklərin də şahidi olacağıq.Bununla yanaşı o biri iri dövlət şirkətlərinin də rəhbərlikləri də son illərdə dəyişdirildi. Ümid edək ki, yeni kadrların qarşısında rentabellik məsələsi qəti şəkildə qoyulub və bunun nəticələrini yazın zamanlarda hiss edəcəyik".

Əhaliyə xidmət göstərən iri dövlət şirkətlərinin dövlət büdcəsindəki yükünün azaldılması məqsədilə bir çox ekspertlər kommunal xidmətlərin özəlləşdirilməsini təklif edir.

"Azərbaycanın kommunal sektorunda aparılan islahatlar çərçivəsində bəzi xidmətlər özəlləşdirilə bilər. Lakin bu sahədə əsas problemlər özünümaliyyələşdirmə, özünüidarəetmə və struktur dəyişiklikləri ilə bağlıdır. Çünki indi dövlətin imkanları, vəsaitləri var və onlara çox böyük vəsaitlər verilir. Amma bu həmişə davam edə bilməz. Zənnimcə, artıq özünümaliyyələşdirmə, özünüidarəetmə və özünüinkişaf prosesinə keçilməlidir. Bu sahədə islahatlar isə təbii ki mütləq lazımdır. O cümlədən, yeni mexanizmlər elə olmalıdır ki, özünüinkişaf və özünüidarəetmə sistemi yaransın. Xüsusilə özəlləşdirmə nəticəsində rəqabətin yaradılması və özünümaliyyələşdirmə sisteminə keçid təmin ediləcək. Eləcə də, rəqabətin yaradılması qiymətlərin artmamasına və xidmətlərin keyfiyyətinin yüksəlməsinə imkan verəcək. Digər tərəfdən də dövlətin bu sahəyə yatırdığı vəsaitlər özəlləşdirmə vasitəsilə geri qayıtmalıdır və dövlət bu vəsaitləri yeni sahələrə yönəltməlidir."

Bu fikirləri Milli Məclisin deputatı Anar Məmmədov dedi.

A.Məmmədov qeyd edib ki, indiki vəziyyətdə xidmət sahələrinin özəlləşdirilməsi də açıq qalan məsələlərdəndir və bu məsələyə tezliklə baxmaq lazımdır: "Planlı şəkildə hissə-hissə özəlləşdirməyə getmək lazımdır. Çünki kommunal xidmətlər birdən-birə özəlləşdirməyə verilsə, sonra bu sahələrdə vəziyyət daha da pisləşər. Özəlləşdirmənin ən mühüm tərəfi keyfiyyətdə dəyişikliyi hiss etmək ola bilər. Məsələn, iri şirkətlərin bir neçə hissəyə ayrılaraq özəlləşdirilməsi onlar arasında rəqabətin yaranmasına, bu isə öz növbəsində daha yüksək xidmətlərin təklif edilməsinə gətirib çıxara bilər. Bu eyni zamanda dövlət büdcəsinin yükünün azaldılması, büdcə vəsaitlərinin səmərəsiz istifadəsinin qarşısının alınması ilə nəticələnəcək. Bununla ilk növbədə xidmətin keyfiyyəti yüksələcək, eyni zamanda kommunal sahələrin özəl əllərdə olması nəticəsində həmin sahəyə baxanlar elə xidmət etməyə çalışacaqlar ki, əhalidən alınan haqqın cavabını verə bilsinlər. Qısaca, kommunal xidmətlərin özəlləşdirilməsi, bu sahədə xidmət keyfiyyətinin artması ilə yanaşı şəffaflığın yaranmasına gətirib çıxaracaq. Kommunal xidmətlər özəlləşdirilərsə, xidmətlərin yüksək səviyyəyə gəlməsi ilə yanaşı, həm də bu sahədə özəl investisiyanın artımı müşahidə olunacaq. İkincisi də, elə sahələr var ki, onların yatırım və investisiyalara ehtiyacı var, o sahələrə maddi yatırımlar qoymaqla vəziyyət düzələ bilər."

**İLTİFAT**

## Şəhidin qapısına oğurluğa gedən qonşular: İki nakişi...

Bir gün Bəxtiyar Vahabzadə məclisə tələsirdi. Amma əlindəki bazarlığı da evə verməli idi. Məhlədə qonşusunu görür:

- Qonşu, evə gedirsən?

- Bəli.

- Zəhmət olmasa bu çantaları da bizə verərsən?!

- Evdə kişi var?

-Qapını döyən kişi olsun, evdə kişi olub olmamasının fərqi yoxdur.

Evin kişisi Vətən uğrunda şəhid olub, qonşu bunu fürsət bilib....

Adalet.az xəbər verir ki, Şəmkir rayon Polis Şöbəsinə rayon ərazisindəkin mənzillərin birindən naməlum şəxs və ya şəxslərin oğurluq etməsi barədə məlumat daxil olub. Məlumat ilə əlaqədar polis əməkdaşları dərhal hadisə yerinə gələrək müəyyən araşdırmalar həyata keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, davam



etdirilən istintaq-əməliyyat tədbirləri nəticəsində məlum olub ki, rayon sakinləri Aytəkin Nağıyev və Həsrət Rüstəmov iyul ayının 14-dən 15-nə keçən gecə qonşuluqdakı şəhid ailəsinə məxsus fərdi yaşayış evinə qeyri-qanuni yolla daxil olaraq oradan ümumi dəyəri 25 min manat olan qızıl-zinət əşyalarını oğurlayıblar. Şübhəli şəxslər maddi sübutlar ilə birlikdə saxlanılaraq istintaqa təhvil verilib.

Faktla bağlı araşdırmalar davam etdirilir.

**Əntiqə Rəşid**

## Aşağıdakı ermənilər isə başqa bir təlatümdədir



Qarabağda 30 min ermənin məskunlaşdığı bildirilmiş və bu rəqəmi dolayısı ilə Qarabağdakı erməni separatçılarının rəhbəri Araik Arutyunyan da təsdiqləmişdi. A.Arutyunyan bildirmişdi ki, Qarabağda ümumilikdə 35 min erməni yaşayır.

Lakin indi bəlli olur ki, son bir ayda ermənilərin sayı daha 5 min azalıb.

**Yuxardakı təlatümlərə etinasız qala bilməyən, niyyətlərinə görə gələcəklərin Qarabağda dumanlı olacağına əmin olan ermənilərdən də xəbər var. Qarabağa köçürülüb gətirilən və burada məskunlaşdırılmasına çalışılan ermənilərin sayı son bir ayda daha 5 min nəfər azalıb.**

Bu fakt ötən gün Prezident İlham Əliyevin AzTV-yə geniş müsahibəsində səsləndirdiyi rəqəmdən bəlli olur. Belə ki, Prezident peyk vasitəsilə Laçın dəhlizi də daxil olmaqla, Qarabağ iqtisadi rayonunun bir hissəsinin, rus sülhməramlılarının məsuliyyət zonasının ciddi şəkildə izlənildiyini, hər gün Laçın dəhlizindən nə qədər maşının gəlib-getdiyini, o ərazilərdəki insanların hərəkət istiqamətlərinin nəzarətdə saxlanıldığını bildirib. Bu nəzarət sayəsində də Qarabağ iqtisadi rayonunun bir hissəsində məskunlaşdırılan ermənilərin sayının hazırda maksimum 25 min nəfər olduğunu Prezident rəsmən elan etdi.

Prezident qeyd etdi ki, rus sülhməramlılarının müharibədən sonra - 14 noyabr 2020-ci ildən başlayaraq Qarabağa köçürüb gətirdiyi və burda məskunlaşdırmağa çalışdığı 50 mindən çox erməni (Rusiya MN bu rəqəmin 52 min 700 olduğunu açıqlayıb . heç də daimi yaşayış üçün Azərbaycan ərazisini seçməyib. Onların bir çoxu gəldiyi kimi də geri qayıdıb.

Yada salaq ki, bir müddət əvvəl Qeyd edək ki, Birinci Qarabağ müharibəsi başlamazdan öncə Qarabağda 149 minə yaxın ermənin yaşadığı rəsmi mənbələrdə təsdiqlənirdi. Qarabağın işğalından sonra, İkinci Qarabağ müharibəsinə qədər Qarabağda cəmi 60 min erməni qalmışdı. İşğal illərində Ermənistan hakimiyyətinin Azərbaycan torpaqlarını vəhşicəsinə talaması, burda daimi müharibə təhlükəsi Qarabağda yaşamağı mümkünsüz etmişdi.

**NƏTİCƏ**

Azərbaycanın 27 il işğal altında saxlanılan torpaqları yalnız əkin, yeraltı sərvətlərin talanması üçün istifadə edilib. Bilənlər bilir, Ermənistanın taxıl ehtiyatlarının əhəmiyyətli hissəsi bütün tikililəri məhv edilmiş Azərbaycan torpaqlarında əkilən buğda sahələrindən toplanılırdı.

Nəticə olaraq bəlli olur ki, Ermənistanın apardığı işğal siyasəti yalnız öz milli maraqlarına ciddi ziyan vurub, əhalisinin azalmasına və demoqrafik iqtisadi probleminin kəskin artmasına səbəb olub. Yeri gəlmişkən, 1991-ci ildə Ermənistan əhalisi 3,5 milyona yaxın idisə, hazırda bu ölkədə 2 milyondan az (erməni mənbələri 1,8 milyon qeyd edir) əhali yaşayır.

Beləcə 28 il əvvəl bizə yaşatdığını hazırda Ermənistan hakimiyyəti özü yaşayır. Bütün xırda detallarıyla birgə.

**Əntiqə Rəşid**

## Xeyirxah insanlar unudulmur

**"Allah yanında ən yaxşı insan - insanlar üçün daha faydalı olanıdır".**

*Məhəmməd Peğəmbər(s)*

Xeyirxah insanlar həmişə ilk növbədə başqaları üçün çalışar, özlərini isə ikinci plana atarlar. Fədakar və xeyirxah insanlar ətrafdakılara örnək olmaqla yanaşı, həyatın çətinliklərinə sinə gərməkdə də hamıya kömək edirlər. Onlar dünyalarını dayişdikdən sonra belə unudulmur, adları daim rəhmətlə anılır. Ötən il aramızdan ayrılıb haqq dünyaya qovuşan Solmaz Əsgərova da məhz belə insanlardan idi. Onun ölümü hamımız, həmçinin mənim üçün də çox böyük itki oldu. Mən Solmaz xanımı usaq yaşlarımdan tanıyırdım. Orta məktəbdə oxuduğum illərdə vaxtımın çoxunu onun yanında keçirirdim. Heç bir xahişimi geri çevirməzdi. İstədiyim yemeyi, sirniyyatı bişirər, bircə istəyimlə işlərini mənə görə yarımçıq qoyub mətbəxə kecərdi. Gözəl əl qabilyyəti vardı. Onun bişrdiyi xörəklər, şirniyyatlar, şirə və mürəbbələr, qışa hazırladığı şoraba-tutmalar adla deyilərdi. Məncə ən tanınmış restoranların şef aşbazları belə kulinariya sahəsində onunla rəqabət apara bilməzdilər. Dərsdən gələn kimi əynimi dəyişib onlara qaçardım. Birlikdə şirniyyatlar bişirər, müxtəlif tortlar, ləzgi piçəyi, çıkanı, şəkərbura-paxlava hazırlardıq. Miksersiz, əllə şirniyyat hazırlamağı da elə Solmaz xanımdan öyrənmişəm. Ali təhsilli olmasına rəğmən, evdar qadın kimi əsil möcüzələr yaradırdı. Biz onlarla həm qohum, həm də qonşu idik. Aramızdakı yaş fərqinə baxmayaraq mən onu özümə ən yaxın dost-sirdaş hesab edirdim. Rəhmətlik Solmaz ziyalı ailəsində dünyaya göz açmışdı. Atası Kərim kisi gözəl pedaqoq və sənətkar kimi bütün mahalda şöhrət qazanmışdı. Anası Zivər xanım evdar qadın olsa da geniş dünyagörüşə malik ziyalı insan idi. Mənim uşaqlıq çağlarım bu ailə ilə sıx bağlı olub. çSolmazgil ailədə 5 uşaq olub. 3 qardaş-Rəhim, Çingiz, Elçin və Sevinc adında bacısı var. Anası Zivər xalanın ləziz yeməklərindən dəfələrlə dadmışam. Dadlı kələm qutabı bişirməyi də ondan öyrənmişdim. Biz bir ailə kimi mehriban və səmimi idik. Bu ailələr 1-2 gün bir-birini görməyəndə darıxırdı. Axşamlar ya biz onlarda, ya da onlar bizim evdə yığışıb otururduq. Atalarımız və böyük qardaşlar həyətdə domino oynar, sonra da şirin söhbətlər başlardı. Bəzən gecə yarıyadək söhbətə dalar və vaxtın necə keçdiyini hiss etməzdik. Şirin söhbət və şən qəhqəhələrdən doymurduq. Mənim atam Zulfiqar Rüstəmoğlu ciddi və bir qədər də əsəbi adam idi. Övladlarına, xüsusən mənə qarşı çox tələbkar idi. Buna görə bəzən atamdan küsüb inciyirdim. Solmazın atası Kərim müəllim belə zamanlarda şirin zarafatları ilə gərginliyi yumşaldar, atamın əsəbi halından əsər-əlamət qalmazdı. Kərim dayının bir zarafatı indiyədək yadımdadır. O vaxtlar cins şalvarlar təzə dəbə minmişdi. Gənclər və yeniyetmələr yalnız ondan geyinmək istəyirdi. Bir gün oğlu Rəhim də atasından həmin şalvardan almağı xahiş edir. Onlar birlikdə mağazaları gəzir və dəbdə olan həmin geyimi axtarırlar. Kərim müəllim çox bəyəndiyi bahalı bir şalvarı oğluna göstərəndə Rəhim yalnız cins şalvar istədiyini bildirir. Bütün günü nə qədər axtarsalar da istədiyini tapa bilməyən Rəhimin mısmırığı yerlə gedirmiş. Möhkəm yorulmuş və oğlunun inadından əsəbiləşmiş atası ona "sənin cinsinə tüpürüm" deyərək qəhqəhə çəkib gülür.

Solmaz xanım ailənin böyük qızı idi. O, nəinki öz bacı qardaşlarına, eləcə də, bizə və başqa ailələrə də tərbiyəsi, qeyrəti, namusu, səliqəsi, mədəniyyəti, savadı ilə nümunə idi. Bir gün bibim oğlu Solmaza ürəyini açaraq onu sevdiyini bildirir. Solmaz isə hələ ailə qurmaq istəmədiyini, təhsilini başa vurandan sonra bu barədə düşünəcəyini deyir. Əsgər isə ondan başqa heç kəslə ailə qurmayacağına söz verir. Bu zaman anam Cansirə xanım Həmdulla qızı işə qarışır və baldızı Surat xanımın oğlu ilə evlənməsi üçün Solmazı xeyli dilə tutur. Onu da deyim ki, rəhmətliklər çox yaxın rəfiqə və sirdaş olublar. Baxmayaraq ki, anam yaşca ondan xeyli böyük olub, amma yaş fərqi onların möhkəm dostluğuna mane olmayıb. Anamı böyük bacı kimi istəyib və məsləhətlərinə həmişə əməl edib. Solmazın kulinarlıqdan əlavə, Allah vergisi kimi başqa bir fitri istedadı da vardı. Heç yerdə bu sənəti oxumasa da əla dərzilik bacarırdı. Həm müxtəlif xarici jurnallar əsasında modaya uyğun geyimlər tikər, həm də özünün kəsf etdiyi, qadın-qızların bədəninə yaraşdırdığı paltarları təqdim edər-



di. Bizim ailə üzvlərimizin də paltarlarını o tikərdi. Son dəbdə olan bu geyimlərlə şəhərə gedəndə tələbə yoldaşlarımın heç biri onların evdar bir kənd qadını tərəfindən tikildiyinə inanmazdı. Bu sənətə onda hələ ali məktəbdə oxuyarkən maraq yaranmışdı. Bir- birindən maraqlı dəst geyimlər sanki onun evdəki balaca tikiş maşınından deyil, bahalı brend paltarlar satılan mağazalardan çıxmışdı.

Anamı itirəndən sonra ən böyük təsəlli və məsləhət verənim olmuşdu Solmaz. Problemlərimizi bir-birimizlə bölüşür və təsəlli verirdik. Onunla ən yaxın sirdaşa çevrilmişdik. İki ovlad böyüdüb tərbiyə etmişdi. Jalə və Namiq onun zəhmətini doğruldan, tərbiyəli, namuslu, zəhmətkeş, savadlı uşaqlar kimi yetişdilər. Gözəl həyat yoldası, misilsiz ana, mehriban qaynana, bacarıqlı evdar qadin və son dərəcə Şirin nənə idi. Jalə ali məktəbi bitirib telejurnalist kimi, qardaşı isə bacarıqlı sənətkar kimi çalışmağa başladılar. Bu qadının həyatı hamımız üçün əsil örnək idi. Sevimlimiz, nəslimizin ağbirçəyi idi. Yaşı az olsa da uşaqdan böyüyə hər kəsin dərin hörmətini qazanmışdı. Solmaz xanım, eyni zamanda, hər kəsin əməyinə qiymət verməyi bacarırdı. Səhv yolda olanlara düzgün məsləhət verir, əyri yoldan geri qaytarırdı. Paxıllığı, kini olmayan xeyirxah insandı. Pozitiv xarakteri vardı, adamları yaşamağa ruhlandırırdı. İnsanların şad gününə sevinən, kədəri-dərdlərini bölüşən idi.

Bibimin qızı Bəsirə xanımla uşaqlıqdan rəfiqə idilər, heç ayrılmazdılar. Hər ikisi də dünyasını erkən dəyişdi. Bir ilin içində bir-birinin ardıyca fani dünyanı tərk elədilər. Bəsirə Ağaməmmədqızı dünyasını dəyişəndə Solmaz onkoloji xəstəxanada ağır vəziyyətdə yatırdı. Ona görə də o vaxt müalicədə olan qadından sevimli rəfiqəsinin ölümünü gizlətdilər. Baldızları Tahirə, Təbirə, Mahirə də bacı kimi bağlandıqları gəlinlərinin ölümündən çox üzüldülər. Yalqız qalan həyat yoldaşı Əsgər bu itkidən ağır iztirab kecirdi. İndiyə qədər də vəfalı və qayğıkeş həyat yoldaşının ölümünə inanmır, ona elə gəlir ki, həyat yoldaşı harasa qonaq gedib və tezliklə qayıdacaq. Solmaza xəstə yatağında tez- tez bas çəkən gəlini Günel də onun yoxluğuna inanmaq istəmir. Onu yoluxmağa gedəndə hər dəfə nəvələrinə valideynlərindən müğayət olmağı xahiş edirdi. Son dəfə onu yoluxmağa gedəndə Aysunu da özümlə aparmışdım. Qızımı görəndə ağrılarını unudub gülümsədi, dərhal ona yemək təklif etdi. Qonaqpərvər, əliaçıq, təvazökar biri idi. Amma özünün iştahı yox idi. Mən dedim ki, gərək yeyəsən ki, tez ayağa qalxasan. Bildirdi ki, uşaqları da yemək üçün təkid edir. Amma yeyə bilmir, kövrəlib ağlayırdı.

**Aysunun dedikləri:**

Həmişə mənə deyirdi ki, qızım çalış oxu. Oxu ki, bir sənətin sahibi olasan. Anan həmişə səninlə olmayacaq. Tək qalanda özün oz ayaqlarının üstündə durasan deyə indidən hər dəqiqənin qədrini bil. Vaxtını boş yerə keçirmə. Oxumaq və öyrənmək, sənət sahibi olmaq qızlar üçün daha vacibdir. Gələcəkdə başqalarına möhtac olmamaq üçün dərsləri indidən yaxşı oxu. Sən ağıllı qızsan. İstəsən məktəbi əla qiymətlərlə başa vurub ali təhsil ala bilərsən. Mənim qızım yaxşı oxuyub. Həmişə də sözümü eşidib. Biz onunla fexr edirik. Heç vaxt məni incitməyib. Sən də ona oxşa və ananı incitmə, sözlərini həmişə dinlə. Qoy sənin anan da gələcəkdə səninlə fəxr etsin, sənə çəkdiyi zəhmətin hədər getmədiyini görüb sevinsin.

Bacim Asiya xanım Zülfüqar qızının dedikləri:

Onunla qonşu və rəfiqə olmuşuq. Uşaqlıqdan birlikdə böyümüşük. Yaxın məsləhətçim olub, anama deyə bilmədiyim sirlərimi onunla bölüşmüşəm. Solmazın orta məktəbdə ən böyük arzusu ali təhsil almaq idi. Çox şükür, qızı Jalə də onun arzusunu həyata keçirdi. Yaxşı insanlar heç vaxt unudulmur. Onu itirəndən sonra biz onun ətrini qızı Jalədən alırıq. Jalə butun nəslin iftixarıdır, başqalarına nümunədir. Gözəl övlad, qayğıkeş anadır.

Mənə "yüz il yaşa" deməsin dostlar,
Gülüşüm, yerişim, səsim itməsin,
Gözlərim görsə də, ayağım, əlim,
Əsalıq olanda dayansın ürək!

**Hüsniyyə Zülfüqarqızı**

# Zəkəriyyə peyğəmbərə dair yanlış yozum...



Nəriman QASIMOĞLU

*Oruca aid çoxlarının bilmədiyi, bir qayda olaraq az xatırlanan mətləbin açıqlanmasına ehtiyac var.*

**Aydınlıq üçün gərək hər şeydən əvvəl uyğun sözün ərəbcə feili etimolojisinə baxaq. Kök hərfləri sad, vav və mimdən düzələn sa:mə feilinin əsas mənası imtina etməkdir. Bu feildən düzəlmə isimlər isə oruc dediyimiz saum, sıyə:m, yəni imtina.**

Sözün etimolojisində nəzərdə tutulan imtina, əslində, mütləq anlamda hər şeydən imtina deməkdir.

Bu mütləq imtinanı təmin edəcək bir nəsnəni isə belə ümumiləşdirmək olar: hərəkətsizlik. Hərəkətsizliyin insana mütləq tətbiqini belə anlamaq lazım gəlir ki, onun heç bir fiziki orqanı hərəkətdə deyil. Nə ağzı, nə dili, nə əli, nə ayağı, nə də başqa hansısa başqa orqanı tərpənir, nə beyni işləyir.

Ümumən canlı-cansız aləmdə hər nəsnənin hərəkətsiz duruşunu, görüntüsünü obrazlı olaraq həmin sa:mə feili mənalandırır. Məsələn, sa:mə-l-fərasu ifadəsi hərfən at imtina etdi kimi tərcümə olunursa da, ifadəni belə anlayırlar ki, at hərəkətsiz dayanıb, tərpənişsizdir, otlamır. Yaxud günəş göyün düz ortasında olanda hərəkətsiz göründüyünə görə ərəblər buna sa:mətu-ş-şəmsu deyir. Külək sakitləşib dayananda da, dəniz suyu tərpənməz görünəndə də həmin feili işlədirlər. Yəni, qəribə səslənsə də, şərti olaraq deyə bilərik ki, günəş, külək, sular oruc tutub - hərəkətdən imtina edib.

Ərəbcədə xristian məbədi kilsələrin bir adı da eynən saumdur. Sözün kökü ilkin xristianlıq dövrünə gedib çıxır. Dindarların ibadət zamanı meditativ pozada hərəkətsiz duruşuna işarə olaraq oruçluq zamanı daha çox toplaşdıqları yer bu adı alıbmış. Oruc yeri, dayanma yeri mənasında.

Stansiya - dayanıb-durma yeri də bu kökdən düzəlmədir: masa:mə. Haşiyə çıxaraq ərəb dili qrammatikasının tələbi ilə bir mənanı da buna mən artırım: dayanıb-durma zamanı. Necə ki, məscid hərfən eyni zamanda həm səcdə edilən yerdir, həm səcdə edilən zaman. Günorta üçün deyirlər: əş-şəmsu fi masa:mihə, yəni günəş özünün dayanıb-durma yeri və zamanındadır.

Bunlar öz yerində, yuxarıdakı misallardan göründüyü üzrə, hərəkətsizlik, yəni hərəkətdən imtinanın ilkin anlamdakı mütləqliyi, əlbəttə, ötəri və rəmzidir. Sözün ənənəvi anlamda işləndiyi kontekst nəyin hansı halda, hansı hərəkətdən imtina etməsini konkretləşdirir.

Oxu mətnində də belədir. Tanrıya təslimolanlar (ənənəvi olaraq müsəlman adlandırılanlar) üçün bu, başlıca olaraq yeməkdən, içməkdən, cinsi əlaqədən imtinanı nəzərdə tutur. Əslində isə, bəllidir ki, bizim oruc deyə anladığımızın sərhədləri Oxuda günün bəlli müddətində vacib bilinən bu imtina ilə məhdudlaşmır. Ayələrdə danışmaqdan imtina da qeyd etdiyim kökdən düzəlmə saumun içindədir.

**Buna dair bir epizod Məryəmlə bağlıdır.**

İsa Məsihə hamilə qaldığı zaman uzaq bir məkana çəkilir. Doğum sancısı onu bir xurma ağacının gövdəsinə gətirir. Atası camaata bəlli olmayan bir uşağı dünyaya gətirəcəyinə görə əxlaqsızlıqda suçlanacağı əndişəsi ilə oradaca öz-özünə "bundansa kaş öləydim, unudulub gedəydim" deyir. Onun bu özqınağına cavab olaraq Rəbbindən sədə gəlir: "Sən heç üzülməyəsən, Rəbbin sənin altında bir su arxı var eyləmiş. O xurma ağacının budağını özünə çək, silkələ, o üstünə təptəzə, yetişmiş xurmalar tökəcək. Ye, iç. Gözün aydın olsun. İnsanlardan kimi görsən, de "Rəhmana bir oruc nəzir dedim, insan olan bir kimsəylə bu gün danışmayacam" (19:24-26).

Xurmadan yeyib, sudan içən Məryəm İsanı doğur, qucağına alıb qayıdır öz yurduna. Susqunluq orucunu tutmuş durumdadır. Onu əxlaqsızlıqda qınayanlarla işarə ilə danışır, soydaşlarına uşağı göstərir.

**Orucdur, danışa bilməz. Soydaşları "Biz necə danışaq beşikdəki uşaqla?" (19:29) deyirlər. Bu yerdə susqunluq orucluсu Məryəmin yerinə körpə İsa dillənərək özünü bəyan edir: "Mən, şəksiz, Tanrı bəndəsi. O mənə Yazı vermiş, məni peyğəmbər eyləmiş. Harada olsam, məni bərəkətli eyləmiş. Bir də buyurmuş mənə namazla zəkatı nə qədər ki, mən sağam, anama da yaxşı olum. Eyləməmiş O məni kobud, bəxtsiz birisi. Salam olsun mənə doğulduğum gün, mən ölən gün, sağ olaraq dirçəldiləcəyim gün!" (19:30-33).**

Buradaca haşiyə çıxaraq deyim ki, susan Məryəm-danışan İsa tandemi ilə sadə camaatın üzləşməsi epizoduna bədii mətn prizmasından yanaşdıqda obrazlı poetik dramatizmdən, sırf dini kontekstdə baxdıqda isə Tanrı sözünün möcüzə ilə doğrulanması hikmətindən maraqlı söhbətlər aparmaq olar. Bu barədə yazmayıblarsa, yazsınlar. Yazmasalar, özüm nə zamansa çalışaram yazım

Qeyd etdiyim epizodda orucla bağlı diqqət çəkən məqam həm də odur ki, susqunluq ibadəti ünsiyyəti tam inkar etmir. Yəni camaatla danışa bilərsən, amma bu, işarə ilə olmalıdır. Oxu ayələrində buna dair başqa bir nümunə Zəkəriyyə peyğəmbərin əhvalatındadır.

Yeri gəlmişkən, Zəkəriyyə sözü bizə ərəbcədən miras qalıb. Sözün ibranicə əslinin izahını etimolojisinin istinadən adətən belə verirlər ki, bu, Tanrı dərgahında daim xatırlanan deməkdir.

Övladı olmayan Zəkəriyyə ahıl çağında Tanrıya dua edir ki, ona bir övlad bəxş etsin. Duası eşidilir. Mələklər ona gələcəkdə peyğəmbərlik məqamına yüksələcək Yəhyanın müjdəsini çatdırırlar. Müjdənin doğrulanmasına arxayınlıq üçün Tanrıya xitabən "Rəbbim! Oğlum necə ola, qocalıq haqlamış məni, qadınım da ki sonsuz?!" (3:40) deyir. Tanrı dilədiyini eləyər hökmünü eşidincə Ondan bir əlamət istəyir. Tanrı dediyi bu olur: "Bəlirtin bu ola ki, camaatla üç gün yalnız işarəylə danışasan, Rəbbini tez-tez anasan, səhər-axşam öyəsən" (3:41). Haqqında danışılan əlaməti-bəlirtini necə anlamalıyıq? Zəkəriyyənin övladı olacağını bildirəcək bəlirti niyə ilk növbədə işarəli danışıqla şərtlənməlidir?

**Cümləlari dilimizə ərəbcədən tərcümədə hərfən necədir, elə də səsləndirmişəm. İfadələrin məhz bu linqvistik məntiqi məni bu qənaətə yönləndirir ki, bəlirti Zəkəriyyəyə edilən susqunluq orucuna dair ilahi ismarışın sonucuna hesablanmışdır, yəni prosesin özünü bildirmir. Çünki ayədən göründüyü kimi, işarə ilə danışmaq Rəbbin təkrar-təkrar anılması, Onun səhər-axşam öyülməsi ilə müşayiət olunmalıdır.**

İstər bizim dilə olsun, istər bütün başqa dillərə - tərcümələrdə həmin əlamətə aid hərfi tərcüməsini verdiyim "yalnız işarəylə danışasan" ifadəsində feil bir qayda olaraq ya qəti gələcək zamanda - "danışacaqsan", yaxud "danışmalı olacaqsan" kimi tərcümə edilir. Bəzi tərcümələrdə isə ifadə "işarəylə danışmaqdan başqa imkanın olmayacaq" kimi də gedir.

Zəkəriyyəyə dair eyni məzmunda başqa bir ayə də var, orada əlamət belə təqdim edilir ki, Tanrı elçisi insanlarla üç gecə danışmasın (19:10). Burada Zəkəriyyəyə yalnız işarə ilə danışmaq yox, ümumiyyətlə danışmamaq təlqin edilir. Və ayə dolayısı ilə o dəqiqləşməni də təlqin edir ki, Zəkəriyyə gün ərzində əhatəsi ilə yalnız işarə ilə danışmalıdırsa, gecələr bundan da imtina etməlidir. Səbəbi bəllidir, üç gün içində Rəbbini səhər-axşam anmalı, öyməli olan elçi bunu tam olaraq yalnız gecələr edə bilər - axşamdan səhərədək! Yeni tərcüməmdə müvafiq ayəni belə vermişəm: "Dedi: "Rəbbim! Bir ayə var et mənə". Dedi: "Ayən düz üç gecə insanlarla danışmamağın". Hərçənd "ayə" sözünü "əlamət", "danışmamağın"ı isə "danışmayasan" kimi də tərcümə edə bilərdim. Məzmun dəyişmir, əlbəttə. Eyni məzmunlu ayələri bilərəkdən belə kiçicik fərqlərlə təqdim etməyimin səbəbi odur ki, ikincidə oxucu diqqətini Tanrı hikmətlərinin, qüdrətinin dəlili, əlaməti, möcüzəsi kimi anlaşılan və geniş məna tutumuna malik "ayə" sözünə çəkim. Və dilimizin qrammatik məntiqi bu yerdə tələb edir ki, "danışmayasan"ı feili-isimlə əvəzləyərək "danışmamağın" yazasan. Danışmamağın istənilir mənasında. İstənilir ki, ayənin-möcüzənin işləkliyinə özün şahidlik edəsən, nəticəsini görəsən.

Sözü gedən feilin gələcək zamanda təqdimi isə, bir daha bildirim, tərcümə yanlışıdır ki, öz növbəsində müsəlman ilahiyyatçılığında fikir təhrifinə səbəb olmuşdur. Əslində isə, peşəkar Quran tərcüməçilərini bu qəbildən yanlışlara sövq edən səbəb ərəbcələrinin zəif olması deyil. Beləlari adətən ayələrdə təsvirləri gedən əhvalatları tərcümə edəndə hədis qaynaqlarında nağıllaşan təfsirlərini əsas götürür, ümumun qəbul etdiyi hakim dini qavrayışların təsirindən çıxmaq cəsarətində olmurlar.

Qeyd edilən epizoda dair açıqlamalar arasında daha yayğını olan budur ki, Zəkəriyyə aldığı xoş müjdəni ilk anda guya şübhə ilə qarşılayır. Hərçənd çətin anlaşılır ki, Rəbbi ilə məhrəm dialoqda olan Zəkəriyyə özünün və zövcəsinin fiziki durumuna istinadən "oğlum necə ola bilər" deyirsə, bunu sadəcə təəccüb ifadəsi kimi niyə də qəbul etməyəsən. Peyğəmbərdirsə, söhbət birbaşa olaraq onunla Rəbbi arasında gedirsə, nəyə görə şəkk gətirməlidir?

Oxuda peyğəmbərlərin, Tanrı elçilərinin yanlışlarına dair ayələr var, amma o yanlışların heç birində Rəbbin ayəsinə-əlamətinə-dəlilinə şəkk gətirmək nümunəsi yoxdur. Bu fikrin Oxuda aydın ifadəli doğrulanması var: "İbrahim də söyləmişdi bir zaman: "Ölülərə necə həyat verirsən göstər mənə, Rəbbim!" Dedi: "İnanmazmı oldun?". Dedi: "Elə deyil, ancaq ürəyim arxayın olsun deyə "(2:260). Bu mənada başqa misallara da müraciət etmək olar. Maraqlıdır ki, bu Oxu məntiqi qarşısında mat qalan bəzi müsəlman ilahiyyatçıları məcburdurlar peyğəmbərin bu şəkk gətirmək məsələsini inkar etsinlər, amma bununla belə məntiqsiz olaraq yenə vurğulayırlar ki, Rəbbi Zəkəriyyəni müvəqqəti olaraq danışıq qabiliyyətindən guya məhrum edibmiş.

Bütün ənənəvi təfsirlərdə bəzən birbaşa, bəzən dolayısı ilə təlqin edilir ki, Zəkəriyyə ona çatdırılan xoşbəxtlik müjdəsinə şəkk gətirdiyinə görə bunun Rəbbindən gələcək ayəsi-əlaməti-dəlili bir növ ona veriləcək üç günlük lalkarlığa məhkumluq cəzasıdır.

Müjdə bəlirtisinin cəza qəbilindən təqdimi ilk qavrayışda məntiqli səslənə bilər, çünki müvəqqəti "lal-kar"lığına görə işarə ilə danışmaq zorunda qalan Zəkəriyyəyə tövsiyə edilirsə ki, Rəbbini təkrartəkrar anaraq səhər-axşam öysün, düşünə bilərsən ki, bu, "şəkk gətirilməyə" görə suçun yuyulması ola bilər. Bu barədə hazır Bibliya açıqlaması da öz yerində. Həmin açıqlama qeyd etdiyim Oxu ayəsinin müsəlmanlarda ənənəvi təfsirini bir növ şərtləndirən hədislərin məzmununu müəyyənləşdirir.

Lukaya görə Müjdənin Zəkəriyyə əhvalatında övladının olacağı müjdəsini ona Cəbrayıl çatdırır. O da Oxuda olduğu kimi özünün ahıl çağında, zövcəsinin isə sonsuz olduğunu xatırladır. Cəbrayıl ona müjdənin Rəbbi tərəfindən göndərildiyini, ardınca "Bax sən susqun qalacaqsan, danışa bilməyəcəksən ta o vaxta qədər ki, hər şey öz yerini alacaq. Çünki sən mənim sözümə inanmadın, o sözümə ki, vaxtında yerinə yetəcək" (Luka, 1:18-20) deyir. Əslində, Cəbrayılın, ənənəvi qavrayışa görə, baş mələyin missiyası müjdəni çatdırmaqla məhdudlaşmalı olduğu halda hökmlü tövrü də anlaşılmaz qalır.

**Hörmətli oxucu haqlı olaraq soruşa bilər ki, Yeni Əhddə belədirsə və Oxu öncəki Yazıları doğruladığını bildirirsə, ənənəvi təfsirlərdəkinin mübahisələndirilməsinə nə ehtiyac?**

Məsələ burasındadır ki, bizə çatan bütün mövcud Müjdə variantları tərcümələrdən ibarətdir: xristian alimlərinin rəyinə görə, İsa Məsihin danışdığı, indi işlənməyən qədim arami dilindən edilən tərcümələrdən. Bir daha qeyd edim, müqəddəs Yazıların tərcümələrində yanlışlar bir qayda olaraq hakim dini düşüncənin təsiri ilə baş verir və tərcüməçiləri çox zaman ciddi şəkildə qınamaq olmur. Müqayisə üçün elə bunu yazmaqla yetinim ki, hətta Oxunun orijinalı göz önündə ola-ola hədislərin təsiri ilə bəlli yanlışlar tərcümələrdə yer ala bilirsə, məncə, təsəvvür etmək çətin olmaz ki, qədim arami dilindən kilsə nəzarəti altında gəlişən Müjdə tərcümələri oxşar yanlışlardan sığortalana bilməzdi.

Təkrar edim, yuxarıda təqdim etdiyim Oxu ayələri orijinala ən yaxın hərfi tərcüməyə iddialıdır.

Ayələrin hərfi tərcümədə linqvistik təlqini ilə yanaşı, o da var ki, bu təlqini Oxunun bütün ayələrə şamil olunan möhkəm, pozulmaz məntiqində izləmək çətin deyil.

Məsələn, suallarımızı ard-arda səsləndirək:

"İsa Məsihi dünyaya gətirən Məryəmin susqunluğu aşkar olaraq ibadətdirsə, orucdursa, Zəkəriyyəninki niyə oruc olmasın, sadəcə cəza olsun?

"Hər ikisi susaraq soydaşları ilə işarə ilə danışmırmı?

"Məryəmə müjdə İsa Məsihin, Zəkəriyyəyə müjdə İsa Məsihin gəlişini xəbərləyən Yəhyanın dünyaya gəlişidir və mərhəmətli Rəbb bu mübarək gəlişlərin xəbərlənmələrindən birini niyə müvəqqəti lal-karlıq cəzası ilə şərtləndirməlidir?

"Zəkəriyyəyə xoşbəxtlik müjdəsinin əlaməti adicə bir sorğulamaya görəmi cəza qəbilindən olmalıdır?

**"Belə sorğulamanı Məryəm eynən etməmişdimi, deməmişdimi: "Oğlum necə ola bilər, mənə bir bəşərin əli dəyməmiş, əxlaqsız da olmamışam?!" (19:20).**

Maraqlı məqam bir də ondan ibarətdir ki, hər ikisinin oruc zamanı danışdığı işarə dilini soydaşları anlayırlar. Məsələn, anlama-

ardı səh-13-də

# Zəkəriyyə peyğəmbərə dair yanlış yozum...

əvvəli səh-12-də

saydılar Məryəmə deyilməzdi: "İnsanlardan kimi görsən, de "Rəhmana bir oruc nəzir dedim, insan olan bir kimsəylə bu gün danıs?mayacam" (19:26).

**Bu sözləri Məryəm qucağında körpəsi qarşısına çıxanlara işarə ilə anladır və onu anlayırlar. İlk gördükləri onu əxlaqsızlıqda suçlayan soydaşlarıdır ki, Məryəmdən belə bir cavab alırlar. Məryəm aydınlıq üçün onu sorğulayanlara körpəsini nişan verir. Onun bu işarəsini əlini uşağa tərəf sadəcə uzatması kimi anlamaq olmur. Şəksizdir ki, soydaşlarına işarə dili ilə sözlər də deyir. Həmin sözlərin məzmunu Oxuda ayrıca ayə ilə verilməsə də aydındır ki, ona ünvanlanan belə bir qınağa cavab olaraq səslənir: "Ey Məryəm, görünməmiş bir iş gördün. Ey Hərunun bacısı! Pis kişi deyildi atan, əxlaqsız deyildi anan" (19:28).**

Təsəvvür etmək olar və diqqətli oxucu Oxuda görmək istərdi ki, Məryəmin onu qınayanlara işarə dili ilə nə dediyi də yazılsın. Yəni əvvəl onunla qarşılaşan soydaşlarının təxminən "bu nə məsələdir, bu körpə nə deməkdir" qəbilindən sorğulamalarını cavablayaraq Rəbbinin ona əvvəldən buyurduğunu onlar üçün də Oxu mətnində təkrarlasın: "Rəhmana bir oruc nəzir dedim, insan olan bir kimsəylə bu gün danıs?mayacam". Bunun ardınca onu tərbiyəsizlikdə qınayanlara da "səbəbini bu körpədən soruşun", yaxud "bu körpədən soruşun sizə hər şeyi izah etsin" söyləsin. "Soruşun", yaxud "izah etsin" ki, Məryəmi qınayanların "Biz necə danışaq beşikdəki uşaqla?" sualı oxucunun adi nəsr əsərlərində alışdığı təhkiyə gözləntisinə cavab versin.

Məsələ burasındadır ki, Oxunu başqa yazılardan fərqləndirən mətn ecazlarından biri yetərincə araşdırılmamış bədii fəndlərlə bağlıdır. Bunların içində film ssenarilərinin yazılış üslubuna dair ayrıntılar da var. Belə ki, hər hansı süjetli bir fikir ifadə olunandan sonra uyğun əhvalat gedişatının məlum ayrıntıları sözlə ifadə edilmir, nəzərdə tutulan nəticə bir növ sözlə səhnələşdirilərək təqdim olunur. Belə məqamlar Oxuda çoxdur

Zəkəriyyəyə dair əhvalat da təsdiq edir ki, onun işarə dili soydaşları üçün anlaşıqlıdır. Belə olmasaydı ona təlqin edilməzdi ki, "camaatla üç gün yalnız is?arəylə" danışsın. Danışdığı camaat onun moizələrinin dinləyiciləridir. Ehtimal edə bilərik ki, Zəkəriyyənin üç gün ərzində danışdığı hazırda dünyanın əksər dillərində lal-karlar üçün işlənib hazırlanmış işarə dillərinin hansısa arxaik bir variantı olmuşdur.

Zəkəriyyə və Məryəm eyni dövrün şəxsləri idi, üstəlik Məryəm Zəkəriyyənin qəyyumluğunda boya-başa çatmışdı. Bəllidir ki, Yaqub nəslindən olan Zəkəriyyə fəaliyyətini ali rütbəli din xadimi və peyğəmbər qismində dar bir mühitdə - yəhudilərin müqəddəs məbədində, Qüdsdəki məşhur İkinci Məbəddə sürdürürmüş. Çalışdığı məkan elit bir ruhani mühiti imiş. Bu mühitdə toplanan yəhudilərin hansı bacarıqlarının olduğu barədə müqəddəs yazılarda dəqiq məlumat verilməsə də, istər Oxu, istər də Müjdə mətnindən aydın görünür ki, onlar işarə dili ilə danışa və danışanları anlaya bilirmişlər.

Bizim üçün maraqlı gələn bir də odur ki, görəsən, bir mənası ərəbcənin izahlı lüğətlərində səsli danışmaqdan imtina kimi verilən saum, siyam, yəni müqəddəs mətnlərdə gedən belə bir oruc nümunəsi nəyi öyrədir.

**Oxu ayələri oruc ibadətinin birmənalı olaraq məhz yeməkdən, içməkdən, cinsi əlaqədən imtinadan ibarət olduğunu vurğulamır. Yəni ayələrdə deyilmir ki, orucsansa, yalnız bunları etmə. Vurğulanan sadəcə sübh ertədən axşam toranınadək bitən orucdan sonra sadalananların mümkünlüyüdür. Oxunun sırf universal məntiqi bu məqamda da heyrətamizdir.**

Ayrıntılara varmadan qeyd edim ki, Oxunun elitar səviyyədə ruhaniyyəli insanlarla sadə inanc yiyələrinin hərəsinin özlərinə ünvanlı edə biləcəkləri var. Birincilər Ramazan ayında sadalananlardan əlavə susqunluq orucundan da faydalana bilərlər. Sadə insanlar üçün isə bu oruc növü vacib deyil. Oxunun oxşar qəbildən universal məntiqini bir sıra başqa mətləblərə aid olaraq da izləmək olur. Məsələn, yamanlığa yaxşılıqla qarşılıq verməyi yalnız böyük ruh sahibləri üçün təlqin edən müvafiq Oxu ayəsi (41:34-35) ilə yanaşı, yamanlığın yalnız öz ölçüsündə cəzalandırılmasını bütün sadə insanlara icazəli bilən Oxu ayələri (40:40; 42:40 və s.) də var (bu barədə geniş şərh üçün bax: Nəriman Qasımoğlu, Yamanlığa yaxşılıq: İncil-Quran aydınlığında -

Zəkəriyyə və Məryəm nümunəsində susqunluq orucunun nəticəvi əlamətinin ayə - Tanrının kainat yaradıcılığında dəlili, möcüzəsi olduğunu nəzərə alsaq, düşünmək olar ki, bunun öyrədici məzmununda "hər gün bir iş içində olan"(55:29) Tanrının yaradıcı insanları, Tanrı birliyinə tanıqlıq edən alimləri (3:18), İlahidən istedad payı olan insanları bu oruca təşviq var. Söhbət belə şəxslərdə nəhəng kəşflərə, gözəl tapıntılara təkan verə biləcək yaradıcı potensialın tam həcmdə gerçəkləşdirilməsi üçün zəruri bir prosesdən gedir.

İnsanın özünü xarici aləmdən, səslərlə kirli mühitdən təcridlə intellektual yaradıcılıq prosesində qazandıqları uğurların təhlillərinə həsr edilmiş xeyli maraqlı elmi araşdırmalar var. Bunların əsasən sırf elmi təhlillərə iddialı olan qismində özünütəcriddə düşüncələri, daxili aləmi, ideyaları, öyrəndikləri ilə baş-başa qalan yaradıcı insan şüurunda baş verən təbəddülatın neyro-psixoloji xüsusiyyətləri təhlil edilir.

Yaradıcılıq prosesi üçün sükunətli mühitin oynadığı roldan yazanlar da yetərincədir. Məsələn, Amerikanın tanınmış təhsil ekspertlərindən biri Nənsi Siql Susqunluq Yaradıcılığın İnkubatoru Kimi (Nancy Siegel, Silence as an Incubator for Creativity) araşdırmasında qeyd edir ki, yaradıcılığın ifadələnməsi üçün səssizliyə dalma zəngin, məhsuldar və güvənli bir zəmin rolunu oynaya bilir. Müəllif bu yazısında susqunluğu içimizin dərinliyindəki aləmə xarici aləmdən səfəri reallaşdıra bilən bir amil kimi vurğulayır. Və haqlı olaraq hər insanın daxilində Tanrıdan yaradıcılıq zərrəciyinin olduğunu, bu zərrəciyin də Ali Yaradanı yamsılamaq imkanı təklif etdiyini yazır (CHARA - Tidsskrift For Skaberv?rk, P?dagogik Og Dannelse 2011, volume 3, number 1, p.185).

**Qərbli ekspertin yazdığının Oxu təsdiqi də var: "Tut üzünü dinə sarı təktanrıçı kimsətək. Tanrıcıl bir fitrətə ki, insanları bu fitrətdə yaratmış " (30:30).**

**525.az**



CEMİL KILIÇ
İLAHİYATÇI YAZAR

# İslamın 5 şərti

Mən də oxudum və bir xeyli düşündüm. Sizlərin də oxuyub düşünmənizi məsləhət görərdim.

Həmişə soruşardım ki, İslam coğrafiyası niyə belədir?

İslamın 5 şərti

İslamın 5 şərti, ya da Hz. Hüseyn nə üçün şəhid oldu?

Miladın 680-ci ilinin 10 oktyabr günü Kərbəlada böyük bir qətliam gerçəkləşdi. Bu qətliam İslam ümmətini dərindən sarsıtdı. Çünki İslam peyğəmbəri Hz. Məhəmmədin nəvəsi Hz. Hüseyn və yanındakı 72 silahdaşı Əməvi Ərəb İslam dövlətinin xəlifəsi Yezidin ordusu tərəfindən Kərbəlada amansızcasına qətl ediləndə İslamın doğuluşunun 70-ci ili idi.

Bir din düşünün ki, doğulmasının üstündən hələ 70 il qədər qısa müddət keçə, o dinin peyğəmbərinin ən çox sevdiyi nəvəsi o peyğəmbərə iman etdiyi deyilənlər tərəfindən amansızcasına qətl edilsin.

Baxın, İslam belə bir faciənin dinidir. İslam Kərbəla çölünə Hz. Hüseynlə birlikdə basdırılan məzlum bir dindir.

Həqiqət budur ki, Kərbəlada qətl edin Hüseynin bədəni deyildi. Onda simvollaşan İslamın ta özü idi. İslam o gün orada əslində 73 dəfə qətl edildi. 73 şəhidin biri Hüseyn idi, digərləri isə onun və yaxını olan qardaşları, uşaqları, əmisi uşaqları və yol yoldaşları idi. Hər birinin şəxsində İslam bir dəfə daha qətl edilmiş oldu.

Bəs yaxşı, nə idi İslam? Niyə qətl edildi?

Əməvilər Kərbəla şəhidlərinin şəxsinfə İslamı qətl etməyi niyə çox istədilər?

Axı onlar da İslama iman gətirdiklərinj iddia edirdilər.

Onlar tarixə İslam peyğəmbəri Hz. Məhəmmədin ən yaxınlarını qətl edənlər olaraq keçsələr də, bizə görə, şəkk-şübhəsiz dinin özünü öldürdülər.

Bunu başa düşmək üçün İslam üzərində qurulmuş beş ölməni yaxşı tanımaq lazımdır.

Bəli, İslam beş ölkə üzərində qurulmuşdur. Biz buna İslamın beş şərti deyirik.

Açıq-aşkar Quran ayələrilə ilk şərt ədalətdir. İkincisi əmanətdir. Üçüncüsü əhliyyət, dördüncüsü məsləhət, beşincisi isə məşvərətdir.

Nə oldu?

Təəccübləndinizmi?

Siz də elə bilirdiniz ki, namaz, oruc, həcc kimi ritualları sayacam?

Xeyr.

Onlar İslamın şərti deyil

Şərt elə bir şeydir ki, o olmasa, onun təmsil etdiyi sistem də olmaz.

Ədalət olmadan İslam olarmı?

Əmanətə sədaqət olmadan İslam olarmı?

İşi əhlinə vermədən, yəni əhliyyət olmadan İslam olarmı?

Bir şəxsin, yaxud bir qrupun deyil, xalqın xeyrini düşünmədən, əsas götürmədən, məsləhət olmadan İslam olarmı?

Danışmaq, fikir alış-verişi, düşüncə azadlığı və məşvərət olmadan İslam olarmı?

Dedilər ki, bunlar olmasa da, İslam olar.

Yetər ki, namaz qıl, amma Müaviyyənin, Yezidin ədalətsizliyinə etiraz etmə!

Yetər ki, oruc tut, amma acın, yoxsulun halından xəbər tutma! Dövlət adamlarının lüks və dəbdəbə içində yaşamasını dərd etmə!

Yetər ki, həccə get cə Kəbəni təvaf et, amma fərqli düşünür, fərqli inanır deyə zalım iqtidarlar tərəfindən həbsə atılıb şəhid edilən İmamı Əzəm Əbu Hənifələri, sürgün edilib ölümə tərk edilən Əbu Zər Qəfariləri, qılıncla boynu vurulan Hucr bin Ədiyləri gündəmə gətirib əsla fitnə çıxartma!

Bəli, belə dedilər.

Allahdan başqasına qul olmamağı, lazım gəlsə sultana qarşı qiyam etməyi öyrədən müqəddəs namaz ibadətini hardasa iqtidar sahiblərinə itaət etmə ritualına çevirdilər.

Eyni şeyi orucda, həccdə də reallaşdırdılar.

Allah ehtiyacdan artıq olanı yoxsullara verməyi buyurduğu halda, zəkatı qırxda birə endirdilər.

Saraylar tikdilər. Sərvətlərinə sərvət qatdılar. Əzdilər, sümürdülər, taladılar, yoxsulun və xalqın iliyini əmdilər. Özləri dünya nemətlərinin keyfini çəkdilər, yoxsul möminlərə isə o biri dünyadakı cənnət xəyalını verdilər.

Hesab vermədilər. Hesabı axirətə həvalə etdilər.

Nəticədə Məhəmmədi, İslamı yerlə yeksan edib yeni bir din yaratdılar.

Yaratdıqları din "əslində İslamdan öncəki şirk dininin İslam maskası geyindirilmiş halı"ndan ibarətdir.

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# Lənkəran teatrı 130-cü mövsümünə yekun vurub

**Bir neçə ildir ki, Lənkəran Dövlət Dram Teatrı mövsümün açılış və bağlanış mərasimlərini doğma səhnədən kənarda keçirir. Ənənəsinə sadiq qalan kollektiv özünün 130-cü mövsümünə ötən gün Astara rayonunun Burzuband kəndində açıq məkanda yekun vurub.**



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan Astara Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Firəngiz Sadıxova teatrın yaradıcı kollektivinə130 illik yubiley münasibətilə İcra başçısı Qəzənfər Ağayevin təbrikini çatdıraraq truppanın bir neçə üzvünə RİH-nin Fəxri fərmanlarını təqdim edib.

Daha sonra teatrın direktoru Tofiq Heydərov mövsüm ərzində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Rəsmi hissədən sonra görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" tamaşası astaralı teatrsevərlərə təqdim olunub.

Ailə-məişət mövzusundakı tamaşada bir-birinə səmimi hisslər bəsləyən Səriyyə və Rüstəmin məhəbbəti ön planda təsvir olunur. Səhnə əsərində cəmiyyətin əsas mövcud problemləri, o cümlədən ictimai, əxlaqi-mənəvi inkişafa mane olan gerilik, mühafizəkar insanların çürük adətlərə sadiqliyi, pulun cəmiyyətə və əxlaqa göstərdiyi pozucu təsir kəskin tənqid atəşinə tutulur.

Quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayev olan tamaşada rolları Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sucəddin Mirzəyev, aktyorlar Aynur Əhmədova, Səyad Əliyev, Qızılgül Quliyeva, Əbülfəz Axundov, Tərlan Abdullayev, Emin Fərzullayev, Mirasla Ağayev, Tərənə Fərəcova və Amil İbrahimli ifa ediblər.

**Ağaddin BABAYEV**

# Maral Rəhmanzadə

## *105 yaşlı İlk profesional azərbaycanlı rəssam qadın*



**Kamalə Abiyeva**

**1916 - cı il iyulun 23-də Xəzərin sahilində nağıl kimi bir şəhərdə-doğma Bakımızda bir qız dünyaya gəldi. Qarasaçlı, qaragözlü qızcığaza Maral dedilər. Anası tez-tez qızının qara saçlarını oxşayıb ”mənim qızım bir başqadır” deyirdi. Həqiqətən də bir başqa oldu Maral.**

Qayğısız böyüyən Maral bir gün hamı kimi məktəbə getsə də fərqləndi.

Atası Yusif Rəhmanzadə zərgər idi. Düzəltdiyi bəzək əşyaları, onlara vurduğu naxışlarla hörmət və şöhrət qazanmışdı. Hərdən balaca Maral da onun işini izləyərdi. Qızına müxtəlif naxışlar çəkməyi təklif edən ata bunun adicə həvəs olmadığını görür. Balaca Maral naxışlarla bərabər müxtəlif şəkillər də çəkir. Bu rəsmlər onun istedadından xəbər verirdi.

Maralla birgə onun rəsm çəkməyə həvəsi də böyüyür və o, rəssam olmağa qərar verir, Azərbaycan Dövlət Rəssamlıq texnikumuna daxil olur. Oranı bitirdikdən sonra 1934 - 1940 - cı illərdə Moskvada Surikov adına Dövlət Rəssamlıq Akademiyasında təhsil alır.

1940-cı ildə institutu bitirən qrafika ustası Moskvada ”Xudojestvennaya literatura” nəşriyyatında işə düzəlir. 1941-ci ildə rəssamın atası repressiyaya məruz qalır, onu xalq düşməni elan edirlər. Altı ay sonra o, Daşkənd həbsxanasında vəfat edir.

Bundan sarsılan M.Rəhmanzadə Moskvadan Bakıya qayıdır və həyatına, yaradıcılıq fəaliyyətinə doğma şəhərində davam edir. Elə həmin ildən ”Maral Rəhmanzadə” imzalı əsərlər silsiləsi yaranmağa başlayır.

Sevgi xatirəsi. Maral Rəhmanzadə o dövrün məşhur rəssamlarından olan Səttar Bəhlulzadə ilə dost olub. Onunla bağlı bəzi yazılardan S. Bəhlulzadənin Maral xanımı sevdiyini öyrəndim.

Gənclik illərində Moskvada birlikdə təhsil alarkən Maral xanımın başqasını sevdiyini və ailə qumağa hazırlaşdığını öyrənən böyük rəssam ona ürəyini aça bilmir.

Maral xanımın evliliyi uğursuz olur. Qızın onu yalnız həmkar, dost kimi sevdiyini anlayan Səttar Bəhlulzadə sevgisini gizli saxlayır. Bölüşməyə belə qıymadığı duyğularını qoruyur ürəyində. Ömrü boyu bu sevgiyə sadiq bir kişi kimi yaşayır. Və heç vaxt evlənmir.

Azərbaycan rəssamlıq sənətində öz yeri olan mahir fırça ustasının müxtəlif mövzulu əsərləri mədəniyyət tarixinə boyakarlığın qiymətli nümunələri kimi daxil olub.



Onun əsərlərində keçmişimizə qayıdarsan, dağlarımızın zirvəsinə qalxarsan. Kənd həyatını sevərsən, neftçi olmaq istərsən...Rəsmləri o qədər canlı, o qədər valehedicidir ki!



Maral xanımın qrafika sahəsindəki əsərləri heyranlıq doğurur.

Doğma yurdunun füsunkar təbiətini silsilə əsərlərində istedadının gücü ilə elə ustalıqla təsvir edib ki!

Maral xanımın kitab qrafikası sahəsində də maraqlı işləri var. O bir çox bədii əsərlərə illüstrasiyalar çəkmişdir. Rəssam M.S.Ordubadinin ”Qılınc və qələm”, M.F.Axundzadənin ”Aldanmış kəvakib”, A.S.Puşkinin ”Yevgeni Onegin”, M.Y.Lermontovun ”Zəmanəmizin qəhrəmanı” və s. əsərlərin illüstrasiyalarının müəllifidir.

M. Rəhmanzadə səyahəti sevərdi. Yaradıcı insan hər gördüyü şəhərdən, kənddən, dağdan, dərədən ilhamlana bilər. Müxtəlif insanlarla ünsiyyətdən yeni bir mövzuda əsər yaranar. Onun üçün bir kəndlinin həyatı da, bir neftçinin yaşamı da maraqlı idi.

Maral xanım bir sıra xarici ölkələrdə olmuşdu, həmin ölkələrin həyatından müxtəlif mövzularda silsilə qravüralar yaratması təsadüfi deyil.

Azərbaycan qadınının gözəlliyinin, özəlliyinin, zərifliyinin, mənəvi aləminin rənglərin dili ilə ifadəsi də Maral Rəhmanzadə yaradıcılığının başlıca xüsusiyyətlərindən biridir. Yaradıcılığının ilk illərində çəkdiyi dəzgah rəsmləri silsilələrində (”Azərbaycan qadını keçmişdə və indi”, ”Qadınlar müharibə illərində”) Azərbaycan qadınlarının həyatı öz əksini tapmışdır.

Kənd həyatı, doğma təbiətin təsviri onun rəngli linoqravüra silsilələrinin də başlıca mövzusudur (”Bizim qızlar”, ”Mənim bacılarım”, ”Doğma vətənim”, ”Azərbaycan”).

Silsilə qravüralar yaradan rəssamın əsərləri London, Moskva, Nyu-York, Paris, Roma, Tokio və dünyanın bir çox şəhərlərinin muzeylərində, rəsm qalereyalarında və sərgi salonlarında uğurla nümayiş etdirilib. Onun xaricdə keçirilən fərdi sərgiləri mədəniyyətimizin təbliğinə xidmət edib, Azərbaycan boyakarlığına beynəlxalq miqyasda şöhrət gətirib.

Xalq rəssamı (1964), Dövlət mükafatı laureatı ( 1965) Maral Rəhmanzadə professional rəssamlıq təhsili almış ilk azərbaycanlı qadındır. Maral Rəhmanzadə müasir milli rəngkarlıq məktəbinin inkişafında yüksək xidmətləri olan sənətkardır.

Bu il dünyaşöhrətli Azərbaycanın ilk profesional qadın rəssamının 105 yaşı tamam olur.

Maral Yusif qızı Rəhmanzadə 2008 - ci il martın 18-də cismən bizdən ayrılsa da, yaratdığı rənglər dünyası göy qurşağının rənglər gözəlliyi kimi həmişə yaşayacaq.

**Dünya bir pəncərədir, hər gələn baxar gedər, deyirik. Ancaq görəsən, bu pəncərədə hər kəsin baxışlarından bir iz qalırmı?! Yəqin ki, yox! Həyatda iz qoyanların, dünyamızın yaşayıb, daha da böyüməsi üçün can yandıranın, alın təri axıdanın izi qalır bu pəncərədə. Və bir də gənc həyatını Vətən yolunda fəda edən, torpağın azad nəfəs alması üçün qarı düşmənin üstünə şığıyan oğulların baxışları qalır bu pəncərədə. Bu pəncərə onlardan ötrü həmişə açıqdır və onların yollarını gözləyir. Və bir də bu pəncərədən onları həmişə görmək olur.**



# Tut ağacının nağılı

Məmmədov Hamlet Məmməd oğlu 1968-ci il iyunun 8-də Ağcabədi rayonunun Qaradolaq kəndində dünyaya göz açıb. 1975-ci ildə kənddəki orta məktəbin 1-ci sinfinə daxil olub. Sonra Bakıda təhsilini davam etdirib. 1986-1988-ci illərdə Sovet Ordusu sıralarında Çexoslovakiyada xidmət edib. Tankçı hərbi peşəsinə yiyələnib. Ordudan tərxis olunandan sonra Bakıda Montin adına maşınqayırma zavodunda işləyib. Burada gələcəyin Milli Qəhrəmanı Albert Aqarunovla yaxın dost olan Hamlet 1992-ci ildə könüllü olaraq kəşfiyyatçı kimi müharibəyə gedir. Sentyabrın 8-də komandiri ilə birlikdə kəşfiyyat tapşırığını yerinə yetirərkən yaralı halda əsir düşür. Ürəyindən və ayağından yaralı olan Hamleti ələ keçirən düşmənin ürəyi sakitləşmir, onu öldürürlər. 1992-ci il dekabrın 6-da Hamletin nəşi 3 erməni əsiri ilə dəyişdirilir. Hamlet doğulub, ərsəyə çatdığı Qaradolaq kəndində torpağa tapşırılır.

...1992-ci ilin avqustunda Hamlet komandiri ilə bir günlük doğma kəndlərinə baş çəkir. Anası Təranə artıq bəsdir, oğlum evimizə qayıt. Nə qədər vuruşmaq, döyüşmək olar deyib onu hərbdən uzaqlaşdırmaq istəyir. Oğul, axı, mən təkəm, həyanım olarsan deyir. Cavabında Hamlet, ana təkcə sən tək deyilsən. Vətən də təkdir deyə cavab verir. Və mənim dostum, silahdaşım Albert Araqunov Vətən yolunda həlak olsun, mən də gəlim dinc həyat yaşayım, ana. Belə yaramaz, bu gözəl Vətəni mənfur düşməndən azad etmək bizim ən müqəddəs borcumuzdur deyib Hamlet yenidən cəbhəyə yola düşür.

Anası Təranə deyir ki, həmin axşam qapının yaxınlığında əzəmətli tut ağacının altında xeyli söhbət etdik. Tut təzəcə yetişirdi. Hamlet bir əlini tuta söykəyib, o biri əli ilə ağacın altını göstərərək, ana tezliklə müharibə qurtarar və mənə bu tut ağacının altında bir mağar qurub toy edərsən dedi. Mən də əllərimi göyə uzadıb, belə, toy ananın gözləri üstə, təki sən məndən toy istə, dedim. Xeyli güldü, məmnun halda başını yırğaladı. Səhəri gün tezdən cəb-həyə yola düşdü. Az keçməmiş ölüm xəbərini aldıq. Tut ağacının altında toy yox, yas etdik. Həyatın qəribə qanunları var, heç baş açmaq olmur. Şair yəqin həyatda baş verən belə qəribəliklərə işarə olaraq yazıb ki, ey həyat, sən nə qəribəsən...

Vaxtı ilə oxuduğu Qaradolaq kənd tam orta məktəbinə 1994-cü ildə Hamlet Məmmədovun adı verildi. Anası düz 1989-cu ildən bu məktəbdə çalışır. Bu yaxınlarda Vətən müharibəsinin iştirakçılarından biri Birinci Qarabağ müharibəsində Hamletin vuruşduğu yerlərdən düşmən tərəfindən bir neçə yerdən yaralanmış Azərbaycan bayrağını Təranə xanıma xatirə kimi bağışlayıb. Təranə xanım da öz növbəsində bu bayrağı məktəbə hədiyyə edib, Hamletin məktəbdə adını daşıyan xatirə guşəsinə verib.

Hamlet Məmmədov adına Qaradolaq kənd tam orta məktəbinin hazırda direktoru vəzifəsini icra edən, riyaziyyat müəllimi, onun sinif rəhbəri olmuş Abbas Abbasovun dedikləri: ”Hamlet çox nümunəvi şagird idi. Dərslərini yaxşı oxuyur, başqalarından seçilirdi. İntizamlı, ünsiyyətcil, fəal şagird olan Hamletin gözlərinin dərinliyində həmişə bir kədər özünə yuva salmışdı. Bu kədər ona rahatlıq vermirdi. Və o, böyüdükcə biz o kədərin Vətən nisgili, düşmən tapdağı altında inildəyən doğma torpağın naləsi olduğunun şahidi olduq. Hələ məktəbdə ikən Vətənə, torpağa həsr olunmuş tədbirlərdə necə ürəkdən, yana-yana iştirak etməsi onun əsl vətənpərvər olmasından xəbər verirdi. O, bir az da böyüyüb Vətənə olan sevgisini düşmənlə üz-üzə gələndə göstərdi. Son nəfəsinədək döyüşdü, vuruşdu. Ölümdən qorxmadı. Onun önündə gözlərini də qırpmadı. Vətən azad olsun deyə canını qurban verdi... Onun əziz xatirəsi heç zaman gözümüz önündən getməyəcək, həmişə yaddaşımızın ən dərin guşəsində özünə yer tapacaqdır.

...44 günlük Vətən müharibəsi zamanı qəribə hadisə baş verdi. Düşmənin dinc əhaliyə sarı tuşladığı raketin bir parçasını Hamletin uşaqlıq dostu, həmdəmi, altında toyunu keçirmək istədiyi böyük tut ağacı özünə çəkdi. Ağac sinəsini düşmən qəlpəsinə sipər etdi. Hamletlə bağlı xatirələr, Hamletin ruhu uzaq düşməsin, onunla birgə yaşasın deyə. İndi tut ağacı Hamleti xatırlayır, onun üstünə hopmuş əlinin izləri ilə tez-tez söhbət edir. Yaşayır tut ağacı. Üstündə, sinəsində Hamleti xatırladan unudulmaz xatirələri ilə. Tut ağacı daha da böyüyür, günəşə sarı boylanır. Hamletin ruhu da göylərdən tut ağacını seyr edir, ona salamlar göndərir. Ağac da yaşayır, Hamlet də. Ağac ana torpaq üzərində, Hamlet göylərdə və qəlbimizdə...

**Adil MİSİRLİ**

# Tək bircə üzüm var, bir sir-sifətim,
# Təzə deyiləm haa... köhnəyəm, lələ!



İSMAYIL MƏRCANLI İMANZADƏ

**ANA VƏTƏN SƏNİNDİR**

*Ulu Tanrıdan cəmi şəhidlərimizə*
*qəni-qəni rəhmət diləyirəm!*

Şəhidim, əhsən sənə,
Vətənə bəxş etdiyin
Zəfərin nə gözəlmiş!
Yurd amalınla birgə
Şəhid ucalığından
Tanrının dərgahına
Səfərin nə gözəlmiş!

Könlümüzü oxşadı
Yenilməz hünərindən
Soraq verən hər anın.
Gəzdi dildə-ağızda
Torpağın sinəsinə
Al qanınla yazdığın
Qəhrəmanlıq dastanın...

Bu müqəddəs savaşda
Düşmən bağrı çatladan
Cəsarətinə alqış!
Nəsillərə nümunə -
Ülvi Vətən eşqinə,
Saf niyyətinə alqış!

Şəhidim, ölümünlə
Dönüb ölümsüz oldun,
Qazandığın bu halal
Şöhrət, ad-san sənindir!
Haqqın var zaman-zaman
Əbədi yaşamağa,
İndi hamıdan qabaq
Uğrunda can verdiyin
Qarabağ, Ana Vətən -
Azərbaycan sənindir!

**GƏLDİM**

Dünyanın hər üzünə
Olmadm halı, gəldim.
Nə atlı, nə dəvəli,
Nə barxanalı gəldim.

Şaxtalı qışı gördüm,
Qarı-yağışı gördüm.
Eniş-yoxuşu gördüm,
Dolandım yalı, gəldim.

Təzə arzu-həvəsdim,
Yaşamağa tələsdim.
Zülmət qarşımı kəsdi,
Azmadım yolu, gəldim.

Üstümə yağanda daş,
Bildim nədir cəng-savaş.
Dünyaya əlləri boş,
Ürəyi dolu gəldim.

**DÜNYA BİR OVUC BOYDADIR**

Gül nəmərdi, çiçək şabaş
Göz dağıdır quruya yaş.
Yamaca sancılan sal daş,
Qayanın "qılçı" boydadır.

Yal-yamacda çəmən xalı,
Meh sübhün qanadı-qolu.
Payızın dumanlı yolu,
Bir durna köçü boydadır.

Xeyir ilə şər qarışıq,
Dağların "alnı" qırışıq.
Xülmətdə közərən işıq,
İynənin ucu boydadır.
Bağlancaq ömrün kitabı,
Verməlisən son hesabı.
Sorğu-sual, gor əzabı,
Hər kəsin suçu boydadır.

Anlar minib çapır atın,
Öz hökmü var hər saatın.
Dünya sonsuz kainatın
Ovcunun içi boydadır.

**QƏDİMƏM, KÖHNƏYƏM...**

Tək bircə üzüm var, bir sir-sifətim,
Təzə deyiləm haa... köhnəyəm, lələ!
Sunbül ətirlidir arzum-niyyətim,
Halal söz dolusu təknəyəm, lələ!

Ağlımı-huşumu girləyir başım,
Yel kimi hər səmtə əsən deyiləm.
Təkcə bəxtimlədir cəngim-savaşım,
Heç kimin yolunu kəsən deyiləm.

Buludtək dolmuşam bəzən bir anda,
Qəfildən alışıb sönməyim də var.
Bir nadan rəddimi tapdalayanda,
Sıyrılan qılınca dönməyim də var.

Kimsə dolaşıanda ayaqlarıma,
Demirəm zülmətdə batıb getmişəm.
Qanmazla dilləşmək gəlib arıma,
Səbrimlə başımı qatıb getmişəm.

Yoxdur çörəyimin duzu əzəldən,
Heç kimi nə qovub, nə daşlamışam.
Nə vaxtsa üzümə ağ olanı mən,
Allah xatirinə bağışlamışam.

Kövrək ürəyimə yatmaz hər yetən,
Elə bilməyin ki, dili acıyam.
Bir qərib məkanda təzədən bitən,
Sinəsi yaralı bar ağacıyam...

Yurdum viran qalıb... sızlayır dilim,
Nə fərli komam var, nə dəyəm, lələ!
Haqdan üzülməyib yaxşı ki əlim,
Suları dumduru dəhnəyəm, lələ!

**ALDATMA ÖZÜNÜ,**
**BU SEVGİ DEYİL...**

Ötəri istəyin üstə azca əs,
Əgər bu sevgiysə, közü hanı bəs?
İsitməz ürəyi hər yersiz həvəs -
Aldatma özünü, bu sevgi deyil.

Bulanıq su kimi durulmaz axsa,
Bir çiçək bitirməz min il də yağsa.
Ruhunda bir leysan havası yoxsa -
Aldatma özünü, bu sevgi deyil.

Küləksə, hər səmtə əsən de, ona,
Ömürdən günləri kəsən de, ona.
Sevgidən başqa nə desən de, ona -
Aldatma özünü, bu sevgi deyil.

Gözləmə, gümanın axırı olmur,
Həsrətin yüngülü, ağırı olmur.
Belə sevdaların axırı olmur -
Aldatma özünü, bu sevgi deyil.

**GƏLİRƏM**

Halallıq ver gedim, Kürüm,
Gözləyir Qurbanim, Pərim.
Xudafərin nazlı Dirim -
Araz ünvanlım, gəlirəm.

Ulu Tanrım verdi aman,
Xar oldu savaşda "yaman".
Haqq evim Hacı Qaraman -
Səbri gümanlım, gəlirəm.

Cəbrayılım - ata elim,
Açıq alnım, "uzun" dilim.
Sona çatıb ta nisgilim -
Şərəflim-şanlım, gəlirəm.

Teyim, Qalam, Ziyaratım,
Şanım-şöhrətim, urvatım.
Büllur Kəhriz toy-büsatım -
Tarım-kamanlım, gəlirəm.

Yovşan ətirli Gəyənim,
Ərəni-mərdi öyənim.
Geriyə qayıt deyənim -
Düşmənlə qanlım, gəlirəm.

Tumasatam, Ağoğlanım,
Ta sızlamaz bir də canım.
Gordubabam, adım-sanım -
Yazı dumanlım, gəlirəm.

Əsiri olmadım yadın,
Damağımda qalıb dadın.
Dilimdən düşməyib adın -
Böyük Mərcanlım, gəlirəm.

**BELƏCƏ YAŞADIM...**

Gəzdim kəlmə-kəlmə səsdə-soraqda,
Hər sözün şəklini çəkdim varaqda.
Çəkilib durmadım heç vaxt qıraqda -
Təkcə öz yükümü daşımadım haa!

Ömür nə əzəlmiş, nə də ki, axır,
Adamı ya səhvi, ya suçu yıxır.
Bildim ki, tapdanan yerdən qan çıxır,
Heç kimin üzünü qaşımadım haa!

Öz ağlım, öz əlim, öz başım oldu,
Halallıq ən yaxın sirdaşım oldu.
Hərdən əyrilərlə savaşım oldu -
Düzləri büdrədib aşımadım haa!

Dosta qucaq açdım, yad oldum yada,
Uymadım ərəmik şöhrətə-ada.
Allah şahiddir ki, gəlib dünyada -
Heç zaman özümçün yaşamadım haa!

**QOV MƏNİ, ÇIXIB GEDİM**

Gözlərindən qəlbimə
Yoxsa gediş-gəlişim,
Qov nəni çıxıb gedim,
Daha sənlə nə işim?

Baxışların qapıtək
Bağlı qalıb üzümə.
Yalandan təsəllimi
Verim özüm-özümə.

Dilində sözmü qaldı,
Dinib nə deyəsisən?
Bəlkə mən kirəçiyəm,
Sənsə ev yiyəsisən?

**BİLMİRƏM NƏ DEYİM ...**

Qəribə taleyim var imiş demə,
Etdiyim yaxşılıq tez yaddan çıxır.
Deyən yox, mən boyda "ağıldan kəmə",
Niyə hər kəlməndən axı, qan çıxır?

Elə əzəl gündən halal sözdəyəm,
Dilini tapmışam lalın, korun da.
Paxırım yoxdu haa... örtüb gizləyəm,
Tarpına dözmüşəm bir nankorun da.

Neyləyim, yamanlıq gəlmir əlimdən,
Niyə çevrilim ki qarğış yerinə?
Hər vaxt qismətimə sığınmışam mən,
Min şükür Allahın verdiklərinə...

Boy umdan uzundur dilim-dilçəyim,
Yaxşıya sirdaşam, yamana yadam.
Üzümün nurudur saçım-birçəyim,
Qəlbimi "oxuya" bilməz hər adam.

Yurd həsrətim ki var... bir közərən şam,
Gözümlə görmüşəm çoxu, azı da.
Layiq olmasa da, bağışlamışam,
Yaxşılıq bilməyən anlamazı da...

Kiminsə könlünə niyə dəyim ki,
Boylanan deyiləm hər gələn səsə.
Allah rəhm eləsin, taa... nə deyim ki,
Haqqımı-sayımı tapdayan kəsə...



# Gözünüz aydın Flora xanım, Ağdam işğaldan azad olub!: Ad gününüz mübarək!

**23 iyul xarakteri, əqidəsi, xalqına münasibəti, insanlara hörməti və nəhayət sənəti ilə sevilən-sevdiyim, xalq artisti Flora Kərimovanın doğum gündü.**

Adalet.az xəbər verir ki, korifey sənətkar 27 ildir ad gününü qeyd etmir. Çünki onun ad günü ilə Ağdamın işğalı eyni tarixə düşür. Bu gün isə (28-ci il) Flora xanım ad günü keçirə bilməyəcək. Çünki ötən həftə də qardaşı Akif Kərimov dünyasını dəyişib (Allah rəhmət eləsin)

Amma çalışacağam bu yazımla, onu sevənlərin, eyni zamanda ağdamlıların adından təbrik edim.

**Vətənpərvər xanım, sözü bütöv qadın!**

Hər il 23 iyul gözlədim ki, yəqin bu dəfə Flora xanım ad günü məclisi qurar, təntənə ilə yaxınlarını başına yığıb yeni yaşını qeyd edər... Hər dəfə Şəhidlər Xiyabanından geri dönəndə gözüm o xəbəri axtarıb. Amma yanılmışdım. Ad gününü 27 ildə bir dəfə də qeyd etmədi. Bir neçə il öncə belə bir hadisə oldu. Flora xanım nəinki ad günü keçirmədi, hətta belə bir sual verənlərə göz yaşlarıyla"Şəhidlərimin nənəsi yaşındayam. Bayram eləmək harama yaraşır? 23 iyul ad günüm yox, ən bədbəxt günümdü. Dərd, itki... Hər cavan balamız torpağa tapşırılanda onlarla bir yerdə mənim də canımdan bir parça torpağa tapşırılır. Bu gün mənə danışmaq çox çətindir. Yaralıyam. Ömür vəfa eləsə, məni Ağdamda təbrik edərsiniz"- cavabını da vermişdi.

Ötən il də ona israrla ad gününü keçirməyi məsləhət edənlərə:"Bu gün Ağdamın işğalından 27 il ötür! Anası qarabağlı olan mənim ad günümü unutduğum gündür! 27 ildir bu ağrı mənim, millətimin təqvimindədir. Bir ana övladının yoxluğuna ağlayırsa, bir övlad atasız qalıbsa, ürəyim sevinə, üzüm gülə bilməz! Haqqım yoxdur! Bağışlayın məni! Bağışlayın ki, yazılan hər xoş sözünüzə, hər yazınıza, sayğınıza tək-tək münasibət fürsətim olmur. Ancaq Sizlərə - xalqa hər zaman təzimim var. Var olun".

**Təkrarsız sənətçinin mübarizə yolu...**

Flora Kərimova 1941-ci il iyulun 23-də dünyaya göz açıb.

Əsrarəngiz səsi, bəşər tarixində, yeganə dörd (4-cü) oktavanı aşan müğənnilərdəndir. Yüksək sənət keyfiyyətləri ilə bərabər, insani keyfiyyətləri çox yüksək olan bir şəxsiyyət kimi üzdə olub.Odur ki, həyatı təqiblər və qadağalarla keçib.

Flora Kerimova ilk qadağanı Sovetlər dövründə Qarabağda keçirilən konsertdəki insidentə görə alıb. Belə ki, Sara Qədimova, Şövkət Ələkbərovadan sonra oxumalı olan erməni əsilli müğənni, çox zildən Qarabağ şikəstəsini oxuyub. Növbəti çıxış Flora Kərimovanın idi və sənətkar konsertin proqramında nəzərdə tutulmuş əsəri deyil, elə Qarabağ şikəstəsini 2 not daha yüksəkdən ifa etməklə hamını təəccübləndirib. Lakin Bakıya qayıtdıqdan sonra o dövrkü Mədəniyyət nazirliyi bu addımı milli təəssüb kimi qiymətləndirərək Flora Kərimovanı uzun müddət səhnədən uzaqlaşdırmışdılar.



**"Ermənistan SSR xalq artisti adı" qalmaqalı**

Ən uzunmüddətli qadağanın tarixçəsi isə daha maraqlı olub. O dövrdə Moskvada belə qərara alınmışdır ki, hər respublikadan bir nəfərə SSRİ Xalq artisti adı verilsin. Flora Kərimovanın Moskvanın Mərkəzi Televiziyasının sifarışı ilə çəkilmiş musiqili filmdəki ifasından mütəəssir olan SSRİ Mədəniyyət Nazirliyinin əməkdaşları, Azərbaycandan seçiləcək sənətkarın Flora Kərimova olmasını istədiklərini bildirmişdirlər. Bu qərarın əsas səbəbi sənətkarın fantastik ölçülərə malik səs imkanlarının olması idi və bundan əlavə FLora Kərimova bir çoxlarından fərqli olaraq, Ali Musiqi Təhsilinə malik idi. Həm Asəf Zeynallı adına musiqi məktəbini, həm də Konservatoriyanı bitirmişdir, həm də rus dilini sərbəst bilirdi. Bunlar o dövrdə, ziyalı üçün vacib şərtlər idi. Lakin son anda elə sənətkarın özü bu məsələni alt-üst etdi. Belə ki, o dövrdə SSRİ Xalq artisti adını almaq üçün əvvəl Azərbaycan SSR Xalq artisti adını, sonra isə Ermənistan SSR xalq artisti adını almaq lazım idi və ancaq bundan sonra SSRİ xalq artisti adını verəcəkdilər. Əvvəlcə hər şey yaxşı getsə də, söhbət Ermənistan SSR xalq artisti adına gəldikdə Flora Kərimova qətiyyətlə fəxri adları almaqdan imtina etdi.

Buna görə SSRİ hakimiyyəti Flora xanıma aid olan bütün əsərləri arxivdən silməyə başlayır. Lakin xalqın sevgisi nəticəsində sənətkara aid əsərlərin əksəriyyətinin 2-ci nüsxəsi gizlədilərək bu günümüzə kimi gəlib çatıb.

**Tankın qabağına getmişəm, erməni əsgərlərinin üzərinə yerimişəm...**

Flora Kərimova daima xalqın içində olub. Xeyirində də, şərində də. 1990-cı ildə 20 Yanvar hadisəsi törədiləndə meydana çıxan yeganə sənətçi Flora xanım idi. O, 20 Yanvar hadisələrini belə xatırlayır:

"Sənət adamları arasında ümumiyyətlə, mübarizədə heç kimi görmədim" deyir: "Əksinə, bir sənət adamı mənə küçəyə çıxdığım üçün rişxənd edirdi. O, dünyasını dəyişib, Allah rəhmət eləsin, ad çəkmək istəmirəm. Küçədə mən qadınları qabağa-əsgərlərin üstünə aparanda, orada ermənilər də var idi. Allah o dünyasını versin, həmin xalq artisti MDB klubunun qarşısında dayanmışdı. Çox istehza ilə mənə baxırdı. Xatırlayıram ki, qadınlar zəncirvari bir-birinin qoluna girmişdilər. Qabaqda mən gedirdim, arxamda bir qadın gedirdi, əynində qara köynək vardı. Şəklimiz də var. Çöndüm, arxaya baxdım görüm kim gəlir. Gördüm ki, arxamda mötəbər elm qadınları var. Onların arasında Əminə Dilbazini gördüm, ürəyim dağa döndü. Mən risk olan yerdə həmişə olmuşam, amma heç bir sənət adamına orada rast gəlməmişəm.

Tankın qabağına getmişəm, erməni əsgərlərinin üzərinə yerimişəm, onları yoldan qaytarmışam. Amma bir sənət adamını yanımda görməmişəm. O günləri xatırlamaq mənə üçün çox ağırdır. Ayaqlarını paçalayıb, yalandan "Vətən, Vətən" deyə qışqıranlara nifrətim var. Hansısa müğənni vətənpərvərlik mövzusunda mahnı oxuyanda, özlüyümdə düşünürəm ki, birdən hardansa bir güllə səsi eşidildi, səni hansı çarpayının altından çıxaraq? "

**Yubiley iliniz mübarək, Ağdamlı günlərdə xoşbəxt olun!**

Əsl Azərbaycan xanımı, əsl qarabağlı, əsl ana, əsl vətənpərvər və nəhayət əsl əsilzadə xanımın ötənilki fikirləri xatırlayaq:"Son hadisələr ümid verir ki, Şuşamı, Ağdamımı, Qarabağımı görə biləcəyəm. O zəfər günü fərəhimə, qürurlanmağıma səbəb olacaq ki, bu acı günlər qələbəmizlə tariximizin səhifələrində qalacaq!"

Bu gün rəşadətli Azərbaycan Ordusu gözümüzn yaşına bələnmiş işğal tarixini gündəmimizdən birdəfəlik silib. Deməli qarşıdan gələn illərdə səsinin, xanımlığının, gözəlliyinin vurğunu olduğumuz Flora Kərimovanın təntənəli doğum günü qonaqlığında ürək sözlərimizi onun özünə elə ürəklə deyə biləcəyik!

**Gözünüz aydın Flora xanım. Ağdam işğaldan azad olub! Ad gününüz-80 yaşınız mübarək! Ruhu, qəlbu uşaq ruhu, uşaq qəlbi qədər təmiz olan Flora xanım! Necə gözəl illərə!**

**Əntiqə Rəşid**


# "Magistral Ekspress"

**(Ziya Bünyadov Prospekti 2113-cü məhəllə)**

**Məlumat üçün bildiririk ki, 03.09.2021-ci il tarixdə 09.00-da Ziya Bünyadov Prospekti 2113 ünvanında səhmdarların növbəti ümumi yığıncağı keçiriləcək.**

**Səhmdarlar ümumi yığıncaqda iştirak etmək üçün səhmlərə mülkiyyət hüququnu təsdiq edən reystrdən çıxarışın əslini, səhmdarları təmsil edən şəxslər isə reystrdən çıxarışın əslin və etibarnamənin əslini mütləq təqdim etməlidirlər.**

**Qeyd: Əgər pandemiya şəraiti ilə əlaqədar qapanma olarsa iclas online keçiriləcəkdir. Onli-ne iclas üçün məlumatı +99451-584-35-06 nömrəsi ilə əlaqə saxlayaraq ala bilərsiniz.**

**İclasın gündəliyi**

**1) "Magistral Ekspress" ATSC-nin 2019 və 2020-ci ilin maliyyə hesabatlarının müzakirəsi**

**2) "Magistral Ekspress" ATSC-nin Direktorlarının Şurasının (Müşahidə şurası) üzvlərin seçilməsi.**

**3) "Magistral Ekspress" ATSC-nin İdarə Heyətinin üzvlərinin seçilməsi.**

**4) Digər məsələlər.**


**"Ədalət" qəzetinin kollektivi İradə Tuncay və Aqil Abbasa əzizləri Gülxanım Fətəli qızının vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

***

**Sahib Sailov və Ələvsət Bəşirli ailə üzvləri ilə birlikdə unudulmaz dostları, əməkdar müəllim, görkəmli maarif xadimi Tədbir Mahmudovun vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.**

**Sona Çərkəz ailə üzvləri ilə birlikdə İradə Tuncay və Aqil Abbasa əzizləri Gülxanım Fətəli qızının vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Ramiz Məmmədzadə, Rafiq Hacıyev və Bulud Quliyev yaxın dostları Dilafət Hacıyevə nəvəsi SƏNANın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1608
Sifariş: 115
Çapa imzalanmışdır: 23.07.2021